**sıqpav** **sığpav**. ***1.*** sıyğaş. saypav. sığamaqlıq. saypav. saypu. səpü. sığmalıq. yumşaqlıq. oxşaş. məhəbbət. mülayimət. müdara. ***1.*** maliş.

**sıqqa** **sığqa. *1.*** köynəyin yaxası**. *1.* sığa. sığqu.** oluq**.** sığıncaq**.** genğəyiş **( > qoncayiş (fars)).** çıxar**.** qablıq**.** qapasitə**.** qabliyyət.

**sıqqarlamaq** **sığqarlamaq.** sımarlamaq. süsləmək. bəzəmək.

**sıqqatlı** **sıxqatlı**. **siqqətli**. **xissətli**. **(**bax **> qıtmır)**. qısmır. kinis **< >** çinis **< qınıs**.

**sıqqılamazlıq** **sığqılamazlıq**. **sındıramazlıq**. **sınğıramazlıq**. **singirəməzlik**. **sindirəməzlik**. **singirəməzlik**. ***1***. mənimsəyəməzlik. öğrənəməzlik. öğrəşəməzlik. aşınamazlıq.

əzbərləyəməzlik. unutqanlıq. alğınamazlıq. çəkənəməzlik. siliklik. ***1***. qəbul edəməzlik. ***1***. dözəməzlik. dözəmməzlik. dözənməzlik. dayanamazlıq. dayanışamazlıq. qatlanamazlıq. qatlaşamazlıq. tablanamazlıq. tablaşamazlıq. çəkəməzlik. çəkənməzlik. dartamazlıq. daşıyamazlıq. daşıyamazlıq. keçirəməzlik. səbr, təhəmmül, istiqamət edəməzlik.

**sıqqılamıyan** **sığqılamıyan**. **sınğıramaz**. **sınğıramıyan**. **sındıramıyan**. **sındıramaz**. **sindirəməz**. **sindirəmiyən**. **singirəməz**. **singirəmiyən**. ***1***. mənimsəyəmiyən. öğrənəmiyən. öğrəşəmiyən. aşınamıyan. əzbərləyəməyən. ***1***. qəbul edəmiyən. ***1***. dözəməz. dözəmməz. dözəmiyən. dözənmiyən. dayanamaz. dayanamıyan. dayanışamaz. qatlanamaz. qatlanamıyan. qatlaşamıyan. tablanamıyan. tablaşamıyan. çəkəməz. çəkəmiyən. çəkənmiyən. dartamaz. dartamıyan. daşıyamaz. daşıyamıyan. keçirəməz. keçirəməyən. səbr, təhəmmül, istiqamət edəmiyən.

**sıqqın** darıxmalı. **- canı sıxqın**: üzgün.

**sıqqınışmaq** **sığqınışmaq**. yerlənişmək. əklənişmək. durqanışmaq. **-** qaraqolqa **yerlənş aldım**: qaraqol şehrinə yerləniştim.

**sıqqıq** **sıxqıq**. **qısqıq**. basqıq. incikli. gücüklü. güclük. ağrıqlı. ağıqlı. tıxızlı. qarıqlı. qaraqlı. əzigig. izigik. gəzgig. gəzikli. gizikli. gizgig. əziyyətli. zəhmətli.

**sıqqu** **sığqu.** ***1***. bax **> sığqa.** oluq, sığıncaq, genğəyiş **( > qoncayiş (fars)).** ***1***. sığıncaq. yer. yerləşən yer. otraq. qoncayış. küncayış.

**sıqra** **sığar**. **səkrik**. iki dağ arasındaki geniş dərə.

**sıqrağ** **qısrav > sırqav**. xəsdə. məriz. naxoş.

**sıqramaq** **sığramaq.** ***1.*** fışqalamaq**.** ***1.*** sığdırmaq**.** sıxışdırmaq**. -** unu qaba **sığdır**.

**sıqraq** **sığraq.** ***1.*** iki barmağın arası**.** ***1.*** **(çığır. fışır).** fışqa. ***1***. sığar. ayağ. kasa. çanaq. piyala. qədəh. bardaq.

**sıqrımaq** **sığrımaq.** dammaq.

**sıqrıq** **sığrıq. səkrik**. səkrik yer. qırıq yer. dağda atlamaqla geçilən yer.

**sıqrış** **sığrış**. ***1***. sıqır. sığır. fışqa. ***1***. əməkdaşlıq.

**sıqrışmaq** ***1***. **sığrışmaq**. sığtaşmaq. əməkdaşlıqla bir işi yerinə qoymaq. ***1***. sıxrışmaq. ıslıqlaşmaq.

**sıqsama** **sıxsama**. **sıxlama**. **sıxtama**. **sıxnaq**. **( sıx <> qıs)**. qıstama. qıslama. qıssama. qısnaq. sınaq. sınav. sınaç. sınama. yoxlama. yoxlayış. yoxlanış. dənək. dənəyiş. dəniş. imtahan. azimayiş.

**sıqt** **sıxt**. sıx **>** sift.

**sıqtama** **sıxtama**. **sıxlama**. **sıxsama**. **sıxnaq**. **( sıx <> qıs)**. qıstama. qıslama. qıssama. qısnaq. sınaq. sınav. sınaç. sınama. yoxlama. yoxlayış. yoxlanış. dənək. dənəyiş. dəniş. imtahan. azimayiş.

**sıqtamaq** **sığtamaq**. ***1***. ağlamaq. yığlamaq. ığlamaq. ***1***. cırlamaq. carlamaq. bağırmaq. çoxlamaq. yıqlamaq. sığtamaq. ***1***. sıxınmaq. qısınmaq. iqınmaq. sığtamaq. sıxınıb ağlamaq. göz yaşın sıxmaq. sıxıb **(**sıxarıb**)** gözün yaşın çıxarmaq. **-** göz yaşın **sığtamaq**: sağınmaq**.** sayamaq**.** xatırlamaq**.** rəhmətləmək. ***1***. **sıqtalmaq. sığtamaq.** gözün yaşın sıxmaq**.** tökmək**.** qora çəkmək**.** ölən üçün ağlamaq**.** sutlamaq**.** çınqırmaq**.** qıçqırmaq.

**sıqtanmaq** **()sıqtatmaq.** ağlatmaq.

**sıqtaşmaq** **( t < > l )** yığlaşmaq. carlaşmaq. ağlaşmaq. ığlaşmaq. bağrışmaq. kükrəşmək.

**sıqtatmaq** **sığtatmaq**. **sığdatmaq. sıxdatmaq.** sıxıb suyun çıxartmaq. ağlatmaq. **-** sənin yoxluğun **sığtatdı** məni.

**sıqtı** **sığtı**. **sığıt**. **sıxıt**. ***1.*** göz yaşın sıxıb çıxartma. ağlama. zırıltı. ***1.*** çox ağlayan.

**sıqtınmaq** **sığdınmaq**. almaq. tutmaq. sığırmaq.**-** bu qab bir kilo **alır.**

**sıqtırım** **sığdırım**. **sığdırma**. **sığdırış**. **sığdırıt**. içinə alma. qaplama. qaplayış. qaplayım. qaplayıt. möhtəvi, ehtiva edmə.

**sıqtırış** **sığdırış**. **sığdırma**. **sığdırım**. **sığdırıt**. içinə alma. qaplama. qaplayış. qaplayım. qaplayıt. möhtəvi, ehtiva edmə.

**sıqtırıt** **sığdırıt**. **sığdırma**. **sığdırış**. **sığdırım**. içinə alma. qaplama. qaplayış. qaplayım. qaplayıt. möhtəvi, ehtiva edmə.

**sıqtırma** **sığdırma**. **sığdırış**. **sığdırım**. **sığdırıt**. içinə alma. qaplama. qaplayış. qaplayım. qaplayıt. möhtəvi, ehtiva edmə.

**sıqtırmaq** **{sığdırmaq**. **sıxdırmaq}**. ***1***. aldırmaq. **-** bunu cibivə **sığdır** bakalım. ***1***. yerləşdirmək. aldırmaq**. -** bunu ora **aldır**. ***1***. **sıxışdır**maq**. ( s < > ç ) çiqtir**mək**. ( ç < > c ) cikdir**mək**. tuqdur**maq**. toxuddur**maq**.** düğümləmək. ***1.*** bir nərsəni sıxıb suyun çıxartmaq. **-** üzüm **sıxtırmaq. *1.* sığdırmaq**.

**sıqtırmaq** **sığdırmaq**. ***1***. aldırmaq. **-** on kişini bir otağa **aldırdı**. ***1***. düşürmək. **-** ocağına **düşür**. **-** qabına **düşür**. ***1***. qorlamaq.

qorumaq. kölgələmək. saxlamaq. himayələmək. himayətləmək. difa', mudafiə edmək. daldamaq. daldalamaq. duldalamaq. duldamaq. qalağamaq. qalağlamaq. qalxanamaq. qalxanlamaq. sipərləmək. savarlamaq. savralamaq. ***1***. yerləşdirmək: almaq. **-** bu otaq on kişi **alır**. ***1*.sığdırtmaq**. sığındırmaq. barındırmaq. abandırmaq. oturutmaq. otruşutmaq. oturtmaq. yerləşdirmək. yerlətmək. əyləşdirmək. əğləşdirmək. əkləşdirmək. qabqaştırmaq. yatırtmaq. yergətmək. qorcalatmaq. saxlatmaq. iqamət, sikunət vermək.

***1*.sığdırtmaq**. yerləşdirmək. qabqaştırmaq. oturtmaq.

**- içinə sığdırmaq**, **yerlətmək**: içinə yaşatdırmaq.

**sıqtırmaq** **sıxdırmaq.** suyunu çıxartmaq.

**sıqun** **sığun. *1.* sıqun otı**: **adam kökü.** kökü adama bənzəyən bir ot. sevişmə gücün çoxaltır. ***1.*** yaban sığırı. dağ geçisi təkəsi·.

**sıqurmaq** **sığurmaq**. sığdırmaq.

**sıqürgə** **sıxürgə.** sökni **>** süngi.

**sıqza** **sığza**. paltrın bir yerlərini genişlətmək üçün sığdırıllan parça.

**sıqzalmaq** **sığzalmaq.** bir nərsəni bir nərsəyə sığdırmaq. sıxışdırmaq.

**sıqzamaq** **sığzamaq**. ***1***. dişi xilal ilə qurcalamaq. ***1***. başmaqda tikiş arasına parça qoyaraq sızqı yapmaq. iki nərsənin arasına bir nərsə sıxışdırıp qoymaq. ***1***. **sığdırmaq**.

**sıqzaq** **sığzaq**. ***1.*** sırıq. sıdıq. cırıq. yarıq. dişlər ara açığlıq. ***1.*** xilal. **-** diş **sığzağı**.

**sıqzıq** **sığzıq**. ***1.*** iki nərsəni arasında oturub, birləşdirən nərsə. iki dikiş arasına sığdırılan gön, qaytan. ***1.*** yamalıq. yamaqlıq. ***1.*** qurquşum. löhüm. ***1.*** araçı. mıyançı.

**sır** ***1.*** bağır**.** buxca**.** bükcə**. - sır saqlayan**: orxun**.** sirdaş**. *1.* < > şir.** boya**. - sır ver**: sır sürt**. - sırlamaq**: şirləmək**. - sır** qaşıq: boyalı taxda qaşıq. ***1***. bürə. güzgünün arxasına vurulan boya. mə'cun. ***1***. "**s**" il başlayan sözlərin, vurqulayan təkidir. **- sır sıqlam**: çox sıx. ***1.*** içgi söz. tasqa. taşa. dışa. tüb. gizli. yaşırım. saxlı. yaşırın. ***1***. oranlı. ölçülü. ***1***. **sir**. dik. tik. ***1.*** soy. nəsil. ***1***. sirr. yaş. ürəkdəki gizli nərsə. iç söz. ***1***. şir. sudan qalın, yoğun, quyuq. yapışqan suyuq.

**- sır** edmək:**.** ötmək. **(**aqustos böcəki**)**.

**- bir gizni, sirri, içi açımaq**: sökmək**.** qoxulatmaq**.** iylətmək**.**

ifşa edmək**. -** yarın onun işlərin **qoxulatacağam**.

**- sır vermək.** taqsa bermək: casusluq yapmaq**.**

**- sır öğrənmək**: taqsa bilmək: casusluq yampaq**.**

**- çalqım sırdı**, **qıynamlamay çalama**: tırpanım dəngəli, zorlanmadan biçirim**.**

**- sır bolmaq**: tikilmək**.** tikini durmaq**.**

**- sir qatmaq**: sır qalmaq**.** dimtik durmaq**.** tikilmək**.** donaqlamaq**.** put kəsilmək**.**

**- sır sırına**, **suv izinə**: soy soyuna, su sürünə.

**sır** ***1***. luğab. loab. ***1***. mum. **- gəlinsırı**. **gəlinmumu**. qırmızı gül türü. ***1***. **sirr.** ürək sözü ürəklik.

**-** birinə **sır** açılmaz, açılsada qaçılmaz.

**- sır saxlayıb**, **netəliyi**, **kimliyi bəsbəlli olmayan** qapalı qutu. içini artıq dışarı vurmayan kimsə.

**- sır sır**: **sür sür**: yol yol. iz iz. xət xət. qət qət. qat qat. damar damar. damarlı. çizgi çizgi. cızıq cızıq. qırım qırım. kərə kərə **>** kərkərə **(>** kirkirə**)**.

**- sır saxlama**: açmazlıq.

**- sır saxlar**: ağzı bərk, sıxı.

**- sır tutmaq**: ağzı gəvşək olmamaq. paxlayı ıslatmaq.

**- sır tutma dərcəsi**: ağız ölçüsü. **- sır tutmaz**: ağzı gəvşək. boşboğaz.

**sıra** ( **<** ***1*. sür**mək**.** sür**.** sürü**.** ***1*.** sar**.).** ***1*.** düzün**.** tabur**.** tapqır**.** düzü**.** qatar**.** ***1*.** növbət**.** keşik**.** qatman**.** ***1*.** kanapə**.** möbl ***1*.** sətir ***1*.** silsilə**.** ***1*.** uyqun zaman ***1*.** dəst**.** set**.** mobl**.** ***1*.** iz**.** qatlaq**.** qat**.** lay**. sıra arası**: qatar arisi **(**qatar: sıra**). sıra ilə**: gəzmə gəzək**.** növbətilə. nimkət**. sıravarı**: düzənlə**.** ***1*.** düzən**.** qur**.** gür**.** ***1*.** dizi**.** baran**.** üzüm**.** meyvə ağacları, bitgiləri dizisi**.** ***1*.** düzəy**.** səviyyə**.** dərək**.** əvrə**.** səth. ***1*.** boy**.** silsilə. ***1*.** yətək. yədək. yataq. sıram. növbət. ***1*.** dizi. yasav. dizi. düzü. tərtib. səf. müttəsil. nəsəq. nizam. qanun. ***1***. dizi. səf. **-** bir **sıra** inci. **-** ağacları var **sıra** sıra. ***1***. nəzm. tərtib. nobət. **- sıraya** qomaq. **- sıraya** girmək. **- sıra** ilə. **- sıramız** gəlməmiş hələ. ***1***. sinif. sınıb. **-** üçüncü **sıra**: üçüncü sinif. sınıb. ***1***. mənzilət. rütbə. mərtəbə. ***1***. xət. sətir. **-** neçə **sıra** yazı yazdım. ***1***. uzn taxda miz. **-** məktəb **sıraları**. ***1***. fürsət. **- sıra** gözətləmək. ***1***. sayaq. gəliş. **-** söz **sırası**: söz gəlişi. ***1***. seçilməmiş. rasgələ. bayağı. **- sıra** köömür. **- sıra** qarpuzi. ***1***. boyuna uzanmış. **- sıra** duvar. **sıra** ağacları. ***1***. sırailə. silsilə. sıravari. **-** dağ **sarsı**: dağ

silsiləsi. ***1***. uyuq. uyqun. uğur. yerli. yollu. münasibət. **-** sırasız söz söyləməkdənsə, sırasın gözləmək yeğdir. **- sırasız {**: ***1***. yersiz. yolsuz. münasibətsiz. ***1***. qarma qarışıq. düzənsiz**}**. ***1***. dərcə. dərəcə. təbəqə. ***1***. **< sürə**. coruk. yoruk. tənq. **- ardı sıra**: ardınca**. -** ara sıra: arada sırada: ara ara**.** gah gah**.** vax vax**.** ehyanən**.** ***1***. qat. **- qatla**: sıra ilə**. - qatlı qıtımlı**: sırlı sıralı**.** ***1***. qoşı. qat. sinif. ***1***. silsilə. qordon.**- qaraqol** qordonu. ***1***. dizi. tiziv. diziv. tizim. tizmə. dizmə. dizim. silsilə. silsilə. taraq. silsilə. dəsdə. türün. dürün. cərgə. sətir. səf. dizi. sıncır. bir tür içgi. **- sıncır dağlar**: sıra dağlar**.** parta. kəzüv. kərüv. zaman. **- ara sıra**, **qara sıra**, **qarça sıra**, **qanlı sıra**, **albotay sıra**: içgi türləri**. - sıra dağlar**: taraq taraq dağlar**. - o sırada**: anğıça. o zamanda. **- sıraya qoymaq**: gözüvləmək**.** sırayla yapmaq**. - sırayla yapmaq**: gözüvləmək**.** sıraya qoymaq**. - sırayla**: gözüvləş**.** birər birər. ***1***. sap**.** növbət. səf. dizi: tizik. ***1***. tav. tov. nobət. tov. **-** tov sənə: nobət sənindir**.** sağlıq vermədə deyilir**. - tov** kimindir**. - tav** mənə çatdı, bəxtim qoyub başın yatdı**. - tovda** sənə çatarmış, axar sular yatarmış**. -** yaşam oyndu, bir **tov** sən, bir **tov** mənə**. -** tovla gələn **tovla** gedər**. -** öz **tavın** gözlə. ***1***.

tərqü. tərgi. dizi.

- sıra sıra**.** tizin tizin: dizin dizin: diz bədiz**.** sətir sətir**.** səf bəsəf.

**- arxası sıra**: **ardı sıra**: dal ba dal. mütəaqibən. geridən bağlı, müttəsil.

**- önü sıra**: öndən. öncə. öndən müttəsilən.

**- yanı sıra**: yan yana. bərabər.

**- ara sıra**: arada sırada: aralıq aralıq. hərdən. bə'zən.

**- sırasında**: sarası ilə. uyuğunda. münasibəti ilə.

**- sıra sıra**: səf səf.

**- işi sırasına girmək**: işi yoluna girmək, düzəlmək.

**- sırada**: ikən. arada. əsnada. gəldiyim sırada asladım.

**- sıra sıra**:. ulam ulam**.** ard arda**.**dalba dal**.** arxa arxaya**.** dizək dizək**.** dizi dizi**.** qatar qatar.

**sıra** ***1***. axın. ***1***. gəzək. ***1***. cərgə. rədə. qat. qol. səf. ***1***. düzgi. dizgi. düzən. dizən. tərtib. ***1***. nimkət. ***1***. orın. rədə. mərtəm. qat. dərcə. dərəcə. ***1***. silk. ***1***. ara. açığlıq. qapqı. fürsət. vaxt. **-** bu **arada** qoyub qaçdı. ***1***. sərə. neçə kişinin oturabiləcəyi oturacaq. nimkət. bank**(latin)**. kanapə. ***1***. dizi. düzü. səf. qatar. ***1***. ara. aralıq. xilal. **-** sırasında:

arasında. aralığında. xilalında. **-** bu sırada: bu arada. bu xilailda. **-** o sırada: o aralıqda. o xilalda. ***1***. düzü. dizi. qatar. səf. ***1***. **<u>ək</u>**. **- yeyənsıra**: yeyəndə. yeyincə. **- qəlinsıra**: **gəlinsıra**. **gəlincə**. gələndə. **- gedənsıra**: gedincə. gedəndə. ***1***. gedəl. novbət. qatal. qadal. **-** onunda **qatalı** sovuşdu. ***1***. qat. səf. şərit. sərit. şərik. sərik. kərik. çərik. dərik. qarıq. ***1***. quyruq. səf. **-**otobus **quyruğü**: otobus səfi **-** çörək **quyruğü**: çörək səfi. ***1***. **seri**. cərgə. çəki. dəngə. dərəc. dərcə. dəri. dərik. düz. düzgün. dizi. düzü. diziş. düzüş. dizik. düzük. düzək. dizək. dizəm. düzəm. dizən. düzən. dizin. düzün. dizgə. düzgə. dizgi. düzgü. dizgin. düzgün. qada. qayda. qatar. doğru. qoynı. qoynu. qoni. qoylı. qoylu. onar. yonar. yolay. salıt. salt. sıra. seri. qanıl. yaraq. yasa. yasay. yasamişi. inzibat. kilas. intizam. nəsəq. nəzm. nizam. tənzim. tərtib. **(**taxı. uğur. arayış. biçik. biçim. biti. qılıq. uyuş. yapım. saxt. **)**. ***1***. seri. dav. novbət. əl. **(**oyunda. qumarda, sağlıq verməkdə**)**. **- əl** kimin. **- əl** sizin. ***1***. **sıram**. **sıraş**. **sırac**. **sırat**. dizi. düzü. ***1***. sıraş. səf. rədə. cərgə. rədif. ***1***. sürə. çağ. devir. zaman. hinqam. **-** döğüş **hinqamında**. ***1***. şirə. özlük. üsarə.

- **dizi dizi**: sıra sıra.

- **ön sırada yer almaq**: başa keçmək.

- **sıra sayqı**: adab o ərkan.

- **sıra işi**: bayağı. olağan. bəsit.

- **kəndi sırasına çəkmək**: əldə edmək.

- **sırada birinci**: bir.

- **yemisən bu bir**, **yalan danışdın bu iki**.

- **sıraya soxmaq**, **qoymaq**: rədifləmək.

- **ara sıra**: sıra kərə: çağ ba çağ. zaman zaman. bə'zən.

- **arad sırad**: sırad kərəd. bə'zi bə'zi.

- **bir sıra içində düzənləmə**: dizim. düzüm.

- **dalı sıra**: ardınca. ardından.

- **bu sırada**: bu arada.

- **ara sıra**: kəmaz. nadirən.

- **ara sıra**: çat pat. biraz. qırıq tökük.

- **sıra sıra**: düzəy düzəy.

- **ara sıra uğrama**: gəlim gedmə.

- **bir gün onunda sırası**, **çağı gəlir**: gün ola, xərmən ola.

- **bir sıranın ən sonunda olan**: ən geridə qalmış qaraquyruq.

**- sıra sıra**: düzün düzün. qatar qatar.

**- sırası gəlmək**: yolu düşmək.

**sırac** **sıraş**. **sıram**. **sırat**. **sıra**. dizi. düzü.

**sıraca** boğazda urlar çıxartan, gövdənin bir para yerləində yaralar açan bir xəstəlik. daül xinazir. **"aq banğ"**, "**sığır oti**", "**balığ oti**" **sıraca otu** çeşitlərindəndir.

**- sıraca (daül xinazir) xəstəliyi çeşitlərindən**: tomuz başı.

**sıraca** düzmə. **- boyun sıracası, düzməsi**: gəlincik.

**sırailə** silsilə. sıravari. **-** dağ **sarsı**: dağ silsiləsi.

**sıralalamaq** hazırlamaq**.** bardırılmaq**.** bağdaşlayıb.

**sıralalış** sıranış. düzülüş. diziliş.

**sıralama** dizmə.

**sıralama** düzənləmə. dizənləmə. düzənləyiş. dizənləyiş. çərəkələmə. cərgələmə. dərcələmə. rədələmə. qatlama. kilaslama.

**sıralamaq** ***1***. ələkləmək. ələmək. seçib ayırmaq. ayırmaq. ayıqlamaq. taxımlamaq. tabaqlamaq. bölükmək. dərcələmək. siniflənək. təsənnüf edmək. ***1***. qatmarlamaq. səfə çəkmək. ***1***. uşağın təti patı eləyib

yeriməsi.

**- bir konuyla ilgili bütün bilgiləri**, **bəlgələri sıralamaq**: töküm yapmaq.

**- düzü düzü**, **dizi dizi sıralamaq**, **səfləmək**, **qatarlamaq**, **rədifləmək**, **müntəzəm edmək**: diziləmək. düzüləmək.

**- nərsəni sıralamaq**, **sanatmaq**: ipə düzmək.

**sıralamaq** *1*. sapalamaq. sapallamaq. tarçıllamaq. **(dərcə > dərəcə**. **tərcil edmək (ərəb). )**. dərcələmək. taramaq. daramaq. çanalamaq **( > şanalamaq (fars))**. çan çan edmək. *1*. sıramaq. qoşmaq. düzmək.**-** söz **qoşmaq. -** orda nə **düzüb qoşursuz**. *1*. uşaq. uşağın yasdığa, duvara tutunaraq yeriməyə başlaması. **-** daha yerimir, **sıralamağa** başlamış.

**sıralanış** diziliş. düzülüş. düzülmə. dizilmə. düzəniş. qonuluş. qatarlanış. rədəbətlik. tərtibləniş.

**sıralanma** **- ardıcıl sıralanma**: dardalı. daldalı. ardalı.

**sıralanmaq** *1*. sarılmaq: sarlanmaq**.** hazırlanmaq**.** yaraqlanmaq**.** sulanmaq**.** hazırlanmaq. *1*. sırlanmaq. cürgəşmək. cərgəşmək. qoşunmaq. hazır durmaq. qurdaşmaq. məclis qurmaq. **-** ulduzları **cürgəşir**. *1*. sıralı. tizili**.** dizili**.** nəzmli**.** silkə çəkilmiş.

**sıralanmaq** düzüyə, diziyə qoyulmaq. düzülmək. dizilmək. qatarlanmaq. tərtiblənmək.

**sıralı** ***1***. dizili. düzənli. müntəzəm. tizili**.** nəzmli**.** sıralanmış. silkə çəkilmiş. **- sıralı** işlər qolay görünür. ***1***. yerli yerində. münasib yerində. ***1***. rütbəli.

**sıralı** ***1***. dizili. düzülü. düzənli. dərilmiş. dərili. qatarlı. mürəttəb. müntəzəm.***1***. yerində. çağında.

**sıralıq** saylıq. sayılıq. siyahi. list. fehrest.

**sıralmaq** birbiri yanında düzülmək. arqaşmaq. cərgəşmək.

**sıram** sıra.

**sıram** **sıraş**. **sırac**. **sırat**. **sıra**. dizi. düzü.

**sırama** **- nərsənin qoyulma, düzülmə, sırama yolu**, **işi**: salqa. səliqə. səlqə.

**sıramaq** ***1***. sır sürmək. boyamaq. **-** ayağçı ayağ **sırlar. -** arabanı ver **sıra**. ***1***. aldatmaq. basmaq. **-** bunu ona **sıradıq**. ***1***. çəkəmək**.** köz **(**kövz**)**əmək**.** aralı aralı tikmək **(**yorqanı sıramaq**)**. ***1***. sərimək. sırtamaq. səyirtəmək. **( >** sorayidən**)**. yırlamaq. oxumaq. ötmək. ***1***. sıralamaq. qoşmaq. düzmək.**-** söz **qoşmaq. -** orda nə **düzüb qoşursuz**.

**sıramıc** çatı. sakız. saklaz. sakaz. səqf.

**sıramik** **< sır.** boyalı qab.

**sıranış** sıralalış. düzülüş. diziliş.

**sıraq** **sırmaq.** təyəltl. yəhər palanın altına sırılan, sərilən kilim.

**sırasıra** **sıra sıra.** qaç qaç. qaş qaş. qaçaq qaçaq. qaşaq qaşaq. dizi dizi. düzü düzü. **- qaç qaç**, **qaş qaş olmaq**: dizilmək. düzülmək. yığınmaq.

**sırasız** yersiz. yolsuz. münasibətsiz.

**sıraş** **sırac**. **sıram**. **sırat**. **sıra**. dizi. düzüsəf. rədə. cərgə. rədif. **- sıraş dirkəşdirmək**: sıraş, səf qurmaq.

**sırat** **< sırıq**. cığır. incə, dar, uzanmış yol.

**sırat** **sıram**. **sıraş**. **sırac**. **sıra**. dizi. düzü.

**sırata** **sırada**.əsnada. çağda. zamanda. ikən.

**sıratan** **- sıradan önə düşmə, düşən**: qabalıq. qabaqlıq. **- qabalıq saylav**: pişrəs intixabat.

**sıratan** **sıradan**.açıq. bayağı. bəsit. sadə. başqalasız. fovquladə olmamaq. adi.

**sıratan** **sıradan**. qızıqsız**.** əryən**.** yoran.

**sırataq** **sıradağ**. dağ silsiləsi.

**sırataqlar** **sıradağlar**. riştə kuh.

**sırataş** sıradaş. yədəkdəş. yataqdaş. dizidaş. rədiflə gedən nərsələr.

**sıratışı** **sıradışı. *1.*** aracı**.** tayanc**.** dayanc**.** söyək**.** söykə**. *1.*** önki**.** öngü**.** dəğişik**.** fərqli.

**sıratlı** **< çıray < çıraq < yaraq < yarıq.** ışıqlı**.** üzıi**.** bənizli**.** görməgi**.** avadan**.** gözəl.

**sıravari** ***1***. bir sıra, dizi, səf quraraq durmaq. ***1***. silsilə. sırailə.**-** dağ **sarsı**: dağ silsiləsi. ***1***. sıravardı**.** bir sıralı. bir sırada.

**sıravartı** **sıravardı**. sıravarı**.** bir sırada.

**sıray** bəniz. üz. yüz. tös. çıray. önq. irənönq. menğiz. bet. bit. dərəcə.

**sırayla** düzüylə.

**sırcıranmaq** cırcıranmaq. qısqanmaq. qısqınmaq. qısınqanmaq. sığqınmaq. ***1.*** çəkəməmək. ***1.*** qeyrətə gəlmək. ***1.*** rəqib olunmaq. rəqabətdə bulunmaq. ***1.*** əsirgəmək. əsirgənmək. darığtınmaq. diriğ edmək. **-** qarısı kəndini qulluqçu qızlarından çox **qısqanırı. *1.*** rəşg edmək. qibtələnmək. həsədlənmək. çəkəməmək. **-** mən sizdən bir nəsə qısqanmamam.

**sırça** **- böyük sırça**, **şüşə**: minlik.

**sırça** *1*. bardaq. *1*. rind. çalağ. iti. ayna. güzgü. *1*. sırıçqa. sürüşgə. sürşək. şüşə. şüyşə. *1*. şüşə. süyşə. cam. - **kəsmə sırça**: **tökmə sırça**: bilur. - **təpə sırçası**: təpə camı: tavandan, qubbadan aydınlığ verən baca.

**sırçı** rəssam**.** boyaçı.

**sırıçqa** sırça. sürüşgə. sürşək. şüşə. şüyşə.

**sırıf** çınğıraq. çınraq. çınqar. sərik. sərin. açıq. ulus.

**sırıl** qatar. ərqiş. irqəş**. (irt < > ərt < > art)** ard ardı arda olan. tizgək. tizək. tüzək. düzək.

**sırılmaq** bulaşmaq. yapışmaq.

**sırılqa** şırılqa. hər nəyin belindən yuxarısı.

**sırılsıqlam** **sırılsıxlam**. *1*. **sırsıxlam**. cimcilaq. çox ıslaq. *1*. teyxa. dəlicə. kamilən. hesabi.

**- sırılsıqlam aşiq**: dəlicə sevən.

**sırım** *1*. > **sirom** **(fars)** şərit. *1*. qayış. qeyiş.

**sırım** *1*. çaqıq. *1*. sirim. qalınığı siyrilmiş, incəlmiş, yumşaq dəri dilimi. *1*. süzük uzun üzük incə dəridən olan sicim**.** - **sırıq kimi**: incə olduğunda çox sırtıq sağlam.

**sırımaq** *1*. seyrək tikmək. səkrək səkrək, ara ara tikmək. oyulqamaq. oyulqamaq. səqrək səqrək aralı tikmək.

köklәmәk. sarımaq. qablamaq. *1*. quşatmaq. **- yuvurqan sırımaq**: yorqan qaplamaq.

**sırımaq** **sığrımaq**. ***1***. sıx tikmәk. biri birinә sığırmaq, tikmәk, bәdlәmәk, tikmәk. ***1***. pislәmәk. siymәk. ***1***. **sirimәk.** basışdırmaq**.** tikmәk**.** sarımaq**. -** yorqan **sırımaq.** paltar **sırımaq**.

**sırınmaq** sırıtmaq. siyrinmәk. açılmaq. ölmәk.

**sırıq** ***1.*** **< > sıyrıq.** sırığ**.** qada**.** dәğәnәkdәn uzun olan**.** incә**.** yontulmuş**.** düz**.** sәrpik ağac**.** çәlik**.** çirit**.** çıta**.** dal**. - sırıq** kimi: çox uzun boylu olan**. *1.*** çadırın ortasına vurulan dirәk. ***1.*** xada. qada. qolac. әl ağacı. ***1.*** sıq. ziq. incә. dar. ***1.*** sıyrılmış incә ağac, dal. dayaq. ***1***. qabuği siyrilmiş, yonulmuş uzun ağac. çox uzun boyluya da "**sırıq**" deyilir. dallaq. ***1***. quruq. ip. şәrit. dәğnәk. sopa. qırmıq. ilqic. kiriş. qırav. qılıc ağac. qıla. uzun boylu. şırqı. şırıq. dilim. **- sırıq** kimi uzun boylu: saldır**.** şaldir**. - sırıq** kimi uzun boylu: **sıbaq. - sırıq kimi uzun boylu.** qılla**. - sırıq kimi uzun boylu**: qonda**.** iri yapıl. ***1***. sırıq. yırıq. sızıq. sıyıq. sıdıq. çadır, üstlük dirәği. cırıq. yarıq. **- sıruqluq**: sırıqlıq.

**- sırıq kimi**, **dallaq gәzmәk**: boş boşuna gәzmәk.

**- gecim sırıq**. **geyzim sırıq**: **paltar sırığı**: paltar, geyim yumaqda işlənən sırıq.

**- yüküc sırıq**: hambal sırığı: ağır yükləri daşımaqda işlənir. yüküclər **(**daşıyanlar**)** dörd olub, yükü iki sırığın üzərinə qoyub, daşırlar.

**- sırıq daşqası**: bir iki sırıqla qurulmuş iki dörd təkərli araba.

**sırıq** ***1***. neyzə. ***1***. dayaq. dəğənək.

**- sırıq ağac**: arda. uzun dəğənək, dirək.

**- su kovaların, dolçaların daşımada işlənən çiynə qoyulan sırıq**: qapsac.

**- ucu sivri dəmirli sırıq (uzun ağac)**: qarqa. qarqı. qarqu. qarquc. qarqıc. ərsin. əğsin.

**- uzun sırıq**: qarasa.

**- uzun sırıq, sopa**: üvəndirə. üvəndirik. qaçna. qaçnaq. qaçına. **(**özəlliklə malqaranı sürməkdə işlənir**)**.

**- uzun, dayaqlı sırıq, qamış çeşiti**: oqlıq.

**- yemiş yığmaq üçün sırıq ağac**: qaray. qarac. qarağac.

**- sırıt**, **sırıq qayış**: kolan.

**- sırıqla atlaq**: neyzə ilə atılmaq.

**sırıqlamaq** ***1***. çalmaq**.** qaldırıb götütrmək. ***1***. şırqılamaq. biləmək.

**sırıqlamaq** yükü sırığa ilişdirib, çində götürmək. oğurlamaq.

**- kötü malı irinə <u>basmaq, satmaq, sırıqlamaq</u>**: qaqalamaq.

**sırıqlanış** **sırıqlanma**. **sırıqlantı**. **sürüklənmə**. **sürükləniş**. **sürüklənti**. çəkiliş. çəkinti. çəkilmə. uzanma. uzanış. uzantı.

**sırıqlanma** **sırıqlanış**. **sırıqlantı**. sürüklənmə. sürükləniş. sürüklənti. çəkiliş. çəkinti. çəkilmə. uzanma. uzanış. uzantı.

**sırıqlanmaq** **- kötü mala <u>basınmaq, satınmaq, alınmaq, sırıqlanmaq</u>. aldanmaq**: qaqalanmaq. dimdiklənmək.

**sırıqlantı** **sırıqlanma**. **sırıqlanış**. **sürüklənmə**. **sürükləniş**. **sürüklənti**. çəkiliş. çəkinti. çəkilmə. uzanma. uzanış. uzantı.

**sırıqlıq** uzunluq. boyluq. **- sırıqlıq** ağac: uzun ağac. dirəklik ağac.

**sırıqmaq** ***1.*** axıb gedmək**.** süzmək**.** damcılamaq**.** damıb gedmək**.** ***1.*** sarıqmaq**.** saralmaq**.** solmaq**.** qurumaq.

**sırıqmaq** **sıyrıqmaq**. **sıyrılmaq**. qaçmaq. qurtulmaq. savuşmaq. xilas olmaq.

**sırıqqıç** qavrabut. incə bacaqlı. çöptən bacaq.

**sırışmaq** sığrışmaq. sıx tikmək. **-** yorqan **sırışmaq.**

**sırıt** sürüt. sırt. sereşt.

**- sırıt**, **sırıq qayış**: kolan.

**sırıtıq yıtıcı** kükrəmiş yırtıcı heyvan**.** qağan arslan.

**sırıtıq** sırıdaq. dişlək. dişləri lüt sırıtmış. dodaqları açıq dişləri lüt qalmış.

**sırıtlamaq** ***1.*** dibdən qoparmaq. siyirmək. təmizləmək. safatmaq. siyirmək. ***1.*** üzdən qılmaq ( > şolatlamaq). ***1.* sığdırmaq.** (sığımaq: yerləşdirmək). **sırıtlamaq.** yerləşdirmək. **-** bu pozuq malları kim sənə sırıtladı. qızımı ona sırıtdım**. sığı nərsələr**: **sırıt nərsələr.** sırıtlamalı. satılıb rədd olması gərəkən nərsələr.

**sırıtmaq** (**sıyrıtmaq**. **siyritmək**: çılpaqlamaq. açıb göstərmək). ***1***. dodaqların aralayıb dişlərin gösətib, dadsız dussuz, səssizcə gülmək. **-** nə **sırıtıb** durursun belə. ***1***. sırınmaq. siyrinmək. açılmaq. ölmək. soyuqdan donmaq. ***1***. uymamaq. uyuşmamaq. gözə taxılmaq. gözə girmək. pis görünmək. **-** bu parçada ağınan qara **sırıtır**. ***1.*** açmaq**.** açılmaq**.** sırtılmaq**.** dişlərini göstərmə**. *1.*** sırımaq**.** tikmək. ***1***. sıx tikmək. bir nərsəni birşəyə qətləyib tikmək. ***1***. azlıqların, saçuq suçuqların, eyb nuqsanların bir ucdan çıxması, gürünməsi. **-** onun suçları **sırıtır**.

**- dişlərin sırıtıb gülüşmək**: yılışmaq**.**

**- sırıtıb gülüşmək**: gəvşək gəvşək yanaşmaq**.** yılışmaq.

**sırıtmaq** *1*. dişin açmaq. güləmək. gülmək. *1*. açmaq. lütləmək.

**sırıtqan** *1*. **> sirayət edən.** bulaşan. *1*. sırtıq. adama yapışır. yılışıq.**- yılışıq** bir adam.

**sırıtqan** dişi açıq. güləyən.

**sırıtqanlıq** sırtıqlıq. yapışqanlıq. yılışqanlıq. yılışıqlıq. bulaşqanlıq.

**sırlamaq** *1*. boyamaq. rəhləmək. *1*. sırlamaq. sır vurmaq. sır sürmək. boyamaq.

**sırlamaq** boyamaq. rəhləmək.

**sırlan** **( < sürülən).** sürlən**.** sürtük**.** saf**.** züvgan**.** qayğan**.** düz**.** tüksüz**.** şumal**.** saf.

**sırlanmaq** sıralanmaq. yönəlmək. hazırlanmaq.

**sırlatmaq** sırlatmaq. boyatmaq.

**sırlı** ***1*.** sırma**.** boyalı**. *1*.** gizli**.** gizəmli**.** orxun.

**sırlı** **şirli**. luğablı. loablı. **- sırlı**, **şirli çömlək**: çulxqa. çuqal.

**sırlıq** sırlı. naxışlı. sırlıq ayağ. sırlı kasa.

**sırma** *1*. altun, gümüş tellərl yaldızlanmış, bəzənmiş qumaş. - ağ **sırma**. - altın **sırma**. - **sırma** işləri. *1*. **sarma**. sarı, gözəl saç. **- sırma** saçlı sevgilim. *1*. tel. sim. şunur. *1*. naxış. nəqşə. rəsm.- sırmalı parça. *1*. qaçıya. oqa. şərit. **sırma şərit**: qaçıya çaluv. *1*. saf**.** seçin**.** arıq**.** təmiz**. *1*.** açılmış

daranmış**.** atılmış**.** yumşaq yün**.** ***1.*** kərdi**.** kəsə**.** iki kərdini arıyan çəkə**.** sap**.** qızıl sap. ***1***. sırlı**.** boyalı.

**- bu qurdun biçimində olan naxışlı sırma**, **işləmə (**parça. şəkil**)**: tırtıl. dartıl.

**- som sırmalı taqa**: altın uluq taqa: qızıl sırma ilə işlənmiş parça topu.

**sırma** ***1***. çəkin. süs olaraq, qızıl, gümüşlü sapdan paltar üzərinə tikilir. ***1***. qaqma. altın, gümüşdən işlənmiş parça. ***1***. sırmalı. işləmə. işləmli. bəzəkli. süslü. ***1***. sim.

**- sırma ipliği**: sırma, çəkin tikmə üçünqızıllı, gümüşlü sap.

**- sırma işləmə**: sırma, çəkin tikmə.

**sırmaçı tükanı** çəkinçilik tükanı.

**sırmaçı** sırmalayan. çəkinçi.

**sırmaçı** simkeş.

**sırmaçılıq** çəkinçilik.

**sırmakeş** sırmaçı.

**sırmalamaq** nəxşə salmaq, tikmək.

**sırmalı** ***1***. **çəkinli**. qızıllı, gümüşlü sapla bəzənmiş paltar. ***1***. **sırma**. işləmə. işləmli. bəzəkli. süslü.

**sırmalı** naxışlı. nəqşəli. rəsmli. **-** sırmalı parça.

**sırmamaq** siyirmək. qapıp almaq.

**sırmaq** ***1.*** bax **> sımaq. *1.*** ayırmaq**.** soğurmaq**.** çıxarmaq**.** süpürmək**.** yılmanaq edmək. yılmamaq**.** saplamaq**.** seyqəl, sığal vermək**.** bardaqlamaq**.** tükləri qırxıb sıyrıb ayırmaq**. *1.*** sağlamca sırayla sırımaq**. *1.*** sürmək**.** sürtmək**.** sirmək**.** bulaşdırmaq**. -** əlivə yağ **sır. -** əlim xəmir **sırlıdı**: xəmirə bulaşıb. ***1***. qaymaq. zivmək. züvmək. ***1***. **sıraq**. təyəltl. yəhər palanın altına sırılan, sərilən kilim.

**sırmaq** kəsmək. qırxmaq. **- saqqalın sır**: kəs.

**sırna** **zırna**. sürğün. sürün. sürnə. **(> sorna** **(fars))**.

**sırnaşıq** ***1.*** sırtıq**.** utanmaz**.** qatı üzlü**. *1.*** sürtüşən**.** sırışgən**.** sırşaq**.** yapışqan**.** ulaşqan**.** qovuşqan.

**sırnaşıq** sürnaşıq. sürtük. sırtıq. yaltaq. yalağçı. yalataq. çaplus. üzlü.

**sırnaşlıq** çamırlıq. yapışqanlıq. sırtıqlıq. tərbiyəsizlik.

**sırnaşmaq** **sürnəşmək**. **sınmaq**. **sınışmaq**. əğilmək. bükülmək. çarpılmaq. çaprılmaq. çaplaşmaq > çaplaşlıq edmək. çaplusluq edmək. yaltanmaq. yaltağınmaq.

**sırqa** **cırqar. ( < cırıq. yarıq). *1.*** mal heyvanın qulağı kəsilərək qoyulan im, işarə**. *1.*** küpə**.** taxı**.** aksesuar**. *1.*** ərməğan**.** bağış**. *1.*** həlqə, həlqəli**. - sırqalı**: küpəli.

**sırqa** küpə. küppə. asqı. güşvara. **-** bu sözüm qulağına **küpə** olsun.

**sırqa** **sırğa. ısırğa**. asırğa. salqum küpə. astığ. alburqa. salburqa. qulaq küpəsi. qulağa taxılan küpə. burış. küpə. güşvara.

**sırqab** **sırxab. *1*. ( < sari** + **ğav**: sarımsı topraq**). (sır** + **ğav**: boyalı. boyaqana**). *1*. < zər**ğav**.** sırğav: sarı qırmızı ya çalan**.** sır: boya**.** sarıyla: sarımsı topraq**.** qızılaç topraq**.** sarıqərə: sarı.yağli topraq**.** boyaçı**.** boyaçılıq.

**- sarıqərə**: sarı yağli topraq.

**sırqal** **sırğal.** sayyal. uçar. boş. gedər. qalmaz.

**sırqan** **sırğan. sarqan**. ***1.*** minar. fənər. fanus. ***1.*** günbəz. ***1.*** əlamət.

**sırqaq** **sırğaq. *1*. ıyırqaq. sıdırqaq. sızırqaq.** sızığı, cırığı olan nərsə. sığır, qoyun kimi heyvanların dırnağlarında olan çatal. ***1*. ( < cırıq. yarıq).** rahatsız.

**sırqaş** **sırdaş**. arxadaş. qorluq. qorqul.

**sırqatikin** **sırğatikin.** sırga təkin.

**sırqav** ***1***. asqav. küpə. qırızma. güşvara. ***1***. ilişik. kəsəl. məriz. xəsdə. naxoş.

**sırqav** **sırğav**. **( < cırıq. yarıq).** xəstə**.** sırqavçılıq.

**sırqav** **sırğav.** qulaqlıq. tövsiyə. aviz (fars) **<** asıv. aslaq. aslıq. sarılan asıan nərsə. quşbara. güşbərə. qoşbara. qoşulan nərsə. qoş. köç. qoşu. köç. cihaz. vəsayil. **- qulağ sırğavı**: qulaqda küpə: qulaqda saxlanılan söz**. -** bu söz qulağınızda küpə olsun.

**sırqavçılıq** kəsillik. yağdaysızlıq.

**sırqavlı** kəsəllik. yatalım. yatlım. yatlanıq. yaltanıq. naxoşlama. mərizləmə.

**sırqavlıq** yağdasızlıq. yağmasızlıq. xəstəlik.

**sırqı** **sırğı**. biləği daşı.

**sırqın** düzgün. müntəzəm. **- kiçik**, **arın**, **duzlu**, **düzgün**, **gözəl olan nərsə**: incik.inci kimi: mərcan, dürr kimi.

**sırqın** **sırğın**. ***1***. **< sürə.** sıraş**.** həmrədif**.** ***1.*** qarlı qarışlı yel**. - sırğıllı yel**: boran**.** çapqın**.** barımaq**.** iğallı**.** soyuq hava**.** qarqatışıqlı əsən yel.

**sırqın** **sırğın**. ***1.*** heyvan, quş pisligi**.** ***1.*** şoraqlığda bitən tikan.

**sırqu** **sırğu**. sıyırqu. sayırqu. sayru. ***1.*** **sayrığ**. xəstə. ***1.*** xəstəlik. illət. ***1.*** incik. kədər. ağrı.

**sırqurmaq** **sırğurmaq. < sürgürmək.** sürdürmək.əritip axıtmaq**.** boşaltmaq.

**sırr** **sirr**. ***1***. giz. gizik. gizəm. gizlin. gizgin. içrək. içlik. saxlı. məxfi. yaşırın. qapatın. qapalı. çulqalı **(< çuq)**. bağışın. bağşıtın. basıtın. məhrəmanə. görünməyən. bilinməyən. anlaşılmayan. ***1***. qapaqlıq. qabaqlıq. gizli saxlanmalı, tutunmalı nərsə. ***1***. sirr. giz. gizik. gizəm. gizli. içrək. içlik. saxlı. ***1***. ağız. **- ağzın (**sırrın**) verən beli qırılar**, **açıx qapı**, **iti yarılar** (çapılar, oğurlanar**).**

**- könül**, **giz, sırr ulağı**, **çaparı**, **peyki**: göyərçin. göverçin.

**sırrılı** **- gizli**, **saxlı**, **tutulu**, **sirrli, sırrılı nərsə**: qapaqlı. qabaqlı.

**sırsatmaq** **( < sar**sıtmaq: **sal**lamaq**).** istəyin gəvşətmək**.** titrətmək: düz yoldan sırsatmasın tanrım səni.

**sırsıqlam** **sırsıxlam**. **sırılsıxlam**. cimcilaq. çox ıslaq.

**sırt** ***1***. ardıl. yengsə. xəlvət. ***1***. dağın beli ətəyi. damənə. ***1***. təpə. ***1***. dal. yengsə. əngsə. ənsə. iz. arxa. ***1***. sürüt. sırıt. sereşt.

**- eşşək sırtı**: beşik sırtı. çevrəsinə axıntılı, saçıqlı saçaqlı olan

örtü.

- **evi sırtında**: köçəri. çölçü.

- **qarnı sırtına gəlmək**: altüst olmaq. tərsinə dönmək.

- **pıçaq sırtı**: çox az aralıq, fərq.

- **balıqsırtı**: ortası yüksək, yanları doğru uçan, alçalan dirsək, yüksəklik.

**sırt** ***1***. arxanın yuxarı bölümü. hər nəyin qabarıq bölümü. əgin. dal. dalı. - **sırtıvı** duvara ver. - **sırtıva** al. ***1***. heryvanın qılıclama olan arxasının ən yuxarısı. - yəhər atın **sırtını** yaralamış. ***1***. uzanan dağın boy, qılıclamasına sürən bölümü, yeri. yamac üsdi. - uzaqdan dağın **sırtı**, sınır kimi görünür. ***1***. arxa. əğin. - **dağ sırtı**: boyuna uzanan dağın yuxarısı. ***1.*** sağrı. arxa. dal. ***1.*** sürət. süryət. ***1.*** üst. doruq. baş. şişik bölüm. üz. dağ təpələrin üstü. yal. - bu dağın **sırtına** çıxmaq çox sərtdi. - **sırtından atmaq**: başından atmaq. dalıya atmaq. ***1.*** kürək bölümü. çalka. dalı. arxa. ard. göt. - **cocuğun sırtı.** dalı. piçağın sırtı. - **sırt çevirmək**: üz verməmək. - **evin sırtı**: arxası. - **sırt sırta**: əl birligi: iş birligi. - **sırtı qaşınır**: götü qaşınır. sırtı sıra: dal ba dal. bir birinin ardından. arxasından. sırtlamaq: yükləmək. **sırtçı**: izləyici. ***1.***

yamac. - geyiklər **sırtdan** enirlər. - **dağ sırtı**: dağ gərşi: dağ beli. ***1.*** günorta. ***1.*** dış. dışarı. sırtkı. form. biçim. **( > surət).** ***1.*** rəng. boya. toz. tus. - **siçansırt**: qır at rəngi. ***1.*** qıl. qalın qıl. yal tükü. ***1.*** bayır. yoxuş. təpə. ***1***. təpə. örüş. turqu. durqu. yamac. - **yamacdan** dərəyə endi: **sırtdan** özəngə ağışdı: - **sırtı əğri**: belqavsırt. kambur.

- **sırta vurmaq**: yaqrınlamaq. yarınlamaq. yaqrıtmaq: **yaqrımaq**.

- **sırtdan atmaq**: əğin boşaltmaq. başdan savmaq.

- **sırta almaq**: yüklənmək. mütəhhüd olmaq.

- **balıq sırtı**: ortası qabarıq, qubbəli olan. - baxca yollarını balıq sırtı yapmalı.

- **salla sırt edmək**: sırtına almaq. yüklənmək. - **quyruğun salla sırt** edmək: quyruğun belinə almaq.

- **sırtıq**: sırtın tutan. dəvamın tutan.

- **birinin sırtındn çıxarmaq**: **birinin boğazından çıxarmaq**: birini qusdurmaq. güclüyüb, zorlayıb almaq.

- **sırt dayamaq**: sırt vermək: güvənmək. yardım ummaq.

- **sırt sırta vermək**: yardımlaşmaq.

**- salla sırt edmək**: kürəyinə atmaq. **-** it quyruğun **salla sırt edib** getdi.

**sırt** geri. engir. yengir. dalı.

**sırtam** **sırdam**. çəkim**.** rıxtım**.** uzun**.** dik**.** quni.

**sırtaq** ***1***. balta. ay balta. ***1***. üst paltar.

**sırtar** sırtı, omuzları qabarıq. kürəyi qalın dərili, toplu örtülü olan. omuzları qalın dərili bir çeşit kələr.

**sırtarmaq** sırtırmaq. sırtılmaq. ***1***. sırtını dayamaqla gücünə güvənmək. arxalanmaq. güstaxlıq edmək. üzlənmək. **-** nə **sırtarıb** durursan. ***1***. qabarmaq. bulutların üfüqdə arxa arxaya dayanıb, qabarıq bi durum tapması. **-** bulutlar **sırtardı**.

**sırtaş** **sırdaş**.

**-** çox sürtük, **sırtıq**, qaşqa, girinti, girnil, girniş, fizul kimsə: qatı sülük.

**sırtaş** **sırdaş**. bağşıt. bağış. qarındaş. içdaş. başdaş. qafadaş. könüldaş. ağıldaş. oydaş. öğdəş. fikirdaş.

**sırtaş** **sırdaş. *1***. qoruyucu**.** tayanc**.** dayanc**.** güvənilən kişi**.** hami**.** ***1*.** orxun**.** sır saqlayan. ***1***. könəş. könüldəş. yoldaş. yaşru. həmraz.

**sırtaşlıq** **sırdaşlıq**. qarındaşlıq. içdaşlıq. başdaşlıq. qafadaşlıq. könüldaşlıq. ağıldaşlıq. oydaşlıq. öğdəşlik. fikirdaşlıq.

**sırtaşmaq** **sırdaşmaq**. yaşruşmaq. gizləşmək.

**sırtılmaq** ***1***. bəbəkləşmək. qoduxlanmaq. şımarmaq. ***1***. sataşmaq. çamırlaşmaq. şirrətləşmək. ***1***. şımarmaq. azmaq.

**sırtılmaq** **sırtırmaq**. **sırtarmaq**. ***1***. sırtını dayamaqla gücünə güvənmək. arxalanmaq. güstaxlıq edmək. üzlənmək. **-** nə **sırtarıb** durursan. ***1***. qabarmaq. bulutların üfüqdə arxa arxaya dayanıb, qabarıq bi durum tapması. **-** bulutlar **sırtardı**. ***1***. şımarmaq. əzilmək. üz tapıb azmaq. üzlənmək. ərköyüllənmək. şuluqluq edmək. isizlənmək. ısızlanmaq. səvimsizləşmək. yaramazlaşmaq. duzsuzlanmaq. üz bulmaq. düz yoldan azmaq. yanğşamaq. dadsızlanmaq. duzlanmaq. **- şımarmış** cocuğ. ***1***. artuqlanmaq. aşırı gedmək. ıfrat edmək. ***1***. isizlənmək. ısızlanmaq. səvimsizləşmək. yaramazlaşmaq. duzsuzlanmaq. şuluqluq edmək. ***1.*** şıltaqlanmaq**.** qudurmaq**.** qoduqlanmaq**.** gobutlanmaq**.** qadruqmaq**. *1.*** dişlərini göstərmə, sırıtmaq,.

**sırtılmış** yartılmış. yırtılmış. utanmaz. **- yırtılmış** cocuq.

**sırtım** **sırdım**. rıxtım.

**sırtına** sırtıda**.** bir dən.

**sırtından çıxarmaq** böğüründən çıxarmaq.

**sırtıq** **< sırt.** ***1***. sərtlik**.** qalmıq**.** üzlü**.** sırnaşıq**.** utanmaz**.** qatı üzlü**.** çıxarcı**.** asan**.** asıcı**.** asıcıl**.** üzücü**.** arsıy**.** arsız. ***1***. alıq. iddəali. **- sırtıq** kişi. ***1***. nərsənin sırtında, izində, içində olan. nərsənin sırtı, içi. mahiyyət. **-** onun sözünün sırtığı bu**. -** sizin işlərin **sırtığı** bəllideyil**.** ***1***. sürtük. türtüş. türtük. dürtük. yaxılıb sürtülən kimsə, nərsə. ***1***. sırtın tutan. dəvamın tutan. üzlənib azmış. şımarıq. şımarmış. yırtıq. utanmaz. arsız. həyasız. sırıtqan. adama yapışır. yılışıq. **- yılışıq** bir adam**. - sırtıq bulmaq**: sözün izərini bulmaq. ***1***. siltik. silik. sılıq. qüstax. yüzsüz. ***1***. utanmaz. uyatsız. axsın. aqsın. başın burnun hər yana dürtən. fizul. yaramaz. həşəri. qorxmaz kişi.

**sırtıq** ***1***. sürtük. sırnaşıq. sırnaşıq. yaltaq. yalağçı. yalataq. çaplus. üzlü. ***1***. sürtük. pezəvəng. qaldaban. çaldaban. yalançı. qandağ. qandağçı. qandırıtçı. qanqırıtçı. düzənçi. düznəçi. şarlatan. qatlaban **< >** qaytaban **>** qaltaban. ***1***. dalüz. dələduz. əğrib dolab. pezəvəng.

qaldaban. çaldaban. fırıldaq. fırıldaqçı. sürtük. çalqaq. çalpaq. yalpaq. yalqaq. qatılqan. qatığan. fizul. ***1***. şımarıq. üzlü. hopba. yüngül. dəlişman. dəlismən. ***1***. suvaşıq. sıvışıq. simitən. simic. üzlü. ***1***. girgin. girilgən. çalqaq. çalpaq. yalpaq. yalqaq. qatılqan. qatığan. fizul. hər yerə girib çıxan. soxulqan. ***1***. sulu. ***1***. alınlı. utanmaz. kaşar. çaşar. ırsız. hırsız. arsız. qustağ. həyasız. ***1***. girizən. gizirən. girişən. dalan. dalqıc. girgin. girilgən. keçmə. geçmə. soxulqan. sovulcan. qatılqan. qatığan. fizul. **- sırtıq sürtük** göbəyi küçədə kəsilmiş. ***1***. ıslaq. suyuq. ***1***. sirimsi. sinsi. sinsidən. qınzır. qıncır. əziyyət edən. ***1***. **sürtük.** qaşqa. girinti. girnil. girniş. fizul. **- çox sırtıq kimsə**: qatı sülük. ***1***. üzdən gedməz. qabığıqalın. qalınqabıq. dayanıqlı. dözümlü. qara astar. qarastar. inad.

**sırtıqlaşmaq** girilgənləşmək. girginləşmək. soxulqanlaşmaq. fizullaşmaq.

**sırtıqlaşmaq** **sırtışınmaq**. siyimsişmək. çiğdəşmək. çılqınışmaq. tutnuşmaq. tutşunmaq. qızmaq. qızışmaq. qızınmaq. qızşınmaq. qıznışmaq. itimək. itişmək. itiləşmək. itləşmək. itşinmək. itnişmək. ütşüşmək. ütnüşmək.

ötgəşmək. ötləşmək. ötnəşmək. öcgəşmək. öcləşmək. öcnəşmək. odşunmaq. odnuşmaq. odşunmaq. odnuşmaq. təpgişmək. dirnişmək. dirsəşmək. daşlaşmaq. daşnışmaq. tərsələşmək. tərsləşmək. təsləşmək. tərsinişmək. tərsişmək. uğrsuzlaşmaq. uğursuzlaşmaq. uyuzlaşmaq. quduzlaşmaq. uymazlaşmaq. uymazışmaq. könəzləşmək. könzəşmək. çapraşmaq. çaprazışmaq. yamanlaşmaq. pisləşmək. pisəşmək. arxalaşmaq. asavlaşmaq. olmazışmaq. bətərləşmək. qarşıtışmaq. qarşıtınmaq. qılmazışmaq. xuysuzlaşmaq. kəsginişmək. sərtişmək. sarplaşmaq. qatlaşmaq. üzləşmək. üzlənmək. ayğırışmaq. muxalifləşmək. inadlaşmaq. əksiləşmək. ziddləşmək. muğayirləşmək.

**sırtıqlıq** ***1***. çamırlıq. yapışqanlıq. sırnaşlıq. tərbiyəsizlik. ***1***. sırnaşıqlıq. sürnaşıqlıq. sürtüklük. yaltaqlıq. yalatağlıq. çaplusluğ. üzlülük. ***1***. girginlik. girilgənlik. girizənlik. gizirənlik. girişənlik. dalanlıq. dalqıclıq. keçməlik. geçməlik. soxulqanlıq. sovulcanlıq. fizulluq.

**sırtıqlıq** sırıtqanlıq. yapışqanlıq. yılışqanlıq. yılışıqlıq. bulaşqanlıq.

**sırtırmaq** **sırtılmaq**. **sırtarmaq**. ***1***. sırtını dayamaqla gücünə güvənmək. arxalanmaq. güstaxlıq edmək. üzlənmək. **-** nə **sırtarıb** durursan. ***1***. qabarmaq. bulutların üfüqdə arxa arxaya dayanıb, qabarıq bi durum tapması. **-** bulutlar **sırtardı**.

**sırtışınmaq** **sırtıqlaşmaq**. siyimsişmək. çiğdəşmək. çılqınışmaq. tutnuşmaq. tutşunmaq. qızmaq. qızışmaq. qızınmaq. qızşınmaq. qıznışmaq. itimək. itişmək. itiləşmək. itləşmək. itşinmək. itnişmək. ütşüşmək. ütnüşmək. ötgəşmək. ötləşmək. ötnəşmək. öcgəşmək. öcləşmək. öcnəşmək. odşunmaq. odnuşmaq. odşunmaq. odnuşmaq. təpgişmək. dirnişmək. dirsəşmək. daşlaşmaq. daşnışmaq. tərsələşmək. tərsləşmək. təsləşmək. tərsinişmək. tərsişmək. uğrsuzlaşmaq. uğursuzlaşmaq. uyuzlaşmaq. quduzlaşmaq. uymazlaşmaq. uymazışmaq. könəzləşmək. könzəşmək. çapraşmaq. çaprazışmaq. yamanlaşmaq. pisləşmək. pisəşmək. arxalaşmaq. asavlaşmaq. olmazışmaq.

bətərləşmək. qarşıtışmaq. qarşıtınmaq. qılmazışmaq. xuysuzlaşmaq. kəsginişmək. sərtişmək. sarplaşmaq. qatlaşmaq. üzləşmək. üzlənmək. ayğırışmaq. muxalifləşmək. inadlaşmaq. əksiləşmək. ziddləşmək. muğayirləşmək.

**sırtıtılmaq** ***1***. azdırılmaq. şımartılmaq.

**sırtıtmaq** ***1***. şımartmaq. əzdirmək. üz vurub azdırmaq. üz vermək. ərköyül böyütmək. **-** cocuğu **şımartma**. ***1***. üzə gülmək: üz vermək.

**sırtıtmaq** azdırmaq. şımartmaq.

**sırtlamaq** ***1***. dalına almaq. sırtına, kürəyinə almaq. ***1***. dayanmaq. kürək vermək. arxa vermək. ***1***. artmaqlanmaq. yükləmək. ***1***. yükləmək. artamaq. **-** yoxuşu tan ertən **sırtladıq. -** sırıtlamaq. bükmək. sarıtmaq. **-** ipəklə altun **sırıtlı** sap.

**sırtlan** **- sırtlan çeşiti**: andıq.

**sırtlan** ***1***. **( < sırtıq. sırtlı. sırtı qabarıq** olan**)**. beli, kürəyi quzli, qoğzaq, yallı olub, yırtıcı, quylanmış ləş, ölüləri gordan çıxarıb yeyən qurd kimi bir heyvan. kafdar **(kavtar**: ***1***. **< kavmaq**: qazmaq. qazıb çıxaran. ***1***. **< kaptar**. **koptar**: qabarıq. gobut olan**)**. yalsızına **anduq** dərlər. ***1*****.** dalda,

arxada qalmış. ***1.*** əqəbmandə. ***1***. anduq**.** andıq**.** kafdar. ar böri.

**sırtlanmaq** ***1***. artmaqlanmaq. yüklənmək. ***1***. dallanmaq. arxalanmaq. dalına, arxasına almaq.

**sırtmaq** ***1***. duzağ. tutsaq. kəmənd. qısmaq. ***1***. sallamaq.

**sırtqı** zahiri**.** görnüşdən**.** dışkı**.** xarici.

**sırttaq** **şırdağ. ( < sırt)**. nərsənin sırtın, danı, altın tutan qablıq. qısa qol kaftan. sini kimi nələr.

**sırtüstü** **> sıtüstü**. çalqoyun. dalıquylu. dalüstü. geriquylu.

**sıruq** sırıq. çadır, üstlük dirəği. **- sıruqluq**: sırıqlıq.

**sıruqu** sıcaq əsən bir yel.

**sısıq** **<** metatez **> saxsı.**

**sıslıq** **sıstıq**. ***1***. süslük. süstük. süsük. süsüt. süsgüt. sikut. ***1***. susluq. sustluq.

**sısqa** ***1***. arığ. cürə. ***1***. qıra. qıraca. cılız. qıntıc. qıncıq. qıntın. çınğır. çınğız. çanğıc. qambır. qanbır. qaqbır. çapbır. çapqır. qaq. quruq. çəlimsiz. zəif.

**- quru**, **sısqa qadın**: qaqnım. qaqmın. qaqlım. qaqsım. qaqcım.

**sısqa** ***1***. cılız. qırağ.zayıf. çəlimsiz. gücsüz. suvalıq. çox cılız. ağzun açsa öpgələri görünə. gibir. qansız. suvcılıq. ***1***. gəmiz. kəmiz. cılız. xəsdəlik. ***1***. küsəqət. cılız. yanığ. arığ, quri, cılız, alız olan cocuq.
**.-** yanığ cocuq.

**sısqacaq** **susquçaq.** kiçik**.** körpə.

**sısqalıq** arığlıq. cürəlik. zayıflıq.

**sısqanmaq** **(s < > ç ) sıçqanmaq**. sıçranmaq. atlanmaq **(**# **sısıq.** pısıq**.** sosuq**).**

**sıstıq** **sıslıq**. ***1***. süslük. süstük. süsük. süsüt. süsgüt. sikut. ***1***. susluq. sustluq.

**sış** **sış** şiş. tutmaç şişi. şış.

**sışılmaq** **( s < > ş ). şişilmək.**

**sışmaq** **sıçmaq**. ən edmək **(**cocuq dində**)**. pisləmək. qaqalamaq. qaqıclamaq. qaqılamaq. qaqırlamaq. qaqışlamaq. qaqıtlamaq. oturmaq. dışqamaq. eşiyə, ayaq yoluna gedmək.

**sıtacaq** **ısıtacaq**. issitmə tə'sisatı. kalorifer. radyator. şufaj. **- sıtacaq borusu**.

**sıtacaqçı** **ısıtacaqçı**. issitmə tə'sisatçısı. kaloriferçi. radyatorçu. şufajçı.

**sıtal** **sıdal. *1.*** cıdam**.** qudrət**. *1.*** muktədir**.** güçlü**.** əğəmən.

**sıtar** yatar**. istat**: **< sırt.** sırtlad**.** kök**.** dal**.** pay**.** say**.** day **>** iştat.

**sıtı** **sıdı.** sınmış. sıqmış. dəğişmiş, çönmüş. istənilmiş. **-** sıdı nə: **sadı** nə: dəğişmiş, çönmüş. istənilmiş.

**sıtım** **sıdım**. sıydım. saydam. açıq. aydın. parraq.

**sıtıq** **sıdıq**. **sidik**. **(y <> z <> d ).** sıyıq. sızıq. süzük. süyük. südük. işək.

**sıtıq** **sıdıq. ( t < > z ) sizik. *1.*** sidik. südük**.** sızıq. sıyıq. cırıq. sırıq. yırıq. yarıq. ***1.*** paltonun, kotun qabaqdan açılan hər bir bölümü.

**sıtırılmaq** **sıdırılmaq.** sıyırılmaq. yüzülmək.

**sıtırmaq** **sıdırmaq. - qabarıq sıdırmaq**: **qabarığını sıdırmaq**: içində birikmiş bir hıncla, kinlə, birisinə sataşmaq. öfgəsin almaq. hirsin tökmək.

**sıtırmaq** **sıdırmaq**. ***1***. **( d < > y ) sıyırmaq**. siyirmək. dərisini yüzmək. ***1***. **< sıqmaq**: sıyırmaq**.** sındırmaq**.** sıxmaq**.**qırmaq**.** qurtarmaq**.**qoparmaq**.** patlatmaq**. -** ödü sıdı**. -** o qədər ağduk baqtıki**,** ödü **sıdayazdı**.

**sıtırqan** **sıdırqan.** sıyıran. sıqan. sıqyan. qıran. üzən.

**sıtırqaq** **sıdırqaq.** bax **> sıyırqaq**.

**sıtırqı** **sıdırqı. ( y < > d ) sıyırqı.** sadə. yalın.

**sıtırtmaq** **sıdırtmaq.** soydurmaq. yüzdürmək.

**sıtlıq** sıslıq**.** sıtlıq. ıslıq**.** fışqırıq.

**sıtma** ***1***. ısıtma. bezgək. ***1***. ısıtma. küyük. göyük.

**sıtma** ***1***.**ısıtma**. **isitmə**. **sitmə**. qızdırma. təb. ***1***.malarya.

**sıtmalanmaq** ısıtmalanmaq. ısıtmıya tutulmaq.

**sıtmalı** ısıtma tutan.

**sıtmalı** ısıtmaya tutulmuş.

**sıtmaq** **sıdmaq**. **(y <> z <> d )**. sidmək. siymək. sıymaq. sızmaq. süzmək. süymək. südmək. işəmək.

**sıtmaq** **sıt**ramaq**. sıq**ramaq**. < sı**maq: sıçmaq**.** dəf edmək**.** qırmaq**.** sıyırmaq**.** qurtarmaq**.** süpürmək**. -** düşmanı **sıtın**: qovun**. -** qar **sıtan**: qar kürəyən**. -** çətinlikləri **sıttıq**.

**sıtmaq** **sıdmaq.** bax **> sımaq**.

**sıtqalmaq** sığanmaq. sığanılmaq. sivrilmək. qətlənmək. qırılmaq. yana keçmək. **-** ətək **sıtqalıb**, işə keçdilər.

**sıtqamaq** ***1***. sığamaq. siyirmək. sivirmək. qətləmək. **-** ətəyivi biləyivi **sıtğa** batmasın: qətdə**. -** bilək **sıtğanıb** işə girişdilər**. -** sıtğab

tutun biləyi, qurmat sizin ürəgiz. *1*. sığarlamaq**.** safatmaq**.** qırışların gidərmək**. -** paltar **sıtğamaq**: ütüləmək.

**sıtqanmaq** sığanmaq. sıtğaşmaq. **-** bilək **sıtğanıb** işə girişdilər.

**sıtqaşmaq** sığaşmaq. sıtğanmaq. **-** bilək **sıtğaşıb** işə girişdilər.

**sıtrılmaq** **sıdrılmaq.** ***1***. bax **> sıyrılmaq.** nərsəni incədən incəyə sezmək. ***1***. sezrilmək. sızrılmaq. sıyrılmaq. çarpmaq. dəğmək. görüşmək.

**sıtrım** **sıdrım. sıyrım**. ***1.*** şax. düz. teyxa. dik. durumlu. **- sıdrım ışlıq ər**: işində qayım olan**.** iş adamı**. *1.*** sırım. şallaq. təsmə.

**sıtrışmaq** **sıdrışmaq**. sıyırşmaq. siyrişmək. silişmək.

**sıturmaq** sımaq. kəsmək. qırmaq. **-** odun **sıturmaq**.

**sıtüstü** **< sırtüstü**. çalqoyun. dalıquylu. dalüstü. geriquylu.

**sıva** ***1***. duvara, daşların, bağdadınınğ üzərinə sürülən xarc. ***1***. sıba. çox uzun boylu. **-** yapınınğ **sıvasın** çəkmək. **- sıva** vurmaq.

**sıva** suva. suvaq. örtü. örtük. qapanca.

**-** çarpma sıva: çarparaq yapılan suva.

**- çarpma sıva**: çarpı. çarparaq vurulan suva.

**- qarasıva**: **qarasuva**: topraq suva.

**sıvacı** qaplayıcı. sulayıcı. qaplayan. quşatıcı. örtən.

**sıvaçılıq** sulayıçılıq. qaplamaçılıq.

**sıvalı** sığalı**.** sağalı**.** sığanmış**. - sıvalı şüvəli**: bəzək düzəkli.

**sıvama** ***1.*** düz**.** som**.** bir çeşit rəngli boya**.** sulama**.** ***1.*** başabaş dolu**.** simə**.** dopdolu. ***1***. qaplama. nərsəni sıx sıx, aralıqsız örtmək.

**sıvamaq** ***1***. sığamaq. sivirmək. çırmamaq. yenğ, paça, ətək çevirmək, toplamaq. suvamaq. bulamaq. ***1***. sığamaq**.** yığmaq**.** çarpmaq**.** çoxatma**.** sıxışdırma. ***1***. sürtmək.

**-** qolların, bacaqların **sığamaq.**

**- sıçıb sıvamaq**: söyüb sayaraq alçatmaq. paylamaq. tonatmaq. donatmaq.

**- günəşi palçıqla sıvamaq**: açıq aşqar nərsə örtüb basırmaq istəmək.

**sıvamaq** ***1***.çəmrəmək. kəmrəmək. çıpqarmaq. çırmamaq. çırmalamaq. siyirmək. çulqamaq. **- qol qıçı sıvamaq**, **siyirmək**. ***1***.siyirmək. qətləmək. **- yenin sıvamaq**: qolların siyirmək. işə başlamaq. ***1***.yaymaq. sıvazmaq. bulamaq. bələşdirmək. bələmək.

**- qolları sıvamaq**, **qətləmək**, **siyirmək**: işə girişmək, başlamaq.

**sıvanmaq** ***1.*** suvalmaq. sulanmaq. su verilmək. su saçılmaq. ***1.*** yuqulmaq. yoğunmaq. yoğulmaq. bulaşmaq. sürtülmək. ***1***. geyinib**.** örtünüb**.** yaraqlanıb qapanıb işə hazır olmaq**.** yamanmaq**.** yapanmaq**.** alğanmaq. ***1***. sığanmaq. sivirinmək. çırmanmaq. yenğ, paça, ətək çevirmək, toplamaq, hazırlanmaq. **-** siz indidən **sıvandız**.

**sıvanmaq** nazlanmaq.

**sıvanmaz** **- günəş palçıqla sıvanmaz**.

**turac** **durac.duraş**. **durcaq**. **duracaq**.

**turacaq** duracaq. ***1***. bəkləmə. bəklək. qarucaq. qoucaq. ***1***. turası.

**- turası yer.** duracaq yer. ***1***. **turqu.** yam. **- duracaq** zaman: turqu oğur.

**turacaq** **duracaq**. ***1***. **durcaq**. **duraş**. **durac**.***1***. **durduraq**. **duranaq**. dayanaq. dəstək.

**turaç** duraç. ***1***. **öğüz.** iyi. doğru. gözəl. ***1***. bir nərsənin duran yeri. altlıq. qaidə.

**turağanlıq** **durağanlıq**. **duraqlıq**. **durqunluq**. yerləşik yerlilik. təpirsizik. hərəkətsizlik. sabitlik.

**turaq** **duraq**. ***1***. gecikmə. gecik. gecit. yubat. tə'xir. ***1***.kahillik. qaranqaşlıq. haylazlıq. susluq. qapıqlıq. qaçaqlıq. qaranqaşlıq. tənbəllik. ***1***. durulacaq yer. gözləği. gözləmə. bəkləmə. gözləm. bəkləm **(**yeri**)**. durma. bölmə. istqah. ***1***. pasqah. qərarqah. ***1***.ayıran. bölən. kəsən. **-** əpəycə **duraqdan** sonra gəldi başqa biri. ***1***.mənzil. ***1***. aralıq. dinləmə. fasilə. kəsinti. bir kiçik **duraqdan** sonra. ***1***.məqam. ***1***. istinad. ***1***. musiqidə istinad pərdəsi. dominant. ***1***. davranış.dartıq. dartış. rəftar. ***1***. naz. əda. durmaq, qılınmaq yolu, sayağı. ***1***. tutaq. tutum. təsmim. ***1***. yer. məkan. məhəll. məqam. ***1***. dərəcə. məqam. ***1***. mə'nəvi orun, dərgə. ***1***. bulnaq. bulunaq. barnaq. otraq. iqamətqah. məskən. ***1***. nuxdə. qal. xal. ***1***. ilahi söyləş. bayat. ***1***. sikut. susma. susam. ***1***. durma. əğlənmə. dincəlmə. ***1***. tutaq. ilgik. ilgili. bağlılıq. mərbut. ***1***.söz vermə. qovl. ***1***.peyman. əhd. and. ***1***.yəmin. ***1***. barnaq. su, hava, qara yol daşıtlarının, yol üstə, yolçu yük götürüb başaltma üçün duran yer. iskələ. liman. bəndər. ***1***.

**durcaq**. **durat**. quruluş. ocaq. istasyon. istqah. ***1***. gözləği. gözətlənən yer. bəklək. istqah.

**- yol üstü ara duraq**: iniş. eniş. iskal.

**- bir yerdə duraq tapmamaq**: sürəkli yer dəğişmək: köçəbələşmək.

**- son duraq**: sonöy. sonev. sonav. sin. qəbir.

**- gəmilərin durağı**: dəmir yeri. **- sınırlı sürəli duraq bölgəsi**: təvəqqüf mütləqa məmnu'.

**turaq** **duraq. durqaq. (**durulacaq, durulan yer**)**. ***1***. aramqah. ***1***. məqam. ***1***. məkan. mənzil. məskən. ***1***. istqah. istasyon. **- duraq** otu: bitgi adı. ***1***. otraq. oturaq. aramqah. məsgən. yam. ev. durqa. qalaq. qalğa. mənzil. oturaq. qonaq**.** məks. qərar. **-** on gündə bir gün qonaq etdik**. *1.*** yat**.** yataq**.** barınaq**.** in**.** nin**. *1.*** bir nərsə gözləmək üçün dayanan **(**dururlan**.** qalınan**.** gözlənən**.** dinlənən**)** yer**. *1.*** aralıq**.** dinlənmə **(**dinlik**).** fasilə**.** antırakt**. *1.*** dərəcə**.** məqam**. *1.*** məkan**. *1.*** susma**.** sikut**.** duruqlama**.** arxa**.** istinad**. - duraq söz**: istinad olunan söz**. *1.*** arxa**.** dəlil**. - duraqsız** iş görülməz**. *1.*** cümlə sonu nuxdə**.** paraqraf bəlgisi olaraq qoyulan kiçik çiçək**. *1***. durqaq. turuqlaq. dayancaq.

sığnaq. pənahqah. ***1.*** duran**.** ev**.** sığıncaq**.** durulan yer**.** yaşanılan yer**.** məkan ***1.*** yaşam, ömür**.** ***1.*** karga**.** ***1.*** durqac**.** durulan**.** or**.** yer**.** bölgə**.** yaşanılan yer. ***1.*** durqun. dinc. sakit yer. ***1.*** minik yeri **(**at minmək üçün uca yer**)**. ***1.*** duraq. ayıq. oyaq. ***1.*** duram. dayanğ. tayqan. dayqan. qutmaq. qalmaq. məks. arğam. ağram. aram. təvəqqüf. ***1.*** **tulaq**. ocağa, od üsdə qoyulan aşıc, asma, qazanın dayağı. ***1.*** hey'ət. hal. halət. vəziyyət. ***1.*** moqeiyyət. mövqe. ***1.*** sübat. sikunət.

**turaqa** sipər. qalxan. savağ. savınma ayqıtı.

**turaqalmaq** **duraqalmaq**. ***1***.baxaqalmaq. şaşırmaq. çaşırmaq. şaşaqalmaq. şişəqalmaq. çaşaqalmaq. şaşqınlıqdan təprizəməmək. ***1***.durmaq. mütəvəqqif olmaq.

**turaqan** **durağan.** yerinir**.** üşəngəç**.**

**turaqan** **duraqan**. durqun. təpirsiz. hərəkətsiz. yerli. sabit.

**turaqana** **duraxana**. duraevi. davaxana.

**turaqanmaq** **duraqanmaq**. **durqunmaq**. təpirsizmək. hərəkətsizləşmək. yerlinmək. yerləşmək. sabitlənmək.

**turaqçı** duraqçı. durqaçı. yamçı**.** evçi. qalaqçı. qalğaçı. mənzilçi.

**turaqıc** **duraqıc**. **durqıc**. vurqıc. virgül. kiçik durma imi, simgəsi.

**turaqından** **duraqından** yerinə görə. yer yönündən.

**turaqlama** söngüş. sönmə. kəsilmə. dinmə. yatışma.

**turaqlamadan** aram qaram edməy. düşünmədən. quşqusuzca.

**turaqlamaq** **duraqlamaq. duralamaq.** ***1***. dinəçmək. təkləşmək. dənğləşmək. aram, qərar tutmaq. oturmaq. ***1***. dura dura, kəsik kəsik söyləmək. ***1***. dura dura**.** kəsik kəsik**.** qırıq qırıq olmaq**.** qılmaq**.** ***1*****.** şaşımaq**.** ***1*****.** quşqulanmaq**.** şəgg qılmaq**.** ***1*****.** sürəli**.** sıralı **(**davamlı**)** bir işdə**.** bir sürə durmaq**.** ***1*****.** dalı qalmaq**.** ***1*****.** səbr edmək**.** ***1***. yapşamaq.apışmaq yapışıb qalmaq. əldən düşmək. yorulmaq. təngimək. acizləmək. ləngimək. ***1***. tüşlənmək. bir gediş, yol arasında dayanmaq, təvəqqüf edmək.

**turaqlamaq** **duraqlamaq**. **duruqmaq**. ***1***.bir sürə durmaq. ***1***. kəsik kəsik qonuşmaq. ***1***. şaşırmaq. mat qalmaq. ***1***.qərar çıxarmaq. ***1***. **durmaq**. israr, tə'kid edmək.

**- bir əngəl qarşında ala şaşqınlığa düşüb duraqlayıb**

**birikmək**, **yığışmaq**: irkmək. birkmək. irikmək. birikmək. irkilmək. birkilmək. irkinmək. birkinmək.

**turaqlı** **duraqlı**. ***1***. müstəmərr. istimrari. ***1***. muqavim. ***1***.dəmirbaş. təpirbaş. çomaxbaş. dayaqbaş. baltabaş. qalınbaş.

qanğırıq. dikqafa. dikəbaş. qartlanqaz. qartlanmaz. gəməlməz. gəmalmaz. sərkiş. dirəkbaş. gücbaş. dirəngən. dirəncin. dirəncən. sırtıq. üzdən gedməz. qara astar. qarastar. inad. qara damaqlı. qara dadaqlı. qara başlı. inadçı. turan. duran. kəllə şəq. islatan. sulayan. müsirr. israrlı. ***1***. duralı. dayanaqlı. qalıcı. bərk. dəvamlı. möhkəm. ***1***. seyrək. fasiləli.

**- sözündə işində dayanıqlı**, **duraqlı olmayan**: əsmər. oportünist.

**- duraqlı durumlu**: dayalı döşəli.***1***. sabit. ***1***.oranlı. oranşlı. qərarlı.

**turaqlı** **duraqlı. *1*.** toxdamlı**.** qərarlı**. *1*.** davamlı**.** sabit**. *1***. dabanlı. bərk. dönməz. sabit.

**turaqlıq** **duraqlıq**. **durağanlıq**. **durqunluq**. yerləşik yerlilik. təpirsizik. hərəkətsizlik. sabitlik.

**turaqmaq** **duraqmaq**. tə'xir edmək.

**turaqsamaq** **duraqsamaq**. abınmaq**.** quşqulanmaq. **- sözdə abınmaq**: qonuşurkən duraqlamaq.

**turaqsamaq** **duraqsamaq**. **duruqsamaq.durumsamaq**. quşqunmaq. iki ürəkli olmaq. sakınsıramaq. sanıqsıramaq. düşünmək.

çəkinmək. tərəddüd edmək.

**- işə başlanımda**, **sakınsıradım**: duraqsadım.

**turaqsanma** **duraqsanma**. çəkinmə. örtünmə. üşünmə.

**turaqsatmaq** apındırmaq. yapındırmaq. qapındırmaq. düşürmək. səndələtmək. quşquya düşürmək.

**turaqsıtı** **duraqsıtı**. ***1***.məsnəd. ***1***.istinad edilən konu, nuxdə, not. istinadqah. ***1***. tə'kid. ***1***. durdunluq. kasatlıq. ***1***. mərcə'.

**turaqsız** **duraxsız**.oynaq. sözgən.

**turaqsız** **duraqsız**. dayaqsız. dayasız. durumsuz. durmaz. dayanmaz. tayaqsız. tayasız. dayamsız. dəvamsız. dibsiz. cıdamsız. dönək. qancıq. oransız. oranşsız. qərarsız. bozyel. poyraz. tutaqsız. arxasız. yasasız. təkyəsiz. söyəksiz. söyəngəsiz. tapıqsız. sürəksiz. yeltək. gəlgeç. subatsız. dəğişgən. dəğişən. dönüşgən. düzənsiz. dəngəsiz. sübatsız. sürəksiz. mütəhəvvil. qərarsız dalqaçı. havayi. sürəksiz. oransız. oranşsız. qərarsız. cıdamsız. subatsız. bozyel. poyraz.

**tur<u>a</u>qsız** **dur<u>a</u>qsız**. **dur<u>u</u>qsuz**. ***1***. dəğişgən. düzənsiz. dəngəsiz. ***1***. yeltək. gəlgeç. subatsız. ***1***. kəsinsiz. qanıqsız. qanıtsız. oransız. oranşsız. qərarsız. ***1***. tutamsız. tutumsuz.

ölçüsüz. ***1***. quşqulu. işgilli. oransız. oranşsız. qərarsız.

**- dayancaqsız**, **duraqsız düşüncə**: qaraquş oyu.

**turaqsızlıq** **duraqsızlıq**. durumsuzluq. durmazlıq. dayaqsızlıq. dayasızlıq. dayanmazlıq. tayaqsızlıq. tayasızlıq. dayamsızlıq. dəvamsızlıq. qərarsızlıq. dönəklik. dibsizlik. cıdamsızlıq. sürəksizlik. subatsızlıq.

**turaqut** turqut**.** ömürlü**.** durucu**.** uzun yaşamlı**.**

**tural** durma, yaşama, ömür.

**turalamaq** **duralamaq**. **tutumlamaq**. ***1***.olcalamaq. ölçünləmək. qərarlamaq. yönələmək. yarqılamaq. ***1***.cıdamaq. qeyrət, muqavimət göstərmək. olcalamaq. israrlamaq. müsirr olmaq.

**turalanmaq** **duralanmaq**. cıdanmaq. qeyrət, muqavimət göstərmək. qərar qılmaq. qərar qılmaq. müstəqərr olmaq. müsəmməmləşmək. olcalanmaq. tutumlanmaq. israrlanmaq. müsirrləşmək.

**turalğa** **duralğa**. saxlac. istqah.

**turalı** **duralı. *1***. bax **> duramlı**. ***1***. duraqlı. dayanaqlı. qalıcı. bərk. dəvamlı. möhkəm. ***1***. tutumlu. qərarlı. yarqılı. olcalı. yönəli. ölçülü. ölçünlü. ortam. ılım. yılım. yılımlı. ılımlı.

mütəvəssit. mö'tədil. ***1***. yarqılı. olcalı. yönəli. talvasasız. tablı. dözümlü. səbirli. qərarlı. tutumlu. müsəmməm. payidar. subatlı. cazim. əzmli.

**turalıq** ***1.*** duralım. əğlənəlim. ***1.*** düzənli. müntəzəm.

**turalıq** **duralıq**. **duralılıq**. tutumluq. tutumluluq. olcalıq. olcalılıq. yılımlılıq. yılımlıq. ılımlıq. ılımlılıq. qərarlıq. qərarlılıq. yarqılıq. yarqılılıq. yönəlik. yönəlilik. ölçülüq. ölçülülük. ölçünlük. ölçünlülük. ortamlıq. ortamlılıq. mütəvəssitlik. mö'tədillik. e'tidallıq.

**turalılıq** **duralılıq**. **duralıq**. tutumluq. tutumluluq. olcalıq. olcalılıq. yılımlılıq. yılımlıq. ılımlıq. ılımlılıq. qərarlıq. qərarlılıq. yarqılıq. yarqılılıq. yönəlik. yönəlilik. ölçülüq. ölçülülük. ölçünlük. ölçünlülük. ortamlıq. ortamlılıq. mütəvəssitlik. mö'tədillik. e'tidallıq.

**turam** **duram**. duraq. dayanğ. tayqan. dayqan. qutmaq. qalmaq. məks. arğam. ağram. aram. təvəqqüf.

**turamaq** **duramaq**. çoxalmaq. azmaq.

**turamamaq** **duramamaq** ***1***.keçəməmək. keçənməmək. ötəməmək. vazkeçəməmək. istəyin kəsəməmək. ***1***.dözəməmək.

**- bir yerdə**, **sözdə**, **işdə dayanamamaq**, **duramamaq**: tikiş

tudduramamaq.

**- coşqunluqdan**, **coşuqluqdan**, **həyəcandan yerində duramamaq**: qabına sığmama: könlü içinə sığmamaq: içi dəriyə sığmamaq: dözümsüzlük edmək.

**turamlı** **duramlı**. **duralı**. **duran**. sürəli. sürəmli. getgənli. gedənli. dəvamlı. kəsintisizi. kəsintisizin. qırılmazı. qırılmazın. qırıqsızı. qırıqsızın. arasızı. arasızın. aralıqsızı. boyunaq. boyanıq. sürəkil. düzəli. monton. yeknəsəq. birsayaq. aralıqsızın. dayima. bir düzüydə. sürən. sürəmli. getgən. gedən. dəvamlı. kəsintisiz. qırılmaz. qırıqsız. arasız. aralıqsız. dayim. boyuna. hər zaman. qanıma. mütəmadiyən. dayima.

**turamlıq** **duramlıq**. sürəklik. sürəmlik. getgənlik. dəvamlıq. kəsintisizlik. qırıqsızlıq. aralıqsızlıq. aralıqsızın. bir düzgüyşdəlik. madamlıq. dayimilik. dayimi. həmməşəlik. qamışalıq. qamıçalıq. əbədi. ilələbəd.

**turamsızlıq** **- duramsızlıq**, **qərarsızlıq göstərmək**: ımızqanmaq. yumızqanmaq. qorxmaq. qorxunmaq. quşqulanmaq. qanqaçmaq. qanqıçmaq. qansıtmaq. qançıtmaq. yansıtmaq. yançıtmaq. qayğılanmaq. işgillənmək.

**turamun** ***1.*** evcil, evciman ***1.*** onurlu, onuruna düşkün.

**turan** ***1.*** duran, yaşayan**.** durucu, qalıcı, yaşayan, canlı**.** ***1.*** qalan**.** artıq**.** törən**.** törəyən**.** ***1.*** sabit**.** ***1.*** duraq**.** ev**.** türklər'in oturduğu ülkələrə verilən ad**.** gözəl**.** türk musikîsində yədi zamanlı, üç vuruşlu bir küçük usûldür**.** ömür, ömürlü, yaşama dirənci **(**çocuqları sıx ölən ailələrin, uzun ömür, qalıcılıq diləklərini içərən adlardan**.** ***1***. diri. yaşayan. canlı. ölməz. qalxan. armaz. ***1***. turquçı. durquçu. durucu. turdaçı. ***1***. qımıldanmayan. sakin. sabit. ***1***. bulunan. mocud. kain. qayim. ***1***. bağlı. ***1.*** vəqf. ***1.*** baqi. ***1***. durang̃. bəfalı. **-** adaşlıq üzə durun: yoldaşlığa bəfalı. ***1***. turang̃. dürrac. çöl xoruzu.

**- qursaqda duran**: sindiriləməz. həzm olunmaz.

**turan** **duran**. ***1***. **duramlı**. sürən. sürəmli. getgən. gedən. dəvamlı. kəsintisiz. qırılmaz. qırıqsız. arasız. aralıqsız. dayim. ***1***. durqun. qımılsız. hərəkətsiz. ***1***. **durma**. **durmuş**. qalma. qalmış. qalan. yadavul. yadiqar. anıt. əsgilərdən sürüb gəlmə, intiqal edmə. **-** olardan **qalma**. ***1***. **duryan**. diri. yaşda, yaşamda, durmuşda, dirimdə, dirilikldə olan. yaş. yaşayan. yaşan. ***1***. qalıcı. sürəkli. dayimi. dəvamlı.

*1*. olan. hazir. amadə. mühəyya. **- duran** nəvarsa gətir. **- duran** nəyimic varıdı, tükəndi. *1*. sabit. **(** # qalxan. köçər. köçən. gəzən. səyyar**)**.

**- quduzla <u>oturub durana</u>, kötülükdən bir payda düşər**: itlə yatan bitlə qalxar.

**- bir yerdə <u>duran</u>, əğləşən**: əğləşik. əyləşik.

**- əldə duran**: **(- çıxılan, bölünən sayıdan, nərsədən əldə duran**: qalan. **-** onda doqquzun çıxsan, **qalan** bir olur**)**.

**- ayrılana, gedənə görə, olduğu yerində, <u>geridə duran</u>**: qalan. **-** qonaqlardan üçü **qalan** oldu.

**- uzaq duran**: ayaq çəkən. yanaşmayan. yaxlaşmayan.

**- yerindən duran çəkir çəkisin (** çıxarır hökmün**)**. **-** yatıb duran **yasasın** yatırdır: **(**qanunun qurur**)**. özbaşnalıq. qarnışlıq. hərc mərc. anarşi.

**- dalı, geri, qıraq, qıra duran**: çəkingən. çəkinik. qaçınqan. qaçınıq. girişməyən. qırasınğan. qırsınıq. təksingən. təksinik.

**turan** **duran**. bax **> duramlı.**

**turan** **duran**. kəllə şəq. islatan. sulayan. turan. duran. kəllə şəq. islatan. sulayan. boğazlıyan. basqan. tutaqan. qayıtsız. təpgin. əldən salan. simitən. tutub bıraxmayan.

yaxalayıcı. dirəşgən. duruşqan. duraşqan. dayışqan. bərkişən. üstgəşən. subatlı. subatkar. qərarlı. sırtıq. üzdən gedməz. qara astar. qarastar. inad. düzənli. dəngəli. sürəkli. subatlı. daynaqlı. qərarlı. düddürü. diddiri. dirəngin. dirəngən. simitən. israrlı. dəmirbaş. təpirbaş. çomaxbaş. dayaqbaş. baltabaş. qalınbaş. qanğırıq. dikqafa. dikəbaş. qartlanqaz. qartlanmaz. gəməlməz. gəmalmaz. sərkiş. dirəkbaş. gücbaş. dirəngən. dirəncin. dirəncən. təpir. təpirçi. təpikçi. dəmirçi. israrlı. qara damaqlı. qara dadaqlı. qara başlı. inadçı. qara damaqlı. qara dadaqlı. qara başlı. inadçı. duraqlı. müsirr.

**turan** **duran**. turumlu. dayanaqlı. dayanıqlı. dayanımlı. dayanışlı. dayanqan. dayınaqlı. dayınıqlı. dayınımlı. dayınışlı. dayınqan. dayanan. sabit. sağlam. tüpqülüqlü. əbədi. mətin. qımılsız. sabit. çaxılı. donmuş. donuq. daşlaşmış. qımılsız. cansız. çaqqılmış. taxılmış. qımılsız. hərəkətsiz. dəğişməz. dəğişsiz. fərqsiz. həmən. eyni. bir qıllı tırqıllı. gəvşəməyən. əzilməz. çökməz. qırılmaz. pozulmaz. pozulmayan. çürüməz. əsgiməz.

**turanaq** **duranaq**. **durduraq**. **duracaq**. dayanaq. dəstək.

**turanğamaq** **duranğamaq**. **dirəngmək (< durmaq)**. **durulmaq**. bəklənmək. əğlənmək. əklənmək. sallanmaq. aslanmaq. sürənğəmək. sürənğizmək. axsınmaq. dinlənmək. təvəqqüf edmək.

**turanğaşmaq** **duranğaşmaq**. **dirəngəşmək (< duruşmaq)**. sürənğəşmək. sürənğişmək. əğləşmək. əkləşmək. sallaşmaq. aslaşmaq. axsınışmaq. dinlənişmək.

**turanğsız** **duranğsız**. **dirəngsiz**. **( < durmaq)**. durmazın.durmadan. ha birə. sürənğsiz. sürəncsiz. sallanmadan. aslanmadan. sürətli. axsınmadan. titizcə. dinlənmədən. əğlənmədən.

**turanıqlıq** **duranıqlıq**. dayanıqlıq.

**turanq** **turanğ.** turanc. dürrac. çöl xoruzu.

**turanmayan** **- bir yerdə <u>dinc duranmayan</u>**: türmə qaçqını.

**turarqa** **durarqa**. otraq. oturaq. yerləşim. iqamətqah.

**turas** **duras**. **tiras**. **diras (< dirimək**: **dirəmək**. **dikəmək**. **tikmək**. **durmaq**. **)**. yuxar. yoxuş. yüksək. uca. çıxış.

**turası** **durası. *1***. duracaq. **- turası yer.** duracaq yer**. *1***. turquy**.** durquy. durmalı. durmağa yarar, uyqun. **-** bu **turquy** yer əməs: bura durmalı, qalmalı yer dəğil.

**turasız** **durasız**. ***1***. iğrəti. əğrəti. keçici. qeyri sabit. ***1***. yarqısız. olcasız. tutumsuz. yönəsiz. talvasalı. tabsız. qərarsız.

**turasızlıq** **durasızlıq**. yarqısızlıq. olcasızlıq. yönəsizlik. qərarsızlıq. talvasalıq. tabsızlıq. tutumsuzlıq.

**turaş** **duraş. (durac.durcaq. duracaq). duruş**. dayış. dayıq. dayanaq. dayanıq. dayınaq. dayınıq. dayanım. dayanış. dəng. dinc. arsat. oranc. oran. üstəc. sabit. sakin. subat. qərar. istiqrar.

**turaşqan** **duraşqan**. **duruşqan**. **dirəşgən**. dayışqan. bərkişən. üstgəşən. subatlı. subatkar. oranlı. oranşlı. qərarlı. inad.

**turaşmaq** **duraşmaq**. davalaşmaq. darılaşmaq. dərman olmaq.

**turat** **durat**. ***1***. **duraq**. **durcaq**. quruluş. ocaq. istasyon. istqah. ***1***. orda. ordaq. burqat. qoyut. balıq. balıt. bağlat. bağıt. barat. boluş. bolut. ölçüt. qırma. qırtı. qırıt. kərmə. kərim. kəsmə. kəsim. kəsit. aydat. dərit. darat. deyit. yarıt. yartı. yarqı. yarıq. yarlıq. yarma. yonat. anlıq. hökm. qərar. qanış. qanı. inanc. oyu. oyuş. oyuq. düşüncə. qənaət.

**turba** **- qaradurba**: **qaradurba**: yoğun boru, kaval, yüyə, lülə.

**turba** **durba**.oğcaq. oycaq. ocaq. oyuq yer. baca. yol**. -** ildə bir kərə **ocaqları** arıtlanmalıdır**.** ***1***. durba: torba. ***1***. türül. dürül. boru. yoğun lülə.

**turbaq** **durbağ**. ***1***. **durqab**. **durnağ**. durub. barınaq. dərgah. ***1***. **durşut**. heybət. heykəl. yapıt. qapıt. bağaq. bükək. toxut. öğək. örək. hörək. biçit. çıqqın **( < ciq)**. yükür. kürdə. gördə. kürüt. qurduq. qurum. dayqın. əzəmət. şovkət. ***1***. igid. dəli. dəliqanlı. qaltaq. çaltaq. ***1***. dayanıqlı. möhkəm. ***1***. qalın. qəliz. ***1***. doğru. quşqusuz. gümansız. şəggsiz. ***1***. **durubağ**. **durubqa**. **tırobqa**. **turubqa**.kitik. tıxac. tırafik. çitik. basabas.

**turbaqlı** **durbağlı**. durşutuq. durşutlu. dayqanlı. dayqınlı. heybətli. heykəlli. ataigid. aznavur. bağaqlı. bağtaylı. biçitli. biçitik. böğə. buğa. bükəkli. cığasın. çıqqınlı **( < ciq)**. gördəli. hörəkli. kürdəli. kürdək. kürküt. kürütlü. qabtaylı. qaqaylı. qapdallı. qapıtlı. qudruqlu. qurduqlu. qurumlu. toxduruq. toxuşlu. toxutuq. yapıtlı. yaptallı. yüklü. yükürük. yükürt. şovkətli. əzəmətli.

**turbaş** **durbaş**. ***1***.çomaqbaş. güdə dəğnək. ***1***. qaynaq. yöntəm. qanıl. qanun. yasa. yasaq. ***1***. turumlu. dayanaqlı.

dayanıqlı. dayanımlı. dayanışlı. dayanqan. dayınaqlı. dayınıqlı. dayınımlı. dayınışlı. dayınqan. dayanan. sabit. sağlam. tüpqülüqlü. əbədi. mətin. qımılsız. sabit. çaxılı. donmuş. donuq. daşlaşmış. qımılsız. cansız. çaqqılmış. taxılmış. qımılsız. hərəkətsiz. dəğişməz. dəğişsiz. fərqsiz. həmən. eyni. bir qıllı tırqıllı. gəvşəməyən. əzilməz. çökməz. qırılmaz. pozulmaz. pozulmayan. çürüməz. əsgiməz.

**turbaşan** **durbaşan**. qaynaçı. yasaçı. yasavul. yasaqçı. mə'mur.

**turbı** ***1.*** yardımcı. yavər. uyuntu. ***1.*** tosun.

**turbınlamaq** **turpunlanmaq. *1***. araştırmaq. ***1***. qıyas edmək. ***1***. ölçümləmək.

**turbun** **turbın**. ***1.*** araştırma. izləş. istəş. salışdırış. **-** onun evin **türbünlə**: axdar**. *1.*** ölçmə. qıyas edmə.

**turcaq** ***1***. başlanqıc. dirsək. giriş. salma. **-** iş **durcağı. -** pitik **durcağı**. ***1***. tutaq. daynaq. muqavimət.

**turcaq** **durcaq**. **duracaq**. **duraş**. **durac**. **duraq**. **durat**. quruluş. ocaq. istasyon. istqah.

**turcıq** durucu**.** qalıcı**.** uzun ömürlü**.**

**turcimək** durcımaq. başlamaq. **-** işə **durcumaq.**

**turcıtmaq** **durcıtmaq**. türçıtmaq. durcutmaq. dirsətmək. başlatmaq. girşitmək. qursatmaq. işə salmaq. bərpa edmək.

**turcutmaq** **durcutmaq**. türçıtmaq. durcıtmaq. dirsətmək. başlatmaq. girşitmək. qursatmaq. işə salmaq. bərpa edmək.

**turç** tökmə dəmir.

**turçuqmaq** tıxanmaq. qapanmaq.

**turdal** **durdal**. **durqaq**. dirdal. dilayaq. dalayaq. ördal. urdal **(<** hörmə, yasama dal**)**. tikdal. dirək. tivərək. situn. sutun.

**turdurmaq** **durdurmaq**. **tuqurmaq**. ***1***. bax **> durqurmaq. *1***. basurmaq. bastırmaq. dikətmək. saxlamaq. bərkitmək. ***1***. durqurmaq**.** qaldırmaq. ***1***. əngəlləmə**.** qadağalamaq**.** yasaqlamaq**.** önləmək**.** əsirgəmək**.** alaqoymaq**.** əngəlləmək. ***1***. qapışdırmaq. qapışdırmaq. yavaşlatmaq. susturmaq. işləməz duruma gətirmək. ***1***. tindürmək. təntürmək. rahatlamaq. ***1***. ayağda qalmağa, durmağa alışdırmaq. **-** cocuğu **durdurmaq**. ***1***. bəklətmək. gözətlətmək. **-** bir azda onu **durdur** baxalım. ***1***. bərpa edmək. qayim edmək. **-** ölkəni yeniləyib, böyük yapılar **durdurdular**. ***1***. qapatmaq. tıkatmaq. bükətmək. kəsdirtmək. tə'tillətmək. bağlatmaq. ***1***. tayamaq.

dayamaq. ilişdirib saxlamaq. - bu işlərizi bir yerə **dayıyamazsız**. durdurammasız. ***1***. sazlamaq. əkləmək. qaldırmaq. oturtmaq. ***1***. toxdatmaq. kəsmək.

**- qarşı durdurmaq**: tovrandırmaq. tavrandırmaq. dayandırdmaq.

**- su üzündə durdurmaq, gəzdirmək**: yüzdürmək.

**turəndiş** oyanıq. qurnaz.

**turfanta** **turfanda**. nobar**.** təbərzə**.** ilkə**.**

**turi** **duri**. qarailə qızıl arasında olan boya, don. **- yağız duri**. **- kəstana duri**. **- açıq duri**. **- xurma durisi**.

**turıcaq** cocuğu ayağda durmaq üçün qızışdırmaq sözcüğü. **- durıcaq durıcaq!**.

**turıq** ***1***. döl almaq üçün damızlıq heyvan, bitgi**.** ***1***. palamud balığının böyükcəsi.

**turıqsaq** turquluq. durmayı sevən. durmaq diləğində olan.

**turına** ***1*****.** dibinə. ***1*****.** bucağına. ***1*****.** başına. sədrinə.

**turq** bax **> tur.**

**turqa** **durqa.** ***1***. pərhiz**.** çəkə**.** ***1***. yam. ev. duraq. qalaq. qalğa. mənzil. ***1***. tuturqa. tutulan yol. təriq.

**turqa** **durqa**. **duyurqa**. **toxunu**. **toxunuq**. **toxnuq**. ixtar.

**turqab** **durqab**. ***1***. durqal. qalbağ. qalıb. **- qaşıq qalıbı**: sıxışıq. birbirinə keçmiş, tam uyşuq biçimdə. ***1***. **durnağ**. **durbağ**. durub. barınaq. dərgah.

**turqac** **durqac.** duraq**.** durulan**.** yaşanılan yer**.**

**turqaçı** durqaçı. duraqçı. yamçı. evçi. qalaqçı. qalğaçı. mənzilçi.

**turqaq** **durğaq**. ***1***. qoruqçuluq. qoruçuluq. keşikçilik. ***1***. qoruq. keşik. bəkçi. gözətçi.***1***.durqun. yata.

**turqaq** **durqaq**. **( < durmaq**: ayıq, oyaq qalmaq**).** ***1***. gecə qaravulu, bəkcisi. ***1***. turqa. qərarqah. dincqə. tincək. yerlək. ***1*. ( < dur ).** durmağa, yaşama yarar nərsələr. ***1*. < tuqraq. ( < tuq).** buxca**.** bağlı**.** tay**.** yek**. - turqaq** yığmaq: buxca bağlamaq**.** ***1***. bəkçi**.** nöbətçi**.** qorucu**.** qaravul**.** muhafız**.** ***1***. durqa. duraq. durqaq. turuqlaq. dayancaq.

**turqaq** **durqaq**. **durdal**. dirdal. dilayaq. dalayaq. ördal. urdal **(<** hörmə, yasama dal**)**. tikdal. dirək. tivərək. situn. sutun.

**turqal** **durqal**. ***1***. cızqılıq. cızıq. cızqıl. qırız. kəriz. qoşut. mühit. ***1***. dinclik. güvən. əmniyyət. asayiş. ***1***. durqab. qalbağ. qalıb. **- qaşıq qalıbı**: sıxışıq. birbirinə keçmiş, tam uyşuq biçimdə.

**turqalamaq** **durqalamaq**. **durqalatmaq**. cızqılamaq. cızqılatmaq. cızıqlamaq. cızıqlatmaq. qırızlamaq. qırızlatmaq. kərizləmək. kərizlətmək. qoşutlamaq. qoşutlatmaq. mühit, şərayit, imkan yaratmaq.

**turqalan** ***1.*** çəkişbəkiş. keşməkeş. ***1.*** xələcan. həyəcan. ***1.*** devriş. inqilab. şuriş. ***1.*** iztirab.

**turqalatmaq** **durqalatmaq**. **durqalamaq**. cızqılamaq. cızqılatmaq. cızıqlamaq. cızıqlatmaq. qırızlamaq. qırızlatmaq. kərizləmək. kərizlətmək. qoşutlamaq. qoşutlatmaq. mühit, şərayit, imkan yaratmaq.

**turqalıq** **durqalıq**. güvənlik. qıvanlıq. güvənclik. güvənəklik. güvənişlik. qoruqluq. yəminlik. əminlik. imənlik. işənlik. işəncliq. işnəcliq. inaşlıq. inaqlıq. inanlıq. inamlıq. imanlıq. imanclıq. inanclıq. əmniyyət. e'timad.

**turqamaq** qalxmaq. qoğzanmaq. canlanmaq. dirilmək. bərpa olmaq.

**turqan bez** xiyarcıq xəsdəliği.

**turqan** **durqan.** ***1***. bacaran. başaran. ***1***. iqdam edən. qalxan. **- durqan** uluğ işlərə. ***1.*** durğan. tayqan. muqavim. çalışqan.

***1*. tez. *1*. duran. ömürlü. *1*. hamı. küll. - **turqanı birlə**: hamısı. qamusu. həmməsi. həpsi. cümlətən. bilimum.

**turqan** **turxan.** ***1***. **tərxan.** vergi yükündən boş. vergi verməyən seçgin kimsələrdən olan soylu, əşraf. ***1***. vergi, yükdən, görəvdən boş olub, soylu seçgin kişi.

**turqanışmaq** **durqanışmaq**. **-** yerlənişmək. sığqınışmaq. əklənişmək. qaraqolqa **yerlənş aldım**: qaraqol şehrinə yerləniştim.

**turqar** **turğar**. tuyğayın, tarla quşunun çeşiti. çayır quşunun böyük çeşiti. **- təpəli torğay**.

**turqasız** **durqasız**. güvənsiz. qıvansız. güvəncəsiz. güvənəksiz. güvənməz. güvənişsiz. çəkingən. qorxulu. inanmaz. inamsız. inanmaz. inancsız. işəncsiz. işənsiz. əminsiz. əmniyyətsiz. e'timadsız.

**turqasızca** **durqasızca**. güvənsizcə. qıvansızca. güvəncəsizcə. güvənəksizcə. güvənməzcə. güvənişsizcə. inanmazca. inamsızca. inammazca. inancsızca. işəncsizcə. işənsizcə. çəkingəncə. qorxuluca. əminsizcə. əmniyyətsizcə. e'timadsızca.

**turqay !** tursun !. dursun !.

**turqay** **turğay** ***1.*** durqun durum. ***1.*** turqay quşu. ***1.*** tarla quşu**.** sərçə**.** çayırquşu**.** toygar**.** hüthüt**.** ***1.*** türk **-** ay**.** ***1.*** durgay**.** duran**.** ***1.*** türk **-**ay.

**turqaymaq** **durqaymaq. durqunmaq.** duraqsamaq**.** çəkinmək**.** uyalmaq**.** utanmaq**.** sıxılmaq**.** qaçınmaq**. -** o məndə durqındı**.**

**turqıc** **durqıc**. **duraqıc**. vurqıc. virgül. kiçik durma imi, simgəsi.

**turqınmaq** **durqınmaq**: bax **> durqunmaq**.

**turqişi** **durkişi**. muqavim adam.

**turqöq** **durkök**. qalın kök. soylu.

**turqsayaqı** **turksayağı**. **türkəçara**. el bilgisi. xalq bilgisi.

**turqu** **durqu**. ***1***. **durma**. qalxma. qiyam. ***1***. bəkləmə. vəqfə. ***1***. **durma**. yatışma. dinmə. qonma. qərar tutma. oturma. dinlənmə. qonaqlama. oranc. oran. qərar. əğlənmə. təvəqqüf. dirəng **<** duranğ **( < durmaq)**. səkdə. vəqfə. ***1***. **duruq. durum. duruş. türük. türkü.** sanı. qonuş. əhval. hal. ***1***. sikut.

**- durma**!: kəsmə!. sür!. sürdür!. dəvam!.

**turqu** **turqu durqu**. ***1***. duracaq. **- turqu oğur**: duracaq zaman**.** ***1.*** torqu. tor. tutqu. pərdə. **-** incə **torqu**: incə **turqu**: zərif,

yumşaq yufaq pərdə, parça**.** ***1.*** parça. qumaş. **-** bəyin **turqusu** təlim olsada, dənğləməz kəsməz: ağıllının parçası bol olsada, ölçmədən biçməz**.** ***1***. yaşam. həyat. **-** əmgəksizin **durqu** yox, munda tamu: qayğısız yaşam yoxdu, bu dünya cəhənnəmdi. ***1***. ambar. ***1***. ağılı. ***1***. yamac. sırt. ***1***. kurnazlıq. ***1.*** durma**.** bəkləmə**.** ***1.*** kəsilmə**.** kəsinti**.** qırıqlıq**.** üzüntü**.** ***1***. odlu**.** qızqın**.** həyəcanlı**.** ***1***. **torğu**. tor. parça. incə toxuşlu, ipək parça, barçın.hərir. məxmər qumaş. ***1.*** utanc. həya. ***1.*** durmağa, olmağa, qalmağa yarar. iqamətqah. **-** bu **durqu** yer əməs**.**

**- durqu murqula edmək**: kurnazlıq edmək**.** aldatmaq**.** ***1.*** ağıl.

**turquaz** **turkuvaz.** türk göyü **(**mavisi**)** olmuş göy süs daşı**.**

**turquçı** durquçu. durucu. duran. turan. turdaçı.

**turquq** utatnma. uyalış. həya. şərm. **- turquqsuz**: utanmaz**.** sırtıq**.**

**- turquq bolmaq**: utanır olmaq**.**

**turquqlanmaq** **durquqlanmaq.** ***1***. turqıglanmaq**.** duraqlanmaq**.** dartınmaq**.** uzaqlanmaq**.** qaçınmaq**.** çəkinmək**.** üstələməkdən çəkinmək**.** pərhiz edmək**.** ***1***. **turqıqlanmaq**. qaçınmaq**.** qocunmaq. üstələməkdən çəkinmək. hesab

aparmaq. sayqı göstərmək. utanmaq. **-** o məndən **turquqlandı.**

**turqulamaq** **durqulamaq**:ucalığın ölçmək**.**

**turquluq** **turuqluq**. ***1***. diriklik. durmayı diləyən. ***1***. durqunluq. dinclik. ***1***. cılızlıq. arıqlıq. zayıflıq.

**turqum** **durqum**. tutamaq. oturad.sübat.

**turqumsuz** **durqumsuz.** sübatsız. oturadsız. tutamaqsız.

**turqun** **durğun**. ***1***. tutqun. tıxanmış. ruhsuz. təpişsiz. hərəkətsiz. boğuq. sakin. rakid. **- durğun** su. **- durğun** hava. alış verişin **turğunu**. havanın **tutqunu**. ***1***. gəvşək. ağır. bataq. batıq. **-** o çox **durqun** kişiymiş. ***1***. bıqmış. yorqun. utanclı. usanlı. usanmış. **-** onun **durğunun** görməmisən. ***1***. heyrətli. şaşaq. mat qalmış. **-** durğun adam. **- durqun** ürəkli. ***1***. səkdə. **-** ürək **durğunu**. ***1***. **durğunluq**. tutqunluq. tıxanış. insidad. **-** yolların **tutqunu**. **-** su yolu **tutqunu**.

**turqun** **durqun**. ***1***. ağır. ərişgin. qalız. kaviz. gəvşək. sölpük. sölük. solğuq. soluq. qaba, iti olmayan. yavaş. kavaş. qanı ağır. əli ağır. qaltaban. çaldaban. təmbəl. ***1***.soğuq. donyağı. ilgisiz. istəksiz. maraqsız. kovasız. meyilsiz. əğimsiz. maraqsız. qayğısız. quru. sakin. əlaqəsiz.

buzdaş. daşbuz. cansız. qatıq. sərt. edgisiz. batlıq. yatqın. yatışmış. tutqun. toqtun. yanğsız. təpgisiz. gərimsiz. həyəcansız. qımıltısız. hərəkətsiz. axımsız. tutumsuz. oturuq. çökük. səssiz. qeydsiz. münfəil. xunsa. ***1***.cansız. sönük. ***1***.durqaq. yata. ***1***.axmaz. ***1***. xamuş. ***1***.sakin. axmaz.***1***. duraqan. təpirsiz. hərəkətsiz. yerli. sabit. ***1***. duran. qımılsız. hərəkətsiz.***1***. duru. ***1***. fırtınasız. gərimsiz. həyəcansız. ***1***. qalız. kaviz. gəvşək. sölpük. sölük. solğuq. soluq. qaba, iti olmayan. yavaş. kavaş. qanı ağır. əli ağır. qaltaban. çaldaban. təmbəl. ağır.

**- qoyu**, **kıvamlı**, **qəliz <u>duqun</u> sıvıq**, **suyuq**, **içgi**: boza.

**turqun** **durqun**. ***1.*** arman. armınq. yorqun. ***1.*** sıxılmış. münqəbiz. ***1.*** qalan. buraq. ***1.*** sakin. dinc. rakid. turaq. duraq. sakit yer. ***1.*** sovqat. **- turqunu mançu sezinmə**: sovqatı əl müzdü sanma. ***1.*** kasat. tayqun. dayanıqlı. torluq. durluq. devlət yeri. rəsmi yer. ***1.*** dəfə. yolam. qabat. qat. tapğır. gəzək. səfər. göz. atar. dəğşən. mərtəm. ***1.*** duraqan. dural. dingin. sağın. soluq. sönük. ***1.*** cansız. gücsüz. yorqun. arqın. usanmış. uyuşuq. ölgün. qımıldısız. ruhsuz. ***1.*** ağır. yüklü. oqqalı. qurqun. ***1.***

tutqun. mat. qussəli. kədərli. *1.* utancaq. çəkincək. *1.* turuqsaq. dursi. dirənən. isrararlı olan. *1.* durmuş. axarsız. **- turqun su**: birkə. turqun. durqun. *1*. durqun. yaşam. keçinəcaq. *1*. **turqun !**. **durqun !**utan **!**. **- turqunmadan** söylədi. *1*. arım. aram. tınçqul. sakin. təlaşçız. qımsız. hərəkətsiz. sakin. qolaysız. cansız. **- durqun su**: dəniz. göl. su.

**turqun** **durqun**. soyuq. donuq. odsuz. sönük. oturuq. yatqın. yanız. yanğsız. yaxsız. cansız. quru. təpgisiz. gərimsiz. həyəcansız. çökük.

**turqunlaşmaq** **durqunlaşmaq**. məhzunlaşmaq.

**turqunlaşmaq** **durqunlaşmaq.** *1*. sərinlənmək. yavaşlamaq. sakinləşmək. dinmək. *1*. şavşalmaq. çavşalmaq. sakinləşmək. dinmək. kəsilmək.

**turqunlaştırmaq** **turqunlaşdırmaq.** şavşaltmaq. çavşaltmaq. sakinləşdirmək. dindirmək. kəsmək.

**turqunlu** **durqunlu**. **durnuqlu**. muqavim.

**turqunluq** **durğunluq**. *1*. tutqunluq. tıxanış. insidad. *1*. boğuqluq. rikudət. **-** havanın **tutqunluğu**. *1*. gəvşəklik. ağırlıq. batağlıq. batıqlıq. bətalət. **-** o **durqunluqla**, iş görülməz. *1*.

bıqındı. yorqunluq. utanış. usanış. **-** onun bir **durğunluğu** vardır. ***1***. ruhsuzluq. təpişsizlik. hərəkətsizlik. **-** alış verişin **turğunluğu**. ***1***. heyrət qalmaq. şaşa qalmaq. **-** adama **turqunluq** gəlir. **-** yaşamda **turqunluqa** qapılan çox olur.

**turqunluq** durqunluq. ***1***. sikun**.** ***1***. turuqluq. dinclik. ***1***. turuqluq. turquluq. diriklik. cılızlıq. arıqlıq. zayıflıq. ***1***. sərinlik. sakinlik. yumuşaqlıq.

**turqunluq** **durqunluq**. ***1***.cansızlıq. sönüklük. ***1***.dinginlik. hərəkətsizlik. ***1***. **durağanlıq**. **duraqlıq**. yerləşik yerlilik. təpirsizik. hərəkətsizlik. sabitlik. ***1***. sikun.

**turqunmaq** **durqunmaq**. **duraqanmaq**. təpirsizmək. hərəkətsizləşmək. yerlinmək. yerləşmək. sabitlənmək.

**turqunmaq** **turqınmaq**. **durqunmaq**. ***1.*** duruqmaq**.** utanmaq. sıxılmaq. çəkinmək. **-** gördüyün işlərdən **turqunmazmı** heç**.** **-** turqunmadan girdi**. turqunub** deyənmədi**. *1.*** arıqlamaq. zayıflamaq. ***1***. duraqsamaq**.** çəkinmək**.** uyalmaq**.** utanmaq**.** sıxılmaq**.** qaçınmaq**. *1***. utanmaq. həya edmək. **-** oğlən **həya eylə** bir: **turqun** bir.

**turqurmaq** **durqurmaq. durdurmaq. *1***. qaldırmaq. ***1.*** durdurmaq. qaldırmaq. tikmək. yapmaq. inşa edmək. bərpa edmək.

***1.*** zayıflatmaq. yordurmaq. durqunlaştırmaq. **-** ölkə iqtisadın **durqurdu.** ***1.*** işdən çıxarmaq, salmaq. incitmək. arqutmaq. **-** qayğı məni **durğurdu.** ***1.*** ala qoymaq. gecikdirmək. mə'təl edmək**. -** işlərimi **durqurdu.** ***1***. doğrutmaq. tovurmaq. durvurmaq. doğrutmaq. dikmək. qabartmaq. **-** o qulağın tovurdu: dikətdi. ***1.*** qapamaq**.** durquzmaq**.** bağlamaq**.** dayandımaq**.** ***1.*** bəklətmək**.** gözətlətmək**.** ***1.*** nərsənin gedişin, gəlişməsin durdurmaq, dayandırmaq**.** arıqlatmaq**. -** atı **durğur**: arıxlat**.** ***1***. # tikmək**.** qurmaq**.** qaldırmaq**.** ayağa qaldırmaq**. -** o məni **turqurdu**: qaldırdı**.**

**turqurmaq** **durqurmaq**. **durdurmaq**. tikmək. yapmaq. bina edmək.

**turqut** **turağut.** ***1.*** bəldə**.** məskən**.** oturulacaq, yaşanılan yər**.** ***1.*** ömürlü**.** durucu**.** uzun yaşamlı**.** ***1***. bəldə**.** məkan məskən.

**turquy** **durquy**. durası. durmalı. durmağa yarar, uyqun. **-** bu **turquy** yer əməs: bura durmalı, qalmalı yer değil.

**turquz** **durğuz.** qapının sürməsi**.**

**turquzabad** **- durquzova**: **durquzabad**: yalqızabad. yalqızova. bəlli olmayan hara.

**turquzabad** **durquzabad**. **durquzova**. yalqızabad. yalqızova. bəlli olmayan hara. bəlli olmayan nərəsi.

**turquzavar** **durquzavar**. **durquzabad**: bəlli olmayan nərəsi.

**turquzmaq** **durdurmaq**. ***1.*** yerləşdirmək. müqim edmək. iqamə, iqamət etdirmək. ***1.*** toxdatmaq. ***1.*** tutmaq. toquqlamaq. toqifləmək. ***1***. qaldırmaq.

**- şın turquzmaq**: şaha qaldırmaq**.**

**turquzmaq** **durquzmaq**. ***1***.dirsətmək. tirsətmək. turuzmaq. turquzmaq. yaratmaq. yarqatmaq. ***1***.turuzmaq. durquzmaq. dirsətmək. tirsətmək. yaratmaq. yarqatmaq. ***1***.duruzmaq. turuzmaq. qoğzamaq. ayaqlatmaq. qalxızmaq. yola qoymaq.

**turquzova** **durquzova**. **durquzabad**. yalqızabad. yalqızova. bəlli olmayan hara.

**turlaq** **turluq**. ***1***. kömür yaxtıqları topraq gömülü, çuxuru. ***1***. topraq koma, külbə.

**turlamaq** **durlamaq ( < durmaq)**. bulunlamaq. qərarlamaq. qərar qoymaq.

**turlamaq** **türləmək. durlamaq.** toplamaq**.**

**turlu** durlu. qərarlı. sabit. qayım. qəvamlı. **- durlu** kişi. **- durlu** söz.

**turlu** **durlu**. **türlü**. **durumlu**. hallı.

**turluq** **durluq**. çardaq. barnaq. ev. sığıncaq. çatı.

**turluq** **durluq. turlaq**. **( < dur. tut**: tutuq**.** bükük**). *1.*** qapı**.** qapılı**.** pərdə**.** torluq**.** çadırın qapı işini görən pərdə**. *1.*** devlət yeri**.** rəsmi yer**.** idarə**. *1***. kömür yaxtıqları topraq gömülü, çuxuru. ***1***. topraq koma, külbə. ***1.*** torluq. örtük. pərd. hicab. ləhaf. ***1.*** qorxu. xof. qorxub durmaqlıq, çəkilmək. dehşət. ***1.*** xətər. ***1.*** sıxıntı. inqibaz. dərd. ələm. kədər. ***1***. ev**.** qalat**.** durulan yer**.** ev**.** qara yörük çadırı**.** çardaq**. *1***. **torluq**. qapı. eşik. astana. dərgəh. bargəh. barıngə. dərbar. hisar.

**- saqal durluq**: ***1.*** bir çeşit boyunbağ**. *1.*** gəm**.** lüqam.

**turma** **durma**. ***1***. duruş. dayqun. qıvam. tavan. quysunq. çağqın. ***1***. qalış. qalma. ***1***. qərar. ***1***. toxdaş. dinləmə. iqamət. ***1***. tumər. turp. tırp. **-** küvij turma: puka turp**. - sarı turma**: yer kökü**. *1***. turp. **- aylıq turma**: turp**.**

**turma** **durma**. ***1***.qalxma. qiyam. ***1***.yatışma. dinmə. qonma. qərar tutma. ***1***.oturma. dinlənmə. qonaqlama. oranc.

oran. qərar. ***1***.əğlənmək. təvəqqüf. ***1***.dinlənmə. əğlənmə. dirəng < duranğ **( < durmaq)**. təvəqqüf. ***1***.əğlənmə. duraq.dincəlmə. ***1***. **duran**. **durmuş**. qalma. qalmış. qalan. yadavul. yadiqar. anıt. əsgilərdən sürüb gəlmə, intiqal edmə. **-** olardan **qalma**. ***1***. **durum. durmuş.** qalım. qalma. qalış. yaşama. yaşam. yaşaş. yaşayış. bəqa'. ***1***. yerləşmə. əğləşmə. oturma. iqamət.

**- durma**!: kəsmə!. sür!. sürdür!. dəvam!.

**- dış durma**: çəkə durma. qıraq durma. ıraq durma. qayra durma. uzaq durma. qaça durma. üz çevirmə. üz döndərmə. e'raz.

**- qarşı davranma**, **durma**: əl uzatma.

**- nərsənin durmasın, dayanmasın, muqavimətin çoxaldan**: qatıl. güclədən. cıdamladan. möhkəmlədən. müqəvvi. qəvilədən. təqviyətli.

**- uzaq durma**: uzaqlaşma. qaçışma. ehtiraz. **-** nədən bu **qaçışma**.

**- nərsənin düşəcək, yıxılacaq kimi durması**: kavaltaq.

**- görülən işdən**, **olduğu durumdan yoxsun**, **məhrum** **durma**: qaldı **-** hamı yedi, **qaldı** sən.

- **kiçik durma imi**, **simgəsi**: duraqıc. durqıc. vurqıc. virgül.

- **qarşı dayanma**, **durma**: göğüsləmə. sinə gəlmə. sinə gərmə. muxalifət edmə.

**turma** **durma**. **duruş**. **durum**. ***1***.qalma. qalış. qalım. bulunma. buluş. olunma. oluş. bolunma. boluş. ***1***.qalxış. qamət. qaqat. qamat. çapat.iqamə. qiyam.

**turmadan** **durmadan**. **durmaqsızın**. ***1***.ha birə. bitişik. bitəvi. arasız. aralıqsız. kəsintisiz. fasiləsiz. ***1***.ha birə. fırıl fırıl. iticə. çapıcaq. qırpadaq. ***1***.ha birə. aralıqsız. dəvamlı. ard arda. çabuq çabuq. tələsikcə. ard arda. ardı kəsilmədən. bidüzüyə. birdüzüyə. artlı arasız. dəvamlı. ***1***.bir düzüyə. kəsinmədən. dinləmədən. ***1***.çapıcaq. çapıcacıq çabucaq. tələsik. dərhal. həmən. ***1***.durmazın. duranğsız. dirəngsiz **( < durmaq)**. sürənğsiz. sürəncsiz. sallanmadan. aslanmadan. sürətli. axsınmadan. titizcə. dinlənmədən. əğlənmədən. ***1***.keçəsi. verəsiyə. tikiz, diqqət, özən göstərmədən. **- verəsiyə** bir sağol, bir səlam.

- **durmadan qamçılama**: çala qamçı.

**turmaq** **durmaq**. ***1***. **{( tur. dur < > töz. döz)** dözmək. tözmək.**}** ***1***. sonuna gələn işləmlərə **(feillərə)**, sürək, davam durumu

veririr. - eliyə **durmaq.** - yiyə **durmaq.** - **dura dur**: gözlə. belə. ***1.*** var olmaq. olunmaq. bulunmaq. qurulmaq. bir durumu, gedişi yaşamaq. çəkmək. qalmaq. bir durumda tapılmaq. oturmaq. yerləşmək. beş kişidən **duran** qurup: qurulan. ***1.*** tikilmək. gözləmək. bəkləmək. ***1.*** dirgənib, tıxanıb qalmaq. - **durdum durdum** gəlmədi: gözlədim bəklədim gəlmədin. ***1.*** durugəlmək. duruşmaq. girişmək. qalxmaq. qalxıb yerimək. çıxmaq. qopmaq. - ertə **duran**, erkən çatar. - duman durdı: qalxdı, burdu, bürüdü. ***1.*** başlamaq. ***1.*** bir nərsənin dəğərin bəlləyib soruşmaq. - bu mallar sizə neçiyə **durat**: **durur**: baxır. nərsənin qulluğunda olmaq. - bu adamlar sizə **durur**: sizin qulluğuzdadırlar. - bəy **durqanları**: qulluqçuları. ***1.*** **durmaq.** ***1.*** kəsilmək. bitmək. dinmək. qırılmaq. qalmaq. sınmaq. keçməmək. çalışmamaq. yatmaq. irəliləməmək. işləməmək. - yaşam **durmur** ki belə. ***1.*** qımıldamamaq. tərpəşməmək. oynamamaq. - hava **durmuş.** - saat **durdu.** ***1.*** dinlənmək. istirahət edmək. ***1.*** qarşı qoymaq. - düşman qabağında **duran** ərlər. ***1.*** vazkeçmək. ***1.*** alı qalmaq. şaşı qalmaq. çaşıb mat qalmaq. duruqmaq. tumuqmaq. ***1.*** ayıq, oyaq

qalmaq. ***1.*** tolunmaq. qalmaq. dinəlmək. dinc almaq. dincəlmək. istirahət edmək. rahatlanmaq. sakitlənmək. ***1.*** toxdamaq. yolundan ala qalmaq. dikəlmək. yaşanmaq. payəndə olmaq. ***1.*** qalxmaq**. -** bulut **durdu. -** səsi durdu: səs qalxdı**. *1***. hazır olmaq. **- durun**: hazırlanın. **- duran** nərsələr: hazır olan nərsələr. ***1***. arıqlamaq. ***1.*** gedmək**.** başlamaq**. -** hara durusan, otur görək**. -** durun **!. -** haydı dəlilər **durmuş** topraq qurağında axa **dur**: ax. axqınan. **-** qaqa **dur**: çırp. çırpqınan. **-** baqa **dur**: bax. baxqınan. ***1***. qoyunmaq. qonmaq. oturmaq. toxdamaq. **-** ağrım **qondu. *1***. güdmək. bəkləmək. qözləmək. ***1***. iqdam edmək. qılmaq. **-** siz havax duracaqsız. **-** buyruq olsa durarıq. **- durqan** uluğ işlərə. ***1***. turuqmaq. duruqmaq. toplanmaq. dolmalanmaq. ***1***. qırmaq. durdurmaq. ***1***. döğrəmək. döğrələmək. **-** qayğı məni **turğurub**: qussə məni çulqayıb**. *1***. olmaq. ***1***. türümək. toplanmaq. ***1***. toplanmaq. türümək. ***1***. durmaq. çıxmaq. yüksəlmək. ayağda durmaq. qalxmaq. ***1.*** arıqlamaq. zayıflamaq. **-** yeməsən **durarsan. -** dura dura yox oldu: arıxlaya arıxlaya yox oldu**. *1***. oynamamaq. qımıldanmamaq. sakin olmaq. oturmaq. iqamət edmək.

gedməmək (işləməmək). dinğmək. kəsilmək. - yerində **durmaq**. - ayağda **durmaq**. - bizə gəlincə durdu. - su **dura dura** pozulur. - harda **durursuz**. - işlər **durdu**. - yağmur **durdu**. ***1***. bulunmaq. qalmaq. sürmək. dəvam edmək. - siz orda **durursuzmu**. - aşçız genə sizdə **durur**. - kitabların məndə **durur**. - dünya **durduqca**. - at **durdu**. - sözünd **durmaq**. ***1***. bəkləmək. dözmək. səbr edmək. - burda bir iki saat **duralım**. - bir az durun. - **durammıram**. - gedir gedir, **durmaq** bilmir. ***1***. tumuqmaq. duruqsunmaq. şaşmaq. heyrətə dalmaq. - bunu eşidib **durdu**. - gözlərinə inanmayıb **durdu**. ***1***. keçməmək. ilişmək. ilərləməmək. yığılmaq. - boğazıma **durdu**. - canıma **durdu** daha!. ***1***. qonmaq. düşmək. - qumun üzərinə duz **durmuş**. ***1***. artırılan fe'lin sürməsin, dəvamın göstərir. - **yatıb durur**. - **baxıb durur**. - **baxa durmaq**. - axan sular **durur**: heç deyəcək yoxdur. açıq aydındır. ***1***. tavranmaq. davranmaq. tovranmaq. ayağa qalxmaq. ayağa sıçramaq. diklənmək. ***1***. oturuşmaq. yatışmaq.- qarğaşalıq **oturuşdu**. - **duruqlu**: durmayı düşünən, tasarlayan. ***1***. qalmaq. ***1***. toxdamaq. dinmək. kəsilmək. ara vermək. yerləşmək.

**- təq durmaq**: susmaq**.**

**- bir gün qalmaq, durmaq**: güni keçirmək: günləmək**.**

**- dibə çökmək**: turulmaq. durulmaq **( < durmaq).**

**turmaq** **durmaq**. ***1***.bulunmaq. tapınmaq. **- sözüzdə tapının**: qovluzsa durun. ***1***.dinlənmək. rahatlanmaq. ***1***.dinlənmək. soluq almaq. ***1***.dinmək. bitmək. ***1***.dinmək. yatışmaq. qonmaq. ***1***.qərar tapmaq. ***1***.duraqlamaq. mütəvəqqif olmaq. ***1***.qaldırmaq. dözmək. tablaşmaq. ***1***.qalxmaq. oyanmaq. ***1***.qalmaq. dəvam edmək. **- balsız kovanda**, **arı durmaz**: qazancsız yerdə kimsə durmaz.***1***.saxlanmaq. bəkləmək. **- qapıda saxlanıb soradı**: qapıda durub soruşdu. ***1***. dəvam edmək. **-** iki bacı durmadan **qaqışıb durdular**: **(qaqışmaq**: dediqodulamaq**)**. ***1***.sıxınmaq. saxlanmaq. sıxışmaq. dayanmaq. **- dayan bir**!: sıxın bir!: saxlan bir!: dur bir!: sıxış bir!. ***1***.sürmək. dayanmaq. qalmaq. baqi qalmaq. **-** bu yapı nə çağdan dayanır. ***1***.oynamamaq. dinmək. kəsilmək. hərəkətsiz qalmaq ***1***.var olmaq. qalmaq. sürmək. **-** ondan çox işlər **durur**. **-** keçmişdən **duranlar**. ***1***. başlamaq. iqamə edmək. **-** işə **durdular**. ***1***. sonuna gələn işləmlərə, sürəklilik gətirir. dəvam edmək. **- qaçıb**

**durmaq**.

**- durub dururkən**: ***1***.oturduğu yerdə. yersiz. nədənsiz. gərəkməzin. gərəksiz yerə. ***1***.birdən. ansızın. **- durub durub**, **durnanı gözündən vurmaq**: bəkliyərək işi iyisin yapmaq. **- durub dinlənmədən**:ara verməkzin. sürəkli. **- durmuş oturmuş**: eşib əşmiş. görüb götürmüş. dənəkli. sakin. dinc. arsat. sıxıntısız. **- durduğu yerdə**: ***1***.yoxdan. əməksiz. ***1***. suçsuz yerə. **- dur otur bilməmək**: çox çabalayıb, yaramazlıq edmək. **- durub oturmaq**: ilişgili, yaraşıqlı olub qalmaq. ***1***. ilişmək. ilinmək. qalmaq. **-** nə **ilişmisən** mənə, çıx geddə.

**- geri durmaq**: geriginmək. qaçınmaq. kürənmək. imtina' edmək.

**- qafası durmaq**: başdan düşmək. başı bunamaq.

**- qaşşaq durmaq**: **qarşaq durmaq**: nərsəni, kimsəni qarşılamaq üçün yol boyu düzülmək.

**- qaqa**, **dikə durmaq**: qaqınmaq. qaqıcmaq. qaqışmaq. qanışmaq. qanıqmaq. qanıcmaq. başın qaldırıb qaqlanmaq.

**- qıraq, qıra durmaq**: çəkilmək. savulmaq. savılmaq. qaçılmaq.

**- üzə durmaq**: qanrışmaq. tərslənmək. tərsləşmək. inad

edmək. - sən kimə **qanrışırsın**.

- atalara **dayanan** gələnəklər.

- **başında durmaq**: özü güdmək.

- **doğru durmaq**: ***1***.uslu, dinc işləmək. sapmamaq. suç, əğri, xəta qılmamaq. ***1***.dikinə qalxmaq.

- **geri durmaq**: çəkinmək. qaçınmaq. sakınmaq. yanaşmamaq.

- **dönüb durmaq**: boşa **(**boşuna**)** dolaşmaq.

- **başında durmaq**: baş çəkmək. öndə gedmək. qılavuzluq, yolbaşlıq edmək.

- **boğazına durmaq**: yediyini utamamaq.

- **boş durmaq**: işsiz, bekar olmaq.

- **durub dayanmaq**: dişini sıxmaq. dözmək. təhəmmül edmək.

- **heç durmadan**: ardı arası, arxası kəsilmədən.

- **qalıb durmaq**: qalpalaşmaq. təmbəlləşmək. suslaşmaq.

- **qarşı durmaq**: baş gəlmək. baş qalxızmaq, qaldırmaq başınmaq. inadçılıq edmək.

- **qarşı durmaq**: dirənmək. dayanmaq. muxalifət, muqabilə edmək.

- **qarşı durmaq**: qafa durmaq.

- **tikilib qalmaq**, **durmaq**: tikilmək. dikəlmək.

**- yerində**, **sözündə durmaq**: direşmək. bərkinmək. üstələmək. israr edmək. sabit durmaq.

**- dinlənib durmaq**: dinc durmaq.

**- durub oturmaq**. düşüb oturmaq: düşüb qalxmaq.

**- əğrəti durmaq**: hər an qalxacaq kimi oturmaq.

**- geri durmaq**: ərinmək. arınmaq. qaçınmaq. üstələnməmək. üstünə almamaq. öhdələnməmək. üşənmək. boyun qaçırmaq. buruq, dönük vermək. burcanmaq. çəkinmək. sakınmaq. yanaşmamaq. təmbəlləşmək.

**- bir işdən**, **konudan <u>uzaq durmaq</u>**, **atılmaq**, **qaçmaq**: işin içindən çıxmaq, sıyrılmaq. **- işləri** iyli gördükdə, **içindən çıxdı**.

**turmaq** **durmaq**. **duruqmaq**. **duraqlamaq**. ***1***.qərar çıxarmaq. ***1***. israr, tə'kid edmək. ***1***.əylənmək. əylənmək. ***1***.dirimək. dirəmək. dikəmək. tikmək. ***1***.tinmək. dinmək. kəsilmək. qonulmaq. qoyulmaq. sonarmaq. sona ərmək. bitmək. susmaq. qərar tapmaq. rahatlanmaq. dinlənmək. dincəlmək. istirahət edmək. yatışmaq. sakinləşmək.

**- bir işi görməkdə durmaq**, **dirənmək**: sürdürmək.

**- tikilib qalmaq**, **durmaq**: dikəlmək. tikilmək.

**turmaqlıq** **durmaqlıq**. **-** qorxu**.** qorxub **durmaqlıq**, çəkilmək**.** turluq**.** dehşət**.**

**turmaqsızın** **durmaqsızın**. **durmadan**. ha birə. bitişik. bitəvi. arasız. aralıqsız. kəsintisiz. fasiləsiz. boyuna. aralıqlı. təkər təkər. təkrar təkrar. müttəsil. peyvəsdə.

**turmamaq** **durmamaq**. təlsəşmək. tələsmək. təzişmək. tazışmaq.

**turmamaq** **durmamaq**.təlsinmək. tələsmək. çabuqlanmaq. əcələ edmək.

**- nərsənin dəğişməsinə**, **düzəlməsinə artıq güdməmək, durmamaq, önəmsəməmək**: işi oluruna bıraqmaq.

**turman** **durman**. ***1***. bir çağ. bir zaman. ***1***. turp**.** tırp**.** tıp**.**

**turmatan** **durmadan. *1*. durmazın.** acıqar. acırqa. **( > azqar (fars)).** dirirgə. iticə. ***1***. qırılmadan. bıraxmadan. keçməksizin. gözətmədən. güzəşmədən. qardısız. qartısız. qarıqsız. qarımsız. qalısız. qalıqsız. qalımsız. qalsız. qayrız. qayruz. qayrığsız. qayrısız. qaytız. qaytısız. qayrımsız. qayrınsız. qaylansız. qayılansız. qaylənsiz. geylənsiz. geyilənsiz. müdam. mudam. dəvamlı. **- qayrığsız** baxım altında saxlanmalı xəsdə. **- qayrığsız** danışan cocuq. **- qayrığsız** gözdən ayırmadan güddülər.

**- durmadan gəzən**: çalaçı. çalaqçı. cuvanəzən. gəzəgən. qonat. qanat. qapı qapı gəzən.

**- durmadan söz, sav sorağında olan kimsə**: qulağı dəlik, deşik.

**- səni öyləsinə sevirəm, tapılsa yüzər sənə tay, <u>durmadan alaram</u>.**

**turmatan** **durmadan. *1***. sürəkli**.** arasız**.** aralıqsız**.** davamlı**.** ara vermədən**. *1***. börü cortuv: börü yortuv: bıqmadan. yorulmadan. mütəmadiyən. yanlavsız. dəvamlı. sübatla. toxdamazdan. toxdamay. toxdavsız. ***1***. yatab. həmişə. dayima.

**turmay** **- köp turmay**: çox geçmədən**.** yaxından**.**

**turmayan** **durmayan**. dinmiyən. dinlənmiyən. susmayan. kəsilməyən. qırılmayan. qırışmayan. axan. sürən. sızan. süzən. qoymuyan. qonmuyan. yatışmayan. yatınmayan.

**turmayan** yayılqan. yayılan. sübatsız. həvəsli.

**turmayın!** **- durmayın**!: iti!. yeyin!. çabuq!. tez!. deyindi!. de indi!. hadi!. haydi!.

**turmaz** **durmaz**. ***1***. biqərar. sürəksiz. ***1***. əbədi. yatab. qalmaz.

**turmaz** **durmaz**. **durumsuz**. dayaqsız. dayasız. dayanmaz. tayaqsız. tayasız. dayamsız. dəvamsız. yeltək. gəlgeç. dibsiz. cıdamsız. dönək. qancıq. oransız. oranşsız. qərarsız. duraqsız. bozyel. poyraz. tutaqsız. arxasız. yasasız. təkyəsiz. söyəksiz. söyəngəsiz. tapıqsız. sürəksiz. subatsız. yaşamaz. yaşamsız. yaşayışsız. qalmaz. qalımsız. qalışsız. qalıcı olmayan. itimli. ölümlü. imiqsiz. keçəri. keçib gedcək. keçib gedən. çəkli. sürəksiz. məhdud. bəqasız. yoxalcan. yoxalqan. fani.

**- axarı yatağına**, **içi üzünə**, **üzü içinə** **durmaz**: qərarsız. dəğişgən. qayğan. günü gününə uymaz.

**- toyuq şişər**, **şişək olmaz**, **qubba (**günbəz**) üsdə**, **cəviz durmaz**.

**-** yaşam yolu, **durmaz eşinməz**, sözün deyər, söz eşitməz, yolun gedər, geri dönməz, yuxar gedər boşa çıxar, aşağ enər, yoxa **(**poxa.**)**. çıxar.

**turmazın** **durmazın. durmadan.** acıqar. acırqa. **( > azqar (fars))**. dirirgə. iticə.

**turmazın** **durmazın**. durmadan. durangsız. dirəngsiz **( < durmaq)**. ha birə. sürəngsiz. sürəncsiz. sallanmadan. aslanmadan. sürətli. axsınmadan. titizcə. dinlənmədən. əğlənmədən.

**turmazlıq** **durmazlıq**. ***1***. durumsuzluq. duraqsızlıq. dayaqsızlıq. dayasızlıq. dayanmazlıq. tayaqsızlıq. tayasızlıq. dayamsızlıq. dəvamsızlıq. qərarsızlıq. dönəklik. dibsizlik. cıdamsızlıq. sürəksizlik. subatsızlıq. ***1***. **durumsuzluq.** qalmazlıq. qalımsızlıq. qalışsızlıq. qalıcı olmazlıq. itimlilik. ölümlük. imiqsizlik. yaşamazlıq. yaşamsızlıq. keçərilik. keçib gedənlik. çəklilik. sürəksizlik. bəqasızlıq. fanilik.

**turmşu** **durmşu**. turuqı.

**turmu** **durmu**. pərişan (fars). barışan. buruşqan. ürpək. tükləri biz biz, miz miz şişmiş. qarışıq.

**turmuş** **durmuş. *1.*** ömür**.** yaşam**.** uzun ömürlülük **(**çocuqları sıx ölən ailələrin işlətdiyi adlardan**)** ***1.*** duran, yaşayan, canlı**. *1.*** yaşam, hayat**. *1***. birlikdə yaşayış. geçim. amiziş. imtizac. dirilik. yaşam. geçinmə. geçiniş. məişət. həyat. **-** güc **geçinmə. -** bol, qolay **geçiniş. - geçinmə qoşu**: həyat

əsbabı**. -** böylə **geçim** olmaz. ***1***. yaşam. yaşantı.

**- yandıra qöz**: patlaq gözlü.

**yantırtıq** **yandırdıq**. saldırıq. həmlə.

**yantru** **yandru.** təkrar.

**yantrumaq** **yandrumaq**. **yandurmaq**. ***1.*** döndürmək. ***1.*** qusmaq. ***1.*** qorxutmaq·. ***1.*** yanmaq.

**yantu** **yandu**. yanlu. inanclı. inanmış. imanlı.

**yantuq** **yanduq**. ***1***. dəvətikanı. yabanı enginar. ağ yavşan. ***1***. göstərişli. azamətli.

**yanturmaq** **yandurmaq.** yalmaq.

**yantut** qarşıt. dəğər. edər. bədəl. əvəz. təzmin.

**yantıran** **yandıran**. küydürücü.

**yanu** qarqış. ilinc. lə'nət.

**yanuc** **canlı**. **yanlı**. **yanğuc**. yaxlı. yaxuc. odlu. oduc. atışlı. atıclı. qızqın. darqın. sınırlı. xaşlaq. ısqın. dartqın.

**yanuc** incə**.** zayıf**.** narın**.**

**yanuq** **yanığ.** ***1.*** əsmər dənli**.** qara**.** ***1.*** tutgun**.** aşıq**.** sevdalı**.**

**yanuqay** **yanuğ ay. yanığay.** balayı. evliliyin ilk dönəmi.

**yanuqay** **yanuq ay.** balayı**.**

**yanulmas** yanılmaz**.** dənəyimli, bilgili**.**

**yanumaq** açmaq. biləmək.

**yanurmaq** sulamaq. ititmək. **-** pıçaqları, qəmələri, qılışları yanurdular, döğüşə girişdilər.

**yanut** **yanıt.** ***1.*** qarşılıq**.** ***1.*** ödül**.** mükafat**.** ***1.*** cəvab. ***1.*** qarşılıq. əvaz. bədəl. qiymət.

**yanutmaq** nərsəni yandan, yanından sürtüb ititmək, biləmək, açmaq, safatmaq. **-** pıçaq **yanuldu.** yıtıtmaq. yititmək. ititmək. bilətmək.

**yanuv** ırmağın, yan qolları.

**yanuvlamaq** canuvlamaq. saldırtmaq. qışqırıtmaq. təhrik edmək.

**yanuvlanmaq** **canuvlanmaq.** parlanmaq.

**yanuvu edmək** **canuvu edmək**. qonuşturmaq. qayğı edmək. təlaşlanmaq.

**yanuvuq** canuvuq. öfgəli. hiddətli.

**yanuvul** ***1***) qoşturma. ***1***. təlaş. qayğı.

**yanverməz** yenilməz**.** sarsılmaz**.** sağlam**.** sınmaz**. yanverməz** batır**.**

**yanyaxa** yantərəfə**.- yanverməzlik**: sarsılmazlıq**.**

**yanyana** yapışıq. bitişik.

**- neçə dirək təxdəni, yanyana birbirinə çiviləyib (mıxlayıb), tutturulmalarına yarar ağac parçası**: qapur. qabur.

**yap** qoşu. vər vəsayil.

**- yap ox**: təmrənli ox.

**- yap yap**: asda asda. yavaş yavaş. ataq ataq. azar azar.

**- yapyol**: arx yol.

**- sən yapdığın yap, fələk öz işin işləyəcək**: olan olacaq, köçən köçəcək. iş olacağına varır. bir soruna, gərəyə aldırmadan, etgilənmədən, olan olmaq. sən eddigivi ed, sonuc dəğişmiyəcək.

**yap** **yab**. **{əb}**. ***1.*** usul. yol. metod. ***1.*** qolaylıq. əl yatqınlığı. ***1***. imkan. ***1.*** arx. kəhrəz. kəriz **( < kərmək**: kəsmək**.** qazmaq**).** ***1.*** asta. yavaş. ***1.*** ap. birdən. birdən birə. ansızın. ***1.*** kök. əsas. zat. bün. pey. bünbyad. **- yap yap**: **-** yap yap gizlicə ağlamaq: inqirənmək**.** inlənmək**. *1.*** yapca. yapbac. oğrın**.**

yavaşca. **- yap yap**: yab yab: yapca yapca: yabbac: oğrun oğrun**.** ***1.*** ip: sap. ***1.*** dəğirmi olan hərhanki bir nərsə. **- yap yarmaq.** dəğirmi para**.** sağ para**.** ***1.*** **yam**. vurqulayan sözlərdən. **- yam** yassı**. - yam** yamalaq**.** ***1***. yup. hilə. al. ***1***. yapıq, quruq qurulmuş, çevrələnmiş, girdə nərsə. açıq. doğru. çin. **-** yapraq: **< yap** + **raq**: nərsənin düz olduğuna, vurqu, tə'kid simgəsi**)**: ***1***. çin çin. lap doğru. ***1***. meydan. çəkinmədən, açığına işə danışığa, açıq olan nə, ərsə. ***1.*** hilə. al. **- yap yup**: gizli püslü**.**

**- yap yup qılmaq**: ***1.*** kələk qılmaq**.** al edmək**.** ***1.*** yubılamaq**.** yuplamaq**.** burbatmaq**.** geciktirmək**.** ***1.*** yavaş**.** asta**.** yıp**. - yap yap**: yavaş yavaş**.** usul usul**.** sağrın**.** səssizcə**.** uzun uzaq**.** ağır ağır**.** ***1.*** uyğun**.** yaxşı**.** yaşıqlı**.** yengəl**.** yügül**.** rahat**.** ***1.*** usul**.** yol**.** metod**.** əl yatqınlığı**.** qılıq**.** püf**. - yapın tapmaq**: yolun, qolayın tapmaq**. - yapına düzəlmək**: işi yoluynan yapmaq**. -** işin **yapın** bilən armaz: işin yolun bilən yorulmaz**.** ***1.*** yapıq**.** yatıq**.** suyun yatağı**.** hədd**.** cızıq**. - yapdan** çıxmaq: yağın aşmaq**.** həddin aşmaq**.** ***1.*** **tab. taxal.** yaraq**.** imkan**.** uyqunluq**.** çarə**.** müsaid**.** fürsət**. -** başqa bir işə **yapım** yoxdu**. - yap düşsə**: imkan olsa**. - yap**

**tapmaq**: fürsət aramaq**. - yapına düşdü**: qabına düşdü**. - yaplı**: uyqun**.** cür**.** imkanlı**. - yapın saxlamaq**: yerin gözləmək**. - yap gözdə**: uyğun əlverişli çağda**. yap görmək**: tablamaq**.** yaxcı uyğun tapmaq**. *1.* yapday. yağday.** olduğu durum, şərayit**.** varlıq**.** çevrə**.** ortam**.** qoşul**. dolay.** çevrə**.** yan yön**.** ətraf**.** yanlar**.** çəpçevrə**.** şərayit**.** mihit**.** qonalqı**. - yapıva** baxıb xəşlə**. - yapa** versən çıxar: imkan versən çıxar**. - yapsızlığdan**: imkansızlığdan**. -** qolay **yapa**: uyqun **yapa**: yaxcı şərayit**. - yaplığda**: bu şərayitdə**. -** çayın yapı: çayın yatağı, iznəsi**. -** hər işin **yapın** öyrəşməliyik**. -** su evin **yapın** basdı**. - yapı** bilinməyən yerə girmə**. - yap** kişi sanqusun etgiləsədə, yönətməməlidi**. - yapına** baxıb dononu tik**. - yapsız** toxum bitsədə, gülə oturmaz**.** dolay olsa əyri düzələr**. - yapın** saymayan, şaşa bilər**. -** qar **yapını** bürüyüb, yel əsib qasırqa qopdu**. -** tarix **yapından** asılı olmayaraq**. - yapınız** necədi**. -** doğal **yapıyı** iyilətmək üçün**. *1.*** daban**.** bir nərsənin təməl olan alt qatı**.** ayağ**.** dayaq**.** paya**.** qaidə**.** olumun, varlığın, birinci əsas şərayiti**. -** hər işin **yapın** öyrəşməliyik: dabanın**. -** evin **yapı. *1.*** silah**.** tüfəh**.** güc**. *1.*** incə**.** arığ**. *1.* tap.** tay**.** bənzər**.** əş**.** oxşar**. - tapsız**: taysız**.** əşsiz**. *1.*** bu

kökdə ilişmək **qarış**maq, **keçə**ləşmək, **qov**uşmaq, **tik**ilmək, **qan**aşmaq anlamı var.

**- yap yap**:. ağır ağır**.** azar azar**.** yavaş yavaş**.**

**- yap yup**:. çap çup**.** çav çuv**.** cıvıltı**.**

**- alay edməyə yapım yox**: öylə yapmaya imkanım yox**.**

**- yap düşmək**: imkan olmaq**.** mümkün olmaq**.**

**- yapdan çıxmaq**: irəli gedmək**.** həddini aşmaq**.**

**- yapa gələn**: uysal**.** munis**.**

**- yap yup**: **yapıq yupuq.** gizli mizli**.** hilə**.** al**.**

**yapa** yaba.***1***. atqı. ikuc. üçuc. ucu barmaq yaruqlu kürək. **- yapa yapa**: qıla qıla: edə edə. ***1***. həp. bütün. bütünlük. ***1***. yumşaq, əprik olan, yaş, ıslaq olan. ***1.*** yaba**.** yapma**.** çaba**.** enerji**.** ***1.*** bütün**.** həp**.** bütünlük**.** ***1.*** vəfa**.** ***1.*** qapalı**.** bağlı**.** bağlı**.** durqun**.** işləri yapa qoymaq.

**- yapa - yapa**:. **ləpə ləpə. -** qaravaşa don geydirsən qadın olmaz**. yapa yapa** qarlar yağsa yaza qalmazdədə qurqud.

**yapac** **(yamac**. **< yamaq <> yapaq >)**. **əməc**. ***1***. nərsənin bir nəyə tutunma ayqıtı. ***1***. tozalan. tozsoran. aspirator. əmməc.

**yapac** **yapılı**. qabaç. əndamlı. qamətli.

**yapacaq** **- nə yapacağını bilməmək**: tutar tutmaz. aşır qaşır. aşır qaçır.
**- nə yapacağını bilməmək**: yolunu çaşmaq.

**yapaç** **yataç**. **yatlac**. **yaplac**. qartal. qartaq. qartalaq. qatalaq. qartalac. qatalac. picza. pitza.

**yapaçlıq** qapaçlıq. yapaqanlıq. qapaqanlıq. qapamanlıq. qaramanlıq. qəhrəmanlıq. yiğitlik. iğitlik. yiğitgənlik. iğitgənlik. yürüktülüq. ürəklilik. qarmanlıq. qaramanlıq. qəhrəmanlıq. batırlıq. atılqanlıq. güstaxlıq. dəlilik. ataqanlıq. qeyrətlilik. şüca'lıq. cəsurluluq. cəsarətlilik.

**yapaq** **(<> yamaq yamac**. **yapac >)**. **əməc**. ***1***. nərsənin bir nəyə tutunma ayqıtı. ***1***. tozalan. tozsoran. aspirator. əmməc.

**yapaq** **yapağı. *1*.** sıx. gür. gur. ***1***. çabqıç. yapaq. ***1***. örtük. yorqan. ***1.*** kipir. kifir. **- yapağın** ayır: yuğun arıtlan. ***1.*** qoyun yunu. **- yapaqı** arıtlır: tük tökmək. tük dəğişmək. **- yapağı arıtqan** it: uyuz köpək. tükləri tökülmüş it. ***1.*** düz. yassı. ***1***. yapqa. yapaqa. abaqa. abqa. albağ.***1.*** istək. istənilən, görülən nərsə. - sənin abağan nədir. ***1.*** oya. məşquliyyət. - özüvə bir **abaqa** seçdə, oyasız qalma. ***1.*** peyk. payaq. elçi.

savaç. qasid. ***1.*** yumşaq qalın yün. qoyunun qışın sürən yuni.

**yapaq** yapıq. yapağı. yapıncaq. yapraq. ambalaj. bağ. bağlac. bağlayıc. bağlantı. bağlam. bürük. örtü. örtüc. örtmə. örtməc. örtbas. örtənək. duvaq. tutac. peçə. paket. qapat. qaplac. qapıc. qapıq. qapaq. qapa. qapal. qapan. qapam. sarqı. köynək. gömlək.

**yapaq** **yapağ.** yun. yün. qoyunun dərisinin üstündə olan tükə deyilir.

**yapaqan** **yapağan. abığan.(<** abımaq**).** örtən. gizləyən. gizli, örtülü tutan.

**yapaqanlıq** **qapaqanlıq. qapamanlıq. qaramanlıq. qəhrəmanlıq.** qapaçlıq. yapaçlıq. yiğitlik. iğitlik. yiğitgənlik. iğitgənlik. yürüktülüq. ürəklilik. qarmanlıq. qaramanlıq. qəhrəmanlıq. batırlıq. atılqanlıq. güstaxlıq. dəlilik. ataqanlıq. qeyrətlilik. şüca'lıq. cəsurluluq. cəsarətlilik.

**yapaqı** **yapağı**. ***1***. bir illik dayça. ***1***. yapıq. yapaq. yapıncaq. yapraq. ambalaj. bağ. bağlac. bağlayıc. bağlantı. bağlam. bürük. örtü. örtüc. örtmə. örtməc. örtbas. örtənək. duvaq. tutac. peçə. paket. qapat. qaplac. qapıc.

qapıq. qapaq. qapa. qapal. qapan. qapam. sarqı. köynək. gömlək.

**yapaqı** **yapağı.** biləzik. yün.

**- heyvan yapağısın (yunun) qırxılan çağı**: qırqım. qırxım. **-** birindən yapağı **(**yun**)** borc alıb, **qırxımda** ödəmək.

**yapaqılı** **yapa** + **qılı. ( y < > ç. < çapaqıl.). {( <** çapaq yaxud çapa: yapaq yaxud yapı: ***1.*** çapılmış**.** qırıq**.** ***1.*** bu söz **(**kəsikdə qırıqda**.** cırıqda**.** bölükdə**)** genişlyi**,** iriliyi**,** böyük olduğu bildirir: **( - çapıq**: hər nərsədə olan yekə, gen cırıq**. y**apa: **ç**apa: lapa:ləpə iri qar dənəsi**. )** və hərəkətdə itiliyi göstərir **(-** çapa **-**çapa: atıla atıla: qaça qaça**.)}.** ***1.*** örtülü**.** gizli**.** ***1.*** **yapa**: **çapa**: böyük**.** uzun**.** uzun tüklü**. - yapaqlı** kürk**.** ***1.*** çapa qıllı**.** tükləri qırılmış**.** tökülmüş**. - çapaqılı** dayça yaza çıxsa**.** at olur**.**

**yapaqlı** ***1***. sapaqlı. çabaqlı. uzun tüklü. ***1***. yumşaq, qalın yünlə örtülü. bu yüni verən heyvan. **(# qıllı**: keçi**).**

**yapaqu** abağu. yön. yan. tərəf.

**yapaqulaq** bayquş. puhuquşu. ügi. ühi. uhu. puhu. " **uuhu- puuhuu"** səsi çıxardığından bu adı almış. koruv. korav. çökəv. çökov. xaraba quşu.

**yapaqulaq** quburğa. bağırqa. boğurqa. bayquş. üki. ühi.

**yapal** **> yalab**. çuqşın **(> coşən)**. zireh.

**yapalac** **yaplac. qaplac. qapalac. *1***. mərasim. ***1***. təşrifat.

**yapalaq** ***1*.** bayquş**.** üğüdür**.** üği**.** üğü**.** küfə**.** kafir qırlağucı**.** sarıquş**.** bayqu**.** kor yapalaq**.** gecəquşu**. *1*.** hər nərsənin iri**.** yekə**.** çapa**.** boylu**.** gobud olduğun çatdırır**. -yaplaq (**qar**)**: yazın yağdığı**.** ləpə **-** ləpə**.** iri iri qar dənəsi**. - yapalaq** kişi: yoğun kişi**. - yapalaq iş**: gobudluq**.** ədəbsizlik**. - yapalaq (**saç**) (**:***1*.** uzun qıl**.** tük**. *1*.** pırtıq**.** qarışıq tük**.). *1***. apalaq. gündə. gombul. tombul. iri. ***1***. çapalaq. ləpə ləpə yağan qar. iri qar dənəsi.

**yapalaq** **apalaq**. ***1***. tombul, topul, iri olan cocuq. ***1***. gombul. şişgin. ***1***.puhu quşu. ***1***.vırqın. düşük. yappı. pəx. əzik. **- yapalaq burun**: basılı, yassı burun. ***1***.yaplaq. üzü, görnüşü girdə, dığır kişi. ***1***.yastı. yatalaq. qabarıqsız. ***1***. kələk. düzməcə. düzmə. yapalaq. duzaq. kələk. əğrib. giriz. gizir. girişim. ***1***. **qapalaq**. iri bayquş. ***1***. **yabba**. hantal. qapdal. iş qılığı yavaş olan. ağır edişli, hərəkətli. təmbəl.***1***. yasalaq. süni. məsnoi. ***1***. yapalaqlı. yaplaqlı. sınaqlıq. təcrübəlilik. ***1***. yoxalamaq. yanğsılamaq. ələ salmaq. sallamaq.

kiçitmək. kəmsitmək. təhqirləmək. hoylamaq. korlamaq. xarlamaq. yuvalamaq. yuvub arıtmaq.

**- koryapalaq**: korbağa quş. koruğu. koruvu. korquş. bayquş. puhuquşu. ügi. ühi. uhu. puhu. " **uuhu- puuhuu"** səsi çıxardığından bu adı almış. yapaqulaq. quqqumay. koruv. korav. çökəv. çökov. xaraba quşu.

**yapalaqmaq** **çapalaqmaq**: ləpələmək. ləpə ləpə qar yağmaq.

**yapalamaq** **yabalamaq**. yapa ilə xərmən savurmaq. atqılamaq. savurmaq.

**yapalaş** yaplaş. quşatma. quşatım. mahasirə.

**yapalaşmaq** **yabbalaşmaq.** qapdallaşmaq. hantallaşmaq. qabalaşmaq. iriləşmək. qocamanlaşmaq.

**yapalıq** **yapalığ. abalıq. (< yapmaq).** yeldirmə. yəldirmə. manto. **(**qadınların gen, bol eşik geyimi**).**

**yapalıq** **yaprıq. yaparıq. ipələk <> yipələk <> əprək <> yəprək <> əpələk <> yəpələk**. əsim. nəsim. yumşaq yel.

**yapalın** **yapılın. yaplın. yapmın. yasılın. yaslın. yasalın. yasmın. qapılın. qaplın. qapalın. qapmın.** bodun. bütülün. bütlün. bütləyin. bütünləyin. bitilin. bitlin. bitləyin. bitmin.

hammısı. tammısı. tamısı. tamusu. büsbütün. topdan. kamilən. tamamən. təkmilən.

**yapalınmaq** əpəllənmək **<>** yəpələnmək **<>** ipələnmək **<>** yipələnmək. yaparınmaq. yaprınmaq. əsimlənmək. nəsimlənmək.

**yapalqa** yapluqa. abluka. albağac**.** quşaq. mahasirə.

**yapalma** aldanma**.** yahalma**.** yasalma**.**

**yapamaq** **yaptamaq.** ***1***. bax **> taptamaq**. ***1***. **qapamaq**. abamaq. ablamaq. avamaq. avlamaq. tıxmaq. tıqmaq. mən' edmək.

**yapamaq** **yasamaq**. **yapmaq**. **yasmaq**. qılmaq. edmək. edəmək. eləmək. eyləmək.

**yapamamaq** edəməmək. qılamamaq.

**yapamışı** yapmışı. yasamişi. düzənlənmiş. qurulmuş.

**yapan** ***1***. edən. qılan. görən. mücri. işləyən. qılan. amil. fail. **-** bu işi **işləyən**. ***1***. yaban**.** yapıcı**.** yabay**.** yapay**.** yaparlı**.** ürətgən**.** olumlu. ***1***. yapıcı. yapıc. çalıcı. çalğuçi. çarpıcı. düzən. işçi qılqul. qılıcı. işləyən. amil. sazəndə. ***1***. yapqar. gizlətən. sınqar. sindirən.

**yapan** ***1***. yapıcı. əkən. edmən. edən. edici. qılıcı.qılan. işləyən. fail. amil. faktor. ***1***.dam. bam. ***1***. **yapanlı. yapanlu. qapanlı. qapanlu. qapan.** bazar, alver yeri, ocağı, mərkəzi. bazar. ***1***. **yapay. yasan**. aparan. işləyən. bəllətən. bələtən. yeritən. yeridən. yürütən. uyqulayan. ifa', icra edən. mücri. ***1***. **yapay. yasan**. quran. düzəldən. düzən. düzəy. ***1***. **yaran**. **yasan**. **yapayan**. **yapadan**. **yaradan**. **yasadan**. bəşər. bəcər. bəcərən. başaran. başar. baş ər. düzən. ***1***. **yapqan**. **yapıcı**. **yapqır**. yasağan. yasan. işlər. işləyən. işəngir. işəngər. edgər. edgir. edmən. qılğan. qılcan. qılqar. qılqan. görücü. görücən. görcən. görəngən. ərcil. fəal. əktiv.

**-** heykəl **yapan**, **yasan**, **yonan**, **oyan**: heykəlçi.

**- işi**, **etgini**, **əsəri**, **izi qalarkən**, **yapanı bilinməyən** **konu**: adsız.

**- ürək yapan**, **qayıran**, **qoparan**. könül çəkən. gözəl. dilmə. diləm. sevgili.

**- öz bildiyin yapan**: söz, öğüt dinləməz. danzaq. danğzaq. qanzaq. qanğzaq.

**- qaşıq yapan çox olar**, **qılpın verən az olar**.

**- qılmaqdan qaçına qaçına**, **işində yapan kimsə**: həm qaçar, həmdə təbilin çalar. bir qaçar, birdə təbilin çalar: çəkinməli, çəkinir bir işi yapmaqdan keçəməmək.

**- ürək yapan**, **qayıran**, **qoparan**: gözəl. sevgili.könül çəkən.

**- yavaş iş yapan**: əli ağır.

**yapançıq** **- yarımçıq yapançıq**: yarım yamalaq: yarımçıq palançıq.

**yapanq** **yapanğ. abanğ. aban.** ***1***. **> palan**. çul. yəhər. ***1***.əyər. əgər. əyə. "**əgər**" anlamına şərt ilgəci. **- aban** gəldin: əgər gəldin. **- aban** gedsən gedərəm, **aban** gəlsən gələrəm. **- aban aban** iş olmaz, bəsləməsən qız olmaz. **-** gəlsə **aban** tərxanım: gəlirsə əgər tərxanım. **- aban** qolsam: istərsəm əgər. ***1***. abıtqan. abid. zahid. mürtaz. qıraqlardan uzaq, özlüyünə, öz içinə qapanan adam. ***1***. özün oraya salmayan. xuddar. **-** aban kimsə, yavuz qalmaz. ***1***. abın. avan. ulu. yüksək. ali. ***1*** abağan. gizləyən. örtən: aban tanrım. gizli olan. örtük qalan. sonu bucağı bəlli olmayan allah.

**yapanq** yəpəng. **( ç < > k < > y )** çəpəng. kəpəng.

**yapanq** **yapanğ**. qumluq. bataq. yerimyi çətin olan yer.

**yapanqa** yapılqa. çapılqa. hərnədən tapılan bazar, yer.

**yapanlamaq** **abanlamaq**. ***1.*** işləmək. iqdam edmək. ***1.*** kullamaq. işlətmək.

**yapanlı** **yapanlu. yapan. qapanlı. qapanlu. qapan.** ***1***. bazar, alver yeri, ocağı, mərkəzi. bazar. ***1***.meydan. kərvan. mal. ***1***.meydan. bazarlıq.

**yapanlu** bax **> yapanlı.**

**yapanmaq** **abanmaq**. ***1.*** qapanmaq. çulqanmaq. çökünmək. üzərinə düşmək. **-** nə mənim üstümə **abanmısan. *1.*** əğilmək**.** salqınmaq. sarqınmaq. **-** potuşqadan **abanıb** baxdı.

**yapanmaq** **abanmaq. yabanmaq. qapanmaq**. nərsənin üzərinə əğilmək.

**yapanmaz** **yamınmaz <> yapınmaz > əminməz < yəminməz < (< yamamaq**. **yapamaq)**. ***1***.onarmaz. düzəlməz. çıxırsız. düzəsiz. onarsız. onursuz. olunmaz. otsuz. otasız. arnaşsız. əlacsız. ***1***.qeyrimümkün.

**yapantırmaq** **yapandırmaq. *1.* abandırmaq**. çökərtmək. ıxlamaq. xıxlamaq. ***1.*** yamandırmaq. yapışdırmaq.

**yapar** ***1.*** lotu**.** rind**. *1.* yapan.** yapa bilən**.** bacarıqlı**.** hər işin altından çıxa bilən**. *1.*** yaraldan**.** quran**. *1.*** icazə**. *1.*** *işləm***.**

***1***.geyər**.** örtər**.** qapar**.** ***1*****.** düzəldər.

**- qış yapar**: qışlaq**.** qışı çox olan yer.

**yapar** ***1***.bilgin. bilir. anlar. qanar. qanaq. yanaq. ***1***. **yapra**. **yapı**. quruq. qurum. qurluş. quruluş. saxtar.

**- bir gün <u>yapar</u>**, **bir gün qalar**, **atlı atlıya çatar**.

**- qabar yapar**: gəlged. cəzr mədd.

**- astarı olan**, **üzün tapar**, **unun tapan**, **<u>çörəyin yapar</u>**.

**yaparaq** qılaraq. edərək. bilfe'l.

**yaparıq** **yaprıq**. **yapalıq**. **ipələk <> yipələk <> əprək <> yəprək <> əpələk <> yəpələk**. əsim. nəsim. yumşaq yel.

**yaparıq** zəmin. təməl. əsas.

**yaparınmaq** əpəllənmək **<>** yəpələnmək **<>** ipələnmək **<>** yipələnmək. yaprınmaq. yapalınmaq. əsimlənmək. nəsimlənmək.

**yaparqanlıq** **qaparqanlıq**. **qaparlıq**. **yaparlıq**. ***1***. işəcənlik. çalışqanlıq. armazlıq. qayırtlıq. qayrıtlıq. qayrıqlıq. qayırqanlıq. qayırçaqlıq. qeyrətkeşlik. azarkeşlik.***1***. ustalıq. çapıqlıq. başarıqlılıq. bəcəriklilik. ustalıq. bəcəri. başarı. yaratı. yaratış. yarayış. maharət.

**yaparlanmaq** **yapartanmaq**. **qaparlanmaq**. **qapartanmaq**. ***1***. işləməyə, çalışmağa öğrənmək, alışmaq. ***1***. ustalaşmaq.

**yaparlı** yapar**.** olumlu**.** yapıcı**.** ürətgən**.**

**yaparlıq** **qaparlıq**. **qaparqanlıq**. **yaparqanlıq**. ***1***. işəcənlik. çalışqanlıq. armazlıq. qayırtlıq. qayrıtlıq. qayrıqlıq. qayırqanlıq. qayırçaqlıq. qeyrətkeşlik. azarkeşlik.***1***. ustalıq. çapıqlıq. başarıqlılıq. bəcəriklilik. ustalıq. bəcəri. başarı. yaratı. yaratış. yarayış. maharət.

**yaparmaq** **aparmaq**. yüklənmək. ibermək. ebirmək. götürmək. evirmək. ustələnilmək. öhdələnilmək.

**yapartanmaq** **yaparlanmaq**. **qaparlanmaq**. **qapartanmaq**. ***1***. işləməyə, çalışmağa öğrənmək, alışmaq. ***1***. ustalaşmaq.

**yapas** **qılas**. təmə'. tamah. atış. utuş. oduş. alşıq. qızıq. qoruq. qızım. qısıq. qınıq. coşuq. yaxış. yanğı. qaraç. qapıs. qaplıc. azman **<** acman. aclıq. göz. acgözlük. tutqu. tutmac. dalvas. talvas. gərik. çəkiş. dalqıç. obrıq. hoprıq. öprük. yumuq. umaq. umuq. əmik. yerik. yenik. dadıq. çaylıq. araş. arzıq. marağ. seviş. iştah. istək. əsmə. əsi. əslik. istəş. özənc. özəniş. islaq. islat. ıslaq. ıslat. qaplıca. qapcıq. həvəs.

**yapasıq** qılasıq tamahlı. tamahkar. təmə'li. atışıq. utuşuq. oduşuq. alışlı. qızıqlı. qoruqlu. qızımlı. qısıqlı. qınıqlı. coşquq. yaxışıq. yanqısıq. qaraçıq. qapısıq. qaplıcıq. azman **<** acman. aclıq. gözlü. acgözlü. tutuq. tutuqlu. tutalı. dalvalı. talvalı. gərikli. çəkişli. dalqıçıq. oburlu. hopurlu. öpürlü. yumuqlu. umuqlu. umaqlı. əmikli. yerikli. yenikli. dadıqlı. araşıq. arzıqlı. marağlı. sevişli. iştahlı. istəkli. əsikli. istəşli. özənli. öznəşic. həvəsli. həvəskar.

**yapaş** **apaş**. qaramıq. qaramuq. əngəl. qarşıl. qarışıl. qonqal. qanqal. çöngəl. büklüm. burqu. gerəlti. yaltax.

**yapaşaq** **başaşaq. abşar.** valibal oyununda, topu torun təpəsindən baş aşaq vurma.

**yapaşıq** **yamaşıq. yapışıq. qapaşıq. qamaşıq.** yatışıq. uyuşuq. yuxuşuq.

**yapaşır** **> capaşır > camaşır ( < yapmaq**: qapamaq. örtmək**)**. içlik. iç geyim. **-.**

**yapaşmaq** **<>yapışmaq > əmişmək < yəmişmək < yamışmaq <> (< yamamaq. yapamaq)**. ilişmək. yilişmək. ilinmək. yilinmək. pırtlaşmaq. birbirinə keçmək.

**yapaştırmaq** **yapaşdırmaq <>yapışdırmaq <> > əmiştirmək < yəmiştirmək < yamışdırmaq <> (< yamamaq. yapamaq).** nərsəni nərsiyə soxdurmaq, girdirmək, yapışdırmaq.

**yapaşu** yataşu. alt. aşağı. altdaki.

**yapat** **yapta**. ***1***.qapat. bağlı. qaraq. qaranlıq. ***1***.yapta. hüccət. ***1***.yaradılış. ***1***. qapat. çapat. çapaq. çapıt. çapıq. salaq. salıq. salış. sayaq. sayıq. sayış. çağday. çağlıq. çağlış. yağday. yağlıq. yağlış. şəkil. çəkil. çəkiş. çəkim. çəkit. duruq. duruş. durum. qılıq. qılış. qılım. qılıt. vəsf: vəsif. sifət. ***1***. büçülgə. bəlgit. qanıt. tanıt. hüccət. dəlil. bürhan. isbat.

**yapatan** **yapadan.yapayan**. **yaradan**. **yasadan**. **yapan**. **yaran**. **yasan**. bəşər. bəcər. bəcərən. başaran. başar. baş ər. düzən.

**yapatlamaq** **yaplamaq**. düzəltmək.

**yapatma** **qapatma**. **sapatma**. **çapatma**. evlənmədən bir kişi ilə yaşayan qadın. oynaş. metres.

**yapatonlu** **yapadonlu**. donlu. kölgəli. onurlu. arlı. abırlı. utanclı. utanıc. ismətli. namuslu.

**yapatonlu** **yapadonlu**.namuslu. iffətli. donlu. arlı. abırlı. utanclı. utanıc. şərəfli. ismətli.

**yapatonsuz** **yapadonsuz**. donsuz. qölgəsiz. onursuz. arsız. abırsız. utancsız. utanıcsız. ismətsiz. pezəvəng. qaldaban. çaldaban. namussuz.

**yapaturmaq** **yapadurmaq**. yapmaya davam edmək**.**

**yapay** ***1***. yapan. yasan. quran. düzəldən. düzən. düzəy. ***1***. **yapma**. qondarma. taxma. düzmə. yansıq. uyduru. uydurma. süni'. məsnoi'. ***1***. **yapan. yasan**. aparan. işləyən. bəllətən. bələtən. yeritən. yeridən. yürütən. uyqulayan. ifa', icra edən. mücri.

**yapay** yabay**.** ***1***. yapan**.** yapıcı**.** ***1***. qonma. qoyma. yonma. qacı. məsnovi. sünni. məsnovi. **- qaci dariy**: suni ipək.

**yapayalnız** yapyalnız. təki tənha.

**yapayan** **yapadan**. **yaradan**. **yasadan**. **yapan**. **yaran**. **yasan**. bəşər. bəcər. bəcərən. başaran. başar. baş ər. düzən.

**yapayım** **- qaş yapayımdərkən**, **göz çıxarmaq**: düzəltməyə çalışırkən pozmaq.

**yapaylı** **yağdaylı. çağdaylı.** tutumlu**.** imkanlı**.** şərayitli**. - yapaysız**: imkansız**.** imkanı olmayan.

**yapaysəyiş** **yıpsayış**. **yorsayış**. yeğnisəyiş. yersəyiş. yengisəyiş. engisəyiş. yüngülsəyiş. kiçişsəyiş. kiçimsəyiş. kiçiksəyiş. alçasəyiş. alçaqsəyiş. düşürsəyiş. kəmsəyiş. korsayış. xarsayış. əsgisəyiş. üzsəyiş. kütsəyiş. xəfifsəyiş.

**yapba** tükə. tükkə. islatılmış mal heyvan kübrəsindən yapılan kündə.

**yapbac** **yabbac**. yap. yapca. oğrın**.** yavaşca. **- yapbac**: **yabbac**: yab yab: yap yap**.** yapca yapca**.** oğrun oğrun.

**yapbanmaq** sığınmaq**.** əğilmək**.** yan yatmaq**.**

**yapca** **yabca**.*1*. yap. yapbac. oğrın**.** yavaşca. **- yapca yapca**: yapbac: yabbac: yab yab: yap yap**.** oğrun oğrun. *1*. yavaş**.** yavaşca. *1*. lapça. yassı. düz.

**- yapca yapca**:. yavaş yavaş**.** yasda yasda**.** azın azın**.** arqın arqın**.** yapca yapca yığıb birdın birə itirən dünya.

**yapcaq** **yapraq**. qapcaq. səfə. səfhə.

**yapcar** **avşar**. *1*. başarıqlı. *1*. uyumlu. itaətkar.

**yapcasına** yassı yönünə. tərəfinə. düzləməsinə.

**- yapcasına salmaq**: düzəyinə qoymaq**.** yatsına qoymaq**.**

**yapcı** **yapıcı**. *1*. tüzağac. düzəkçi. düzəci. düzədici. sazqur. tikici. uzan. *1*. düzəldən**.** inşaatcı.

**yapcıq** **yapqıc**. **yapşaq**. taxı. çalaq. ək.əkik. əklik. əklənti. bəzək. süs. barlaq.

**yapçalı** yassı dallı, tikənli çit çalısı.

**yapçan** yavçan. yavşan.

**yapçıl** içli. içgin. törəli. yöndəmli. əsaslı. bünyəvi.

**yapçın** **yupçın**. bəsic. hazır. təyər. amadə.

**- yapçın yupçın**: hap hazır.

**yapçınmaq** yavçunmaq. yapçunmaq. yapışdırılmaq. yapşunmaq.

**yapçırmaq** yavçurmaq. yapıştırmaq. yapçurmaq. yapşurmaq. yapşırmaq.

**yapçunmaq** **< > yapçınmaq**. yavçunmaq. yapçınmaq. yapışdırılmaq. yapşunmaq.

**yapçurmaq** ***1.*** təpçürmək. yapşurmaq. yavçurmaq. yapışdırmaq. vəsl edmək. rəbt edmək. **-** oxa yun **yapçur. *1.*** yavçurmaq. yapıştırmaq. yapçırmaq. yapşurmaq. yapşırmaq.

**yapi** ***1.*** bir quruğun biçimi, duruşu. bünyə. ***1.*** uru. bina. **- daş uru**: daşdan yapılmış yapı**. - uru palçığı**: samanlı çamır sıvı**.**

**-** yapını gürşadlamaq, gürşadlamaq, quşaqlamaq**.**

**- topaç** yapı: qıssa, qalın olaraq biçimsiz.

**-** iri **yapılı. - narin yapılı**: nəhifül bünyə.

**yapı** **1.** özdək**.** maddə**.** təməl**.** əsil**.** quruluş**.** oluş**. 1.** yapıt**.** yabıt**.** əsər**.** bina**. 1.** mamul, yapılmış**. 1.** ünvan**.** dərəcə. **1.** qılıq**. -** qurd **yapusunda** görünən tülkülərdə var**. 1.** şəkil**.** biçim**. 1.** gövdə**.** oylum**.** çəlik**.** fizik**.** vicud**.** əndam**.** cüssə**. 1.** qonut**.** inşaat**. 1.** bel**.** dağ beli**. 1**. yabı. örtük. **1.** qılma. yapma. **1**. çapı. biçim. şəkil. **1**. yapuq. dağ ətəyi.

**yapı** **1.yapıt**. **çapı**. **çapıt**. əndam. **1**. qalartıq. qalartı. qaraltı. qarartı. qarartu. qaramtı. qaramıt. qoraltı. qoramtı. qoramıt. barınaq. ev. tikiş. tikinti. bina. saxtıman. **- qaqır yapı**: daşyapı. daş bina. **-** bu yapını neçiyə **qabalaya** verirsin. muqatii'yə verirsin. **1**.çalqı. yol. yöntəm. yörtə. yetə. qılıq. yordam. fənn. sənət. **1.yapra**. **yapar**. **yası**. quruq. qurum. qurluş. quruluş. saxtar.

**1.(**yapılan**)** becəri. başarı. yaratı. yaratış. yarayış. saxt. **1**.gövdə. gövrə. bədən. tənə. heykəl. qaba saba. yontulmamış. yonulmamış. cüssə. iri. **1**.iş. yumuş. yabı. yapu**( < yapmaq)**. iş, yük atı. **1**.toxu. toxurcun **( < toxumaq)**. bir bütünün qurluşu. **1**.yapılış bünyə. **1**.yabı. yük at.

**- altyapı**:qabaltı. daban. binövrə. infirstirüktür.

**- bir yapının ocağından (mərkəzindən) yanlarına ayrılan bölüm**: qol.

**- bitişik yapılar**: kütlə. kitlə. tudə. topluluq. yığın.

**- duvardan çıxma yapı**: mindirmə.

**- yapı qurmaq**, **salmaq**: ev tikmək.

**- sağlam yapılı**: daş dəmir. ruyin tən.

**- sağlam yapılı**: qəvi bünyə.

**- yapı örtüsü**: dam.

**- yapı**, **qurum içindəki ara kəsit**, **duvar**: bölmə.

**- yapılarda yazılı**, **süslü daş**: ayna daşı.

**- yapının bitməyə yaxlaşması**: çatısı atılmaq.

**- yapının içindəki ara duvarlar**: kəsmə. bölmə.

**- yol <u>yapımında</u> işlənən qırıx daş**: balast **( < balamaq**: bölmək**).**

**- yapı**, **saxtıman işləri**: düzəltim. düzətim. yapım. yasım. yasam. qurum. inşaat. **-** gəmi **yapım**: inşaatı. **- çala çalqısı**: **oğru borusu**: **oğru kələfcəsi**: oğrunun işlədən, yararanan yolları, qılıqları, yordamları.

**- böyük yönətimlərdə**, **yapılarda qapıçı**: qapı oğlanı. qapıçı. qapıqul. nigəhban.

**- <u>yapıda, çardaqda</u> ağırlığı çəkən, uzunlamasına qoyulan qalın ağac, dirək**: qatır. çatır.

**- yapılada dikə qoyulan yoğun dirək**: qatıl. sutun.

**- xərmən yerlərində düzələn**, **üç yanı qapalı**, **bir yanı açıq yapı**: qaraban. qaravan.

**- qara yapı**: çamurla hörülmüş, sıvanmış yapı.

**- qarayapı**: çamır, kərpiçlə yapılmış yapı.

**- qatlı yapıda ən aşağıda olan qat**: qaradaban.

**- qatlı yapıda**, **yerüzə**, **yerdüzə**, **dabana yapışıq olan qat**: qaradaban. həmkəf.

**- yapı tikmək**, **düzəltmək**: salqamaq. salqatmaq. salığmaq. saxtıman, bina salmaq, yapmaq.

**- qaba yapı**: təməl yapı. ana kök. kök yapı. kök gövdə.

**- bu yapının** işçiliyi iyi deyil.

**- yapılarda yırtıq yamaq işlərin aparması**: kəvəs onarı.

**- yapılarda**, **yükü daşıyan atı**, **dirək**: qanat. qonat.

**- yapıların üstündə bıraxılan düz dam, düzlük**: taraça. daraça. sərəcə. girbət. çirbət. çırbat. yetmə. yermə.

**- yapısı iri**, **kof**, **boş içli**: iri yapılı, qara qafalı. yekə kündəli, içi kövrəli. iri qapalı, içi kavalı. üzdən tox, içdən pox. gözü qara

**(**böyük**)**, küflü qafa. kavalan. kalağan. çalağan. çağalan. qaqalan. qaqadan. qabalan. qabavan. qabadan.

**yapıb** **- özünə tutanın tapıb**, **sözünə uyanın yapıb**.

**yapıbilqisi** biçimbilgisi. biçimbilim. şəkilbilgisi. morfoloji.

**yapıc** ***1***. yapan. çalıcı. çalğuçi. çarpıcı. düzən. sazəndə. ***1***. zireh.

**yapıc** **yapış**. **yaxış**. **yakıc**. **yaxıc**. biçiş. biçim. biçik.

**- yapıc yasıc**: ifrat təfrit. qasıq qısıq. ağır yüngül. anğıl engil. aşırı yasırı. doluq soluq. qatı yatı. bəkiş çəkiş. qatır yatır. qamıt kəmit. artıq əksik. qaşağı aşağı. uzuq üzüq. alt üst. artıq yartıq.

**yapıcı** ***1***. **yapan**. **yapqan**. **yapqır**. yasağan. yasan. işlər. işləyən. işəngir. işəngər. edgər. edgir. edmən. qılğan. qılcan. qılqar. qılqan. görücü. görücən. görcən. görəngən. ərcil. fəal. əktiv. ***1***.yapan. edən. edici. qılan. qılıcı. ***1***.qurucu. quran. müəssis. ***1***.kargər. müstəri. ***1***.döşəmçi. döşəyici. qurucu. müəssis. ***1***.me'mar. ***1***.**yapılı**. olumlu. uyqun. uyuşlu. uyşuqlu. faydalı. müsbət. pozitif.

**- yapıcı güdə söz**: qısa, göstərişli söz: qut, qıt söz: özlü, qısa

söz: dərli, toplu söz: us, qıs söz: ötəyiş. ötləyiş. özdeyiş. muxtəsər, müfid kəlam. vəciz.

**yapıcı** ***1***. **yapcı**. yapan. işçi qılqul. qılıcı. işləyən. amil. tüzağac. düzəkçi. düzəci. düzədici. sazqur. tikici. uzan. ***1.*** itmiş**.** edmiş**.** uzman**.** ***1.*** yabay**.** yapay**.** yapan**.** yaban**.** yaparlı**.** olumlu**.** yapar**.** ürətgən**.** ***1.*** yabır**.** əktif**.** çalışqan**.** yumutqan**.** birləşdirən**.** pozitif**.** ***1.*** bənna**.** me'mar. ***1***. sane'. amil. me'mar. bənna.

**yapıç** **abıç**. könüllü.

**yapıçı** **yapımçı**. **yasımçı**. **yasamçı**. düzətimçi. qurumçu. inşaatçı.

**yapıq** ***1.*** **qapık. yap**ılmış**. qap**ılmış**.** bağlı**.** yapındi yollar: qapandı**.** kəsildi**.** bağlandi yollar**.** ***1.*** **qapık.** yapılmış**.** qapılmış**.** yapılğan: qaplanğan qaplanğan**.** qapaqlı**.** qapalı**.** örtülü**.** ***1.*** allı**.** süsli**.** bəzəkli geyim**.** ***1.*** yeni çərilərin üst örtüsü **>** qapamaq**.** ***1.*** hər çeşit örtük**.** örtən**.** qapaq**.** yəmşək**.** baş örtüsü. ***1***. qapıq. gizli. örtülü. ***1***. yibiq. dəri. post. çabıq. örtülü. qapalı.

**- yapıq bazar**:. örtülü bazar.

**yapıq** ***1***. yapıqlıq. quruq. quruqluq. qoyuq. qoyuqluq. darıq. dərik. tərh. ***1***.edik. məşqul. işqal. mingəl. **-** tam tilfun xətləri

**yapıqdır**.***1***.yapaq. yapağı. yapıncaq. yapraq. ambalaj. bağ. bağlac. bağlayıc. bağlantı. bağlam. bürük. örtü. örtüc. örtmə. örtməc. örtbas. örtənək. duvaq. tutac. peçə. paket. qapat. qaplac. qapıc. qapıq. qapaq. qapa. qapal. qapan. qapam. sarqı. köynək. gömlək. ***1***.viran. xərab. ***1***.yassı. yatıq. kovtur **>** çotur **( < çov**. **kov**: oyuq. boş**). - yapıq burun**: çotur. ***1***.qapıq. bağlı. çıxmaz. kor. bünbəst. ***1***.əsrük. çalqın. çanğıl. qanğıl. qandıl. qanşaq. qayşaq. çəntil. qəndil. kəndil. çəltik. çəllək. kefli. tutuq. məst.

**yapıqlı** ***1***. yapışıqlı**.** bir birinə girmiş**.** sıx: yapığlı göycə çimən güzə qalmazdədə qurqud. ***1***. yaprıq. yapıqlıq. qapalı. qapanmış.

**yapıqlıq** ***1***. qapalıq. yapusluq **(> əbus)**. boğnaqlıq. somurtqan. asığlıq. sallaqlıq. qaşqabaqlıq. turşuluq. turşalıq. əkşilik. ***1***. yapıq. quruq. quruqluq. qoyuq. qoyuqluq. darıq. dərik. tərh. ***1***. **yapışlıq**. **yapma**. ediklik. edişlik. qaplanma. qaplanış. qapanma. qapanış. ilişiklik. ilgilənmə. ilgiləniş. çalışma. çalışlıq çalşıqlıq. uğraqma. uğraşma. uğraqlıq. uğraşlıq. məşquliyyət. məşqul olma. iştiğal.

**yapıqlıq** yapıqlı. yaprıq. qapalı. qapanmış.

**yapıgmaq** **( < yap).** yapılmaq.

**yapıl** **abıl**. mayıl. meyilli. könüllü. istəkli.

**yapıl** qurul. bina.

**- yapıl sapıl:. əbil səbil**: **< yapıl sapıl**. **(yapmaq**: örtmək# ötürmək**).** sərəsən. buraxılmış sərpilmiş. iyəsiz. sahabsız.

**yapıl** **yamıl**. yavaş. sakin. xəfif.

**yapılacaq** **- yapılacaq nərsə qalmamaq**: iş işdən keçmək.

**yapılaq** ***1***. bax **> yalpaq**. **( l < > t ) yapıtaq**. **yabıtaq (yapı**: qurum**.** taxım + **laq**: sız**).** yapıtsız. çıplaq. əğərsiz. əkərsiz. yəhərsiz. **-** o atı **yapıtaq** mindi**.**

**yapılamaq** **apılamaq**. oxşamaq. öykəmək. xoş davranmaq. istəmək.

**yapılamaq** **yapıtlamaq**. **yapılatmaq**. **çapıtlamaq**. **çapılamaq**. bəzəmək. süsətmək. süslətmək. donatmaq.

**yapılan** **- gündə yapılan nə**: güncəllik. bayağı. rutin.

**yapılatmaq** **yapıtlamaq**. **yapılamaq**. **çapıtlamaq**. **çapılamaq**. bəzəmək. süsətmək. süslətmək. donatmaq.

**yapılı** ***1*.yaplı**. gövdəli. gövrəli. bədənli. tənəli. heykəlli. qaba saba. yontulmamış. yonulmamış. dağlı. cüssəli. boyrat. iriyarı. qalavatlı. irili. ***1***.saxte. ***1***.iriyarı. qalavatlı. boyu bosu yerində. dalyan kimi. ***1***.yapus **(>** əbus**)**. qapalı.

bağlı. boğnaq. somurtqan. əkşi. asıq. sallaq. aslaq. qaşqabaqlı. ***1***. gövdəli. gövrəli. kütdəli. tənəli. qalıblı. çəlimli. cəsim. cüssəli. ***1***. **yapac**. qabaç. əndamlı. qamətli. ***1***. **yapıcı**. olumlu. uyqun. uyuşlu. uyşuqlu. faydalı. müsbət. pozitif. ***1***. **yapıtlı**. **çapılı**. **çapıtlı**. əndamlı.

**- kiçi yapılı**, **sərt**, **quraq yerlərə dayanığlı sığır türü**: qarasıqır.

**- iri yapılı**, **gövdəli**: iriyarı. qalavatlı. iri qıyım.iri biçik. cüssəli.

**- iri yapılı**, **qara qafalı**: yekə kündəli, içi kövrəli. iri qapalı, içi kavalı. yapısı iri, kof, boş içli. üzdən tox, içdən pox. gözü qara **(**böyük**)**, küflü qafa. kavalan. kalağan. çalağan. çağalan. qaqalan. qaqadan. qabalan. qabavan. qabadan.

**yapılı** qatdır. bodur. sağlam. toqaşav. dolu, alçaq boylu. tıqnaz. güclü. **- iri yapılı**: görümlü**.** əndamlı**.** boylu boslu**. - iri yapılı**: qorda**. - iri yapılı**: sanlı**.** şanlı**.** quvvətli**.** heybətli**.** boylu boslu**. *1***. əsil**.** ünvanlı**. - yapılı** kişi: başqan**.** məmur**.**

**yapılın** **yaplın. yapalın. yapmın. yasılın. yaslın. yasalın. yasmın. qapılın. qaplın. qapalın. qapmın.** bodun. bütülün. bütlün. bütləyin. bütünləyin. bitilin. bitlin. bitləyin. bitmin.

hammısı. tammısı. tamısı. tamusu. büsbütün. topdan. kamilən. tamamən. təkmilən.

**yapılış** ***1*.yapılma**. düzəlmə yolu. tərzi saxt. ***1*.yapım**. quruluş. qurum. müəssisə. ***1***.yapı. bünyə.

**- iş**, **işləmə**, **əmək**, **yapılış netəliyi**, **kalitəsi**, **keyfiyyəti**: işçilik. **-** bunda çox **işçilik** var. **-** bu yapının **işçiliyi** iyi deyil. **- işçilik** baxımından.

**yapılış** ***1***. biçim**.** quruluş**.** qurum**.** çəkil **( > şəkil)**. ***1***. düzəliş. üslub. **-** bu **yapılışı** çox gözəldir**.**

**yapılqa** çapılqa. yapanqa. hənədən tapılan bazar, yer.

**yapılqan** **(qap**lanğan**).** yüklü**.** boylu inək**.**

**yapılma** işlənmə. düzəliş. e'mal olunma. **-** bu masanın **yapılmasi** qolaydır**.**

**yapılma** **yapılış**. düzəlmə yolu. tərzi saxt.

**yapılmaq** ***1*.** qurulmaq**.** urulmaq**.** tikilmək**. *1*.** keçələşmək**.** qarışmaq**.** yapışmaq**. *1*.** örtülmək**.** bağlanmaq**. *1***. çapılmaq. işlənmək. örtülmək. qapanmaq. ***1***. etilmək. edilmək. düzəlmək. hazırlanmaq.

**yapılmaq** qurulmaq. çatılmaq.

**yapılmayıb** **- özənlə yapılmayıb, qobud düşən iş**: ələki. qaba qavşaq. **- qaba qavşaq** bir işdir: əsərdir.

**yapılmış** ***1***. qoyma. əğrəti. sünni. əkmə. əklənmiş. doğal, təbiy olmayan. **- əğrəti** diş: qoyma diş. **- əğrəti** saç. ***1***. yapınc. yapıncaq. dəb. mə'mul. ürətilmiş.

**yapılmış** qurulmuş. çatıq. çatılmış.

**- evi yapılmış, qabı asılmış**. (çölməyi közdə, çörəyi dizdə. (əldə.).

**- çamır**, **kərpiclə yapılmış yapı**: qarayapı.

**yapıltaq** **yapıldaq**. **- qara yapıldaq**: ***1***. başaq tutmayan əkin. ***1***. **qara baş**: qara qanmaz: çox qanmaz. vurdumduymaz. ***1***. heç dərdə dəğməyən.

**yapıltaq** **yapıldaq**. çıplaq. lüt.

**yapım** **yapma**. **yapış**. ***1***.ürətiş. ürətmə. ürtəyiş. törəyiş. törətiş. törəmə. törətmə. işləmə. işləyiş. işlətiş. e'mal. arıya gətirmə. ***1***.iş. qılım. qılış. ***1*.yasım**. **yasam**. düzəltim. düzətim. qurum. inşaat. yapı, saxtıman işləri. **-** gəmi **yapım**: inşaatı. ***1*.yapılış**. quruluş. qurum. müəssisə. ***1***.atım.

**- işdəş yapım**: **iştəş çatı**: **işdəş fe'l**: neçə öznənin **(**failin**)** qarşı qarşıya yapdığı durum. **-** deyi**ş**mək. **-** sava**ş**maq.

**yapım** **yasım**. quruluş. saxtar.

**yapımçı** **yapıçı**. **yasımçı**. **yasamçı**. düzətimçi. qurumçu. inşaatçı.

**yapın** ***1.*** ibadət. ***1.*** namaz. ***1***. baylaq**.** bayqal**.** qapal**.** pənahqah**.** ***1***. yapqar. iş bilən. işin püfün qılığın bilən. uzman. **-** qılını bilən qızıl geyər, yapının bilən yaşıl geyər: xoşa gəlmək istəyən qırmızı geyər, iş yapmaq istəyən yaşıl geyər. **(**qızıl iş can aparır, yaşıl iş aparır**)**.

**yapın** ***1***.qoruq. qapıs. mən'. ***1***.namazxana. ibadətqah.

**yapınc** qısqıc. icbar. məcburluq. qıyıq.

**yapınc** yapıncaq**.** yapılmış**.** dəb**.** mə'mul**.** ürətilmiş**.**

**yapınca** **< yap. (**yapmaq**.**tikmək**)** tikilmə**.** örtüncə.

**yapıncaq** ***1.*** örtük. özəlliklə uzun tüklü at geyimi. güstüvan. coşun. ***1.*** bir çeşit üzüm. ***1***. böyük aba. yapuq. yenqsiz cul. kəpəng. basturuq. yağmurluq. uzun gəbə. ***1***. keçə. geyiz. yastıcaq. ***1***. yapınc**.** yapılmış**.** dəb**.** mə'mul**.** ürətilmiş**.**

**yapıncaq** **apıncaq. qapıncaq**. qaycaq. dəvamlı ayaqı taxılan. sürçən. **-** ol **apıncaq** yaşçıq, qaçan da yıxılıb turadı: o ayağı davamlı taxılan cocuq hər zaman yerə düşür.

**yapıncaq** yapıq. yapaq. yapağı. yapraq. ambalaj. bağ. bağlac. bağlayıc. bağlantı. bağlam. bürük. örtü. örtüc. örtmə. örtməc. örtbas. örtənək. duvaq. tutac. peçə. paket. qapat. qaplac. qapıc. qapıq. qapaq. qapa. qapal. qapan. qapam. sarqı. köynək. gömlək.

**yapıncı** kəpəng**.** üst geyim**.** çağdaş sözlə 'kotşalvar' demək olar**.**

**yapıncıq** suvlıq**.** yəmşək**.** örtük**.**

**yapınçı** örtü**.**

**yapınılmaq** ***1***. görmək. yaşamaq. durmuşmaq. tanıqmaq. izləmək. dolanmaq. gəzinmək. ərşinmək. keçirmək. çəkmək. uğramaq. sürmək. içində bulunmaq. üzlənmək. ərişmək. mə'ruz qalmaq. **-** bu ova çox olay **görmüş**. **-** bu qıssa sürədə nələr **görmədik**. **-** ilgi **görmək**. **-** iyilik, yardım, varlıq, yoxsulluq **görmək**. ***1***. keçirilmək. çəkinilmək. uğranılmaq. sürünülmək. içində bulunulmaq. izlənmək. izdənilmək. iztənilmək. izərnilmək. görünülmək. yaşanılınmaq. durmuşunulmaq. tanıqınılmaq. dolanılınmaq. gəzinilmək. ərşinilmək. üzlənilmək. mə'ruz qalınmaq. **-** bu ovada çox olay **izlənilmiş**. **-** bu qıssa sürədə nələr **izlənilmiş**. **-** ilgi **izlənilmək**. **-** iyilik, yardım, varlıq, yoxsulluq **izlənilmək**.

**yapınış** **apınış.(**ayağı**)** taxılma. ilişmə.

**yapınış** bax **> yapınma**.

**yapınış** yapış. cə'l. saxta.

**yapınıvçı** **apınıvçı**. ayağı dəvamlı taxılan. şansı kömək olmayan. bəxtsiz.

**yapınma** **yapınış**. ***1***.yaraqlanış. yaraqlanma. donalma. donanma. donatış. donayış. donanış. taxınış. taxınma. quşanış. quşanma. qurşanış. qurşanma. qoşumlanış. qoşumlanma. düzəniş. düzənmə. qurunuş. qurunma. hazırlanış. hazırlanma. tərtib, tədarük, mücəhhəz, təchizləniş. ***1***.diziliş. düzülüş. düzülmə. dizilmə. olşunuş. oluşunuş.

**yapınmaq** ***1.*** hazırlaşmaq**.** özü üçün qurmaq**. -** ev **yapınmaq. *1.*** örtünmək**.** yörgənmək**.** bürülmək**. *1.* tap**ınmaq**.** avunmaq**.** övünmək**.** təskinlənmək**.** yatışmaq**.** gizlənmək**.** saxlanmaq**.** tapınmaq**.** içinə çəkmək. ***1.*** istifadələnmək. ***1.*** özənmək. hazırlanmaq. **-** quş yavrusi uçmağa **yapınır. *1.*** keçinməsi qolaylaşmaq. keçinmək. ***1.*** təzahür edmək. ***1.*** cə'l edmək. ***1***. etilmək. edilmək. qılınmaq. olunmaq. devrinmək. rəftar edmək.***1***. örtünmək. qapanmaq.

**yapınmaq** *1*.düzülmək. dizilmək. olşunmaq. oluşunmaq. ortaya çıxınmaq. *1*.taxınmaq. donanmaq. donalmaq. quşanmaq. qurşanmaq. qoşumlanmaq. düzənmək. yaraqlanmaq. yarqalanmaq. hazırlanmaq. tərtib, tədarük, mücəhhəz, təchiz edinmək. qurunmaq. *1*.tutumlanmaq. qılınmaq. təşəbbüs edmək. taxınmaq. davranmaq. *1*. **qapınmaq**. sıxıntıya düşmək. *1*. qılınmaq. işlətmək. **-** sən olara **qapınma**, qara gördün **yapınma (qara**: tiryək. **)**.

**yapınmaq** bax **> abınmaq**.

**yapınmaz** **yamınmaz <> yapanmaz > əminməz < yəminməz < (< yamamaq**. **yapamaq)**. *1*.onarmaz. düzəlməz. çıxırsız. düzəsiz. onarsız. onursuz. olunmaz. otsuz. otasız. arnaşsız. əlacsız. *1*.qeyrimümkün.

**yapıntırmaq** **yapındırmaq. apındırmaq. qapındırmaq**. düşürmək. səndələtmək. duraqsatmaq. quşquya düşürmək.

**yapıntırmaq** **yapındırmaq**. *1.* əldə etdirmək**.** qapmaq: siz bu işləri yapındırın**.** işləri yapındırıp gəldik**.** yaxcı qapıda tökülmüyüb ki qaçıb yapındırasan**.** yazı birinə yapındırır birinə qapındırır**.** *1.* öyrətmək**.** alışdırmaq**.** hazırlamaq**.** büründürmək**.**

**yapıp** **- nə yapıp yapıp**: nə olursa olsun. hər halda.

**yapır** ***1***.**yapr**. yaprıq **>** əbr. örtünğ. tozanaq. tozqanaq. ***1***.yataq paltarı. incə, qalın genə bol geyim. rub dö şambğ. ***1***.yabır **(fars)**. sevirğal. siyurğal. yaşam üçün verilən sovğat.

**- həm yapır**, **həm yaxır**: bir suçlu, birdə güclü. suçluğun aldırmayıb, qabaxdan gələn.

**yapır** **yapur. *1*.** yumşaq. düz. saf. hamar. ***1*.** əğri. sallaq. **- yaprı** qulaq: əğri, sallaq qulaq**.**

**yapıran** yatıran**.** tapıran**.** çapıran**.** müsəggin**.**

**yapırılmaq** rahatlanmaq. sakinləşmək.

**yapırqa** bax **> qabırqa**.

**yapırlanmaq** rahatlanmaq. fərəhlanmaq.

**yapırlı** **yapırlı**. **yaprılı**. **> abırlı**. **abrılı**. yığcam. açıq olmayan. qorulu. qorlu. qısrıq. üzlü. utanclı. usanclı. uyanclı. qapaqlı. qapaqlıq. qabaqlıq. məhcub. xəcalətli. yapadonlu. namuslu. iffətli. donlu. arlı. utanclı. utanıc. şərəfli. ismətli. ırlı. hırlı. utanqac. **-** **hırsız** **hırlı** mı bəlli deyil.

**yapırmaq** **> ibermək**.

**yapırmaq** **yapurmaq. *1***. **tap**ırmaq**. yat**ırmaq**. çap**ırmaq**.** təskin vermək**.*1*.** yumşatmaq. hamarlamaq. **-** yer **yapurdı. *1*.**

gizlətmək. örtmək. **-** o sözün **yapurdu. *1***. soğutmaq. üşütmək. ***1***. təsəlli edmək. təskin edmək.

**yapırmaqlıq** təskin edmə. yatışdırma.

**yapırsız** **yaprısız > abırsız**. qölgəsiz. onursuz. yapadonsuz. donsuz. arsız. utancsız. utanıcsız. ismətsiz. pezəvəng. qaldaban. çaldaban. namussuz.

**yapırsızlıq** **> abırsızlıq** üzdən sağıdan düşüb, əzilib, sınma, batma. qaraçökəl. pis cürə pozulma, batma. rusvalıq. rüsvalıq. vərşikəslik.

**yapısız** capısız. çirkin. biçimsiz.

**yapış** ***1.*** apış. yapşı. bəndər. liman. ***1.*** ediş. qılış. oluş. devriş. rəftar. ***1.*** ariz. ***1.*** taxma ad. ləqəb. ***1.*** təmas. ***1.*** yapınış. cə'l. saxta. ***1.*** yasar. düzəliş. quruş. düzəş. dizəş. ***1.*** qılış. ediş. etiş. iş. ***1***. qılış. qılqu. qılqı. qılı. adət.

**yapış** ***1***.bax **> çapış.**

**yapış** ***1*****.yapıc**. **yaxış**. **yakıc**. **yaxıc**. yaxşıq. tapış. biçiş. biçim. biçik. durum. tərz. ***1*****.apış**. götün, but, uyluğun iç bölümü. ağ. ***1***.iş. oluş. eyləm. qılış. duruş. taxım. tutum. davranış. fe'l. hərəkət. ***1*****.yapım**. iş. qılım. qılış. ***1*****.yapma**. **yapım**. ürətiş. ürətmə. ürtəyiş. törəyiş. törətiş. törəmə. törətmə.

işləmə. işləyiş. işlətiş. e'mal. arıya gətirmə. ***1*.yapta**. **yapşa**. **yasış**. **yasaş**. **yasat**. yaratış. yarayış. yarat. yaratı. yaraşı. yapıt. ürət. ürtəş. ürəş. ürən. örət. örəş. örtəş. önüm. önüt. önür. törəş. törət. törgə. törəgə. törən. çıxartı. hasil. məhsul. tovlid. e'mal. məsnu'. mə'mul. ***1***. tutaq. tutaş. tutacaq. qapış. sap. qol. ***1***. **yapıt**. **yapma**. qılıt. qılış. qılma. görüt. görüş. görmə. ediş. edit. edmə. iadə. əda. ifa.

**yapış** **apış**. iki qıçın ağı, qovşağı.

**yapışan** **- <u>yanaşan</u>, <u>yapışan</u> iki nərsənin arasındaki açıqlığı qapamaq üçün qoyulan incə şırıq parça**: qonta. qonda.

**yapışan** ısın. ısı. xoş. gözəl.

**yapışar** **-** dil ətdəndir, nəyə vursan **yapışar**.

**yapışıq** ***1*.** dəvamlı. arqaş. ***1*.** apşaq. apşıq. çaltıq. açıla. ***1*.** qıçları aralı. **1.** gəvşək. yaramaz. yürüməz. gücsüz. açıla. təmbəl. ***1***. arqaş. davamlı. ***1***. əkrin **( < əkilmiş.** tikilmiş**)** tikin. yaxışıq. taxıq**.** qovuşuq. ***1***. tutaş. bitişik. bağlı bir düzü. peyvəsdə. ***1***. yapış**.** yappış**.** taxışıq**.** təşgilat.

**yapışıq** **apışıq**. ***1***.çataq.***1***. quyruğun iki qıçı arasına alaraq yılqın **(**ürkük**)** heyvan. ***1***. yorqunluqdan nə yapacağın bilməyən.

tuma qalmış. açıla qalmış. ***1***.birləşik. ***1***.yanyana. bitişik. ***1***.yanyana. bitişik. ***1***. **yamaşıq**. **yapaşıq. qapaşıq. qamaşıq.** yatışıq. uyuşuq. yuxuşuq.

**yapışınmaq** ***1***. **yaptınmaq**. **yaptanmaq**. **yapşanmaq**. yarşanmaq. yaratınmaq. yartınmaq. yaraşınmaq. yasışmaq. yasaşmaq. yasanmaq. öngünmək. önənmək. önünmək. ürənmək. ürşənmək. örənmək. örşənmaq. örtənmək. törənmək. törəgənmək. törgənmək. törşənmək. törlənmək. yaranmaq. çıxarınmaq. hasil, məhsul, tovlid, e'mal, məsnu', mə'mul olmaq, olunmaq. ***1***. əklənmək.

**yapışır** yapışqan. sivişik. zivişik. sıvaşık. qayar. **- sivişik** çamır**.**

**yapışqan** ***1*****.** sırnaşıq**.** qovuşqan**.** ulaşqan**.** ***1*****.** tutqal. ***1***. yılışqan. yılışıq. bulaşqan. ***1***. adama yapışır. yılışıq. sırtıq. sırıtqan. **- yılışıq** bir adam. ***1***. ağdalı. sozuq. süzük. ***1***. qatut. çiriş. siriş. yalım. yəlim. çəsb. tutuş. ***1***. tutqal **( < tutmaq)**. çəsb. üzlü. qəliz. yapışır. sivişik. zivişik. sıvaşık. qayar. **- sivişik** çamır**.**

**- balığ tutqalı**: almas işlərində işlənir, saydam özəl yapışqan. ***1***. yılım. yilim. ilim. tutqal.

**yapışqan** ***1***.**(**kimsə**)** yılışıq. ilişik. yılışqan. ilişgən. sıvışqan. suvaşqan. bulaşıq. bulan. bələşik. bələşən. çamır. balçıq. palçıq. çamsaqqızı. ***1***.palçıq. ***1***.sıvışıq. suvaşıq. ılımıq. yalımıq. bulaşqan. ***1***.tutqal. çəsb. ılım. yılım. çəsb. tutaq. **tuxat**. tutab. ***1***. qarağan. ***1***. özlü. qapır. **- özlü çamır**: ət palçıq. ***1***. çəsb. kiriş. **- undan yapılır**, **yapışqan**, **kirişli suyuq**, **sıvı**: xəşil. ip, parçanı sıvamaqda işlənir.

**- qoyu**, **tutaqlı**, **qəvamlı**, **yapışqan çamır**: balçıq. palçıq. çömləkçi çamırı.

**- yapışqan**, **fizul**, **sürtük kimsə**: balçıq.

**- palçığı özlü**, **tutumlu**, **yapışqanlı qara topraq**: qarakəpir.

**- yapışqan ot çeşiti**: qaraqatma. qaraçatma.

**- yapışqan yapraqlı**, **bodur (**külə yoğun**) bitgi**: qarağan.

**- yapışqan**, **qoxulu bitgi çeşiti**: qarağı. qarağan.

**- ağacların üstündə olan kiriggə deyilən yapışqan öğə**, **maddə**: qarınca balı. pişikbalı.

**- yapışqan öğə**, **maddə**: zamk.

**- yapışqan topraq**: gil. qarçın.

**yapışqanlıq** çamırlıq. sırnaşlıq. sırtıqlıq. tərbiyəsizlik.

**yapışqanlıq** yılışqanlıq. yılışıqlıq. bulaşqanlıq sırtıqlıq. sırıtqanlıq.

**yapışqən** **yapışgən**. birişgən. bitişgən. qavuşqan. qovuşqan. əkişgən. qatışqan. sapışqan. ilətgən. ulaşqan. bağışgən. iltisaqi.

**yapışlar** **yapıtlar**. **yaptalar**. **yapşalar**. **yasışlar**. **yasaşlar**. **yasatlar**. yaratışlar. yarayışlar. yaratlar. yaratılar. yaraşılar. törəşlər. törətlər. törgələr. törəgələr. törənlər. ürətlər. ürtəşlər. ürəşlər. ürənlər. örətlər. örəşlər. örtəşlər. önümlər. önütlər. önürlər. çıxartılar. tovlidat. e'malat. məsnuat. mə'mulat.

**yapışlıq** **yapıqlıq**. **yapma**. ediklik. edişlik. qaplanma. qaplanış. qapanma. qapanış. ilişiklik. ilgilənmə. ilgiləniş. çalışma. çalışlıq çalşıqlıq. uğraqma. uğraşma. uğraqlıq. uğraşlıq. məşquliyyət. məşqul olma. iştiğal.

**yapışma** ***1***. bağlanış. bağlanma. birkinmə. birkişmə. birkiniş. birləşmə. qavuşma. əklənmə. əkləniş. qatılma. qatılış. yetinmə. yetiniş. saplanma. saplanış. iltənmə. iltəniş. ulaşma. ulaşış. düşüşmə. ***1***. sarılma. əl atma. qorunma.

**yapışma** iltisaq.

**yapışmaq** **<> yapaşmaq > əmişmək < yəmişmək < yamışmaq <> (< yamamaq**. **yapamaq)**. **apışmaq**. ***1***. hevanlar yorqunluqdan,

ürkməkdən qıçların açıla qoyub çökmələri. ***1***. şaşıb qalmaq. ***1***.sapışmaq. taxışmaq. ***1***.tutunmaq. ***1***.yapsamaq. çəsbidən (fars) < çapsamaq. ***1***.ilişmək. pırtlaşmaq. birbirinə keçmək. ***1***. yaxışmaq. əkləşmək. əkişmək. dölləşmək. aşılaşmaq. alışmaq. ürətinişmək. birkişmək. bitişmək. tutuşmaq. taxışmaq. bulaşmaq. gəlişmək. sataşmaq. quyruq olmaq.

**- ənsəsinə yapışmaq**: yaxalayıb bıraxmamaq.

**- vuruşub**, **yapışmaq**: əğləşmək. əkləşmək. əlavə olmaq. əlavələşmək. minişmək. izafələşmək. qatışmaq. artırışmaq. birikmək. birkişmək.

**- bir işə yüksəkdən başlamaq**, **tutmaq**, **götürmək**, **yapışmaq**: qapıyı böyük açmaq.

**yapışmaq** ***1.*** girişmək. **-** işə girişmək. ***1.*** israr edmək. **-** nə **yapışmısan** bu işə**. *1.*** təvəssül edmək. **-** o qapıya **yapışın. -** onun ətəyinə **yapışın. *1.*** ariz olmaq. sıvışmaq. örtüşmək. **(# savuşmaq**: ötrüşmək. keçişmək**). -** bu il əkilnə bir xəstəlik **yapışdı**: ariz oldı. **-** bu nə haldı bizə **yapışdı**. ***1***. çabışmaq. sıxıca tutunmaq. qarışqanmaq. üzərinə qapanmaq. ***1***. qabışmaq**.** qapışmaq**. *1*.** yaqlaşmaq**.** yamaşmaq**.**

çaplaşmaq**.** bulaşmaq**.** yatışmaq. ***1***. yılpışmaq. ılpışmaq. yaprulmaq. yıpranmaq. bağlanmaq. ilgişmək. sırılmaq. bulaşmaq. **-** nə mənə yılpışırsan.

**yapıştıran** **yapışdıran**.sapışdıran. saplayan. sancaqlayan.

**yapıştırı** **yapışdırı**. **yapışdırış**. artırın. artırış. artırma. qatınış. qatma. qatama. əğləmə. əkləmə. mindiri. mindiriş. mindirmə. izafələmə. əlavə edmə.

**yapıştırılmaq** **yapışdırılmaq**. ***1***. yapçınmaq. yapşunmaq. yavçunmaq. yapçınmaq. yapçunmaq. yapşurmaq. yav çunmaq. ***1***. qomaq. qonulmaq. sürülmək. tədhin edilmək**. -** boya **süründü. -** yağ **sürülmək**.

**yapıştırış** **yapışdırış**. **yapışdırı**. artırın. artırış. artırma. qatınış. qatma. qatama. əğləmə. əkləmə. mindiri. mindiriş. mindirmə. izafələmə. əlavə edmə.

**yapıştırlmamış** **yapışdırlmamış**. qaçıq. atlama.

